# Dünya Ermənistanda “kəsişməyəcək”




**Ermənistan hakimiyyəti 2020-ci il noyabrın 10-da İkinci Qarabağ müharibəsinin başa çatmasını rəsmiləşdirən üçtərəfli bəyanatın sonuncu bəndini 4 ildən çoxdur ki, icra etməkdən boyun qaçırır. Söhbət, təbii ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsini nəzərdə tutan doqquzuncu bənddən gedir.**

Həmin bənddə açıq-aydın yazılıb ki, Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Eyni zamanda, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti orqanlarının həyata keçirəcəyi qeyd olunub. Tərəflərin razılığı əsasında Naxçıvan MR-lə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi də bəyanatda öz əksini tapıb.

**(ardı 11-ci səhifədə)**


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 285 (30689) 25 dekabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: “24.12.2024. Doğum gününüz mübarək, cənab Prezident! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!”.

# Azərbaycanın idman dövləti kimi beynəlxalq nüfuzu ilbəil yüksəlir

### Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib



**Dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**

**(ardı 2-ci səhifədə)**

# Azərbaycan–Türkiyə – bir millətin iki dövləti



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdıraraq, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Rəcəb Tayyib Ərdoğan ölkəmizin inkişaf etməkdə olan səkkiz dövlətin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) üzvü seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezident İlham Əliyev öz növbəsində bu məsələdə Türkiyənin Azərbaycana göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan-Ermənistan normallaşma prosesi, regional təhlükəsizlik məsələləri müzakirə olunub. Suriyada Əsəd rejiminin çökməsindən sonra müsbətə doğru irəliləyiş məmnunluqla qeyd edilib, Suriyanın sosial və iqtisadi inkişafı ilə bağlı birgə səylərin göstərilməsi razılaşdırılıb.

Dövlət başçıları ölkələrimiz arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığımızın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

**Prezidentin Mətbuat Xidməti**

## Prezident İlham Əliyevin “yaşıl” enerji siyasəti



Səhifə ⇨ 8

## Trampın enerji planı dünyaya nə vəd edir?



Səhifə ⇨ 15

## “Soros fondu” Gürcüstanı dinc buraxmaq istəmir



Səhifə ⇨ 15

# Paşinyanın “debat şousu” təşəbbüsü

## *“Qarabağ kartı” və 2026-cı il seçkilərinə hazırlıq*

**Ermənistanın baş naziri Nikol Paşinyan indidən ölkədə 2026-cı ildə keçiriləcək parlament seçkilərinə hazırlaşır. Necə hazırlaşır? Çox sadə. Nikolun seçdiyi ənənəvi yol var. O, bir qayda olaraq, özündən əvvəlki iqtidar üzərinə köklənir. Daha doğrusu, həmin iqtidarın tənqidinə. Tənqiddə isə başlıca mövzu Qarabağdır. Paşinyan hər vəchlə sübut etməyə çalışır ki, Qarabağ itkisinə görə günahkar özü yox, ekslərdir.**



Əlbəttə, Ermənistanın keçmiş liderləri də, necə deyərlər, borclu qalmır, öz arqumentlərini səsləndirir və Qarabağın əldən getməsində hazırkı iqtidarı ittiham edirlər. Bu, hər bir halda, çox asandır. Çünki Nikolun “Qarabağ Ermənistandır və nöqtə” deyərək, Azərbaycanla danışıqlar prosesini dalana dirəməsi və durumu gərginləşdirməsi reallığı var. O reallıq ki, 44 günlük müharibənin başlanmasında başlıca rol oynamışdı.

N.Paşinyan da durumun fərqindədir və 2019-cu ildə Xankəndinin mərkəzi meydanında səsləndirdiyi bəyanatın nəyə gətirib çıxardığını gözəl bilir. Amma eksləri günahlandırmaq üçün başqa tutarlı nə isə tapa bilmir. Mövcud situasiyada diqqətçəkən bir məqam da var. Söhbət Qarabağ mövzusunun Ermənistanda hələ də başlıca diskussiya predmeti olaraq qalmasından gedir. Həm müxalifət, həm də iqtidar cəbhəsi məsələyə eyni dərəcədə önəm verirlər. Daha dəqiq desək, hər iki cinah Qarabağ itkisinə görə “günah keçisi” axtarır, beynəlxalq hüquq prinsipləri isə yada düşmür. Bu, onu göstərir ki, bütövlükdə, erməni cəmiyyəti və siyasi istebleşmenti xəstəlikdən qurtula bilmir.

**(ardı 9-cu səhifədə)**

# Şuşanın su şəbəkəsi yenidən qurulur



Səhifə ⇨ 12

# Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib






(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

– Əziz idmançılar, əziz dostlar.

İlk növbədə, Azərbaycan idmançılarını bu il əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi layaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.

Əlbəttə ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada da biz tarixi nəticə əldə etmişik. Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir.

Onu da deməliyəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır.

Təbii ki, bu gözəl nəticədən sonra növbəti yarışlarda da idmançılarımızdan qələbələr, uğurlar gözləyirik. İdmançılarımız Azərbaycan xalqını öz qələbələri ilə daim sevindirirlər. Əlbəttə ki, gələn il və ondan sonrakı illərdə idmanın inkişafı üçün nə lazımdırsa, o da ediləcək. Çünki Azərbaycan dövlətinin siyasəti bu istiqamətdə çox açıqdır, birmənalıdır və uzun illər ərzində aparılır.

İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var. Xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi sağlığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, əlbəttə ki, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və edirdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir.

Əminəm ki, bu dəfə idmançılarımız qalib ölkənin nümayəndələri kimi idman arenalarına, döşəklərə, idman meydançalarına tamamilə fərqli bir ovqatla çıxırdılar. Bu gözəl nəticə dövlətimizin gücünü bir daha göstərdi.

Bizim bundan sonrakı fəaliyyətimiz təbii ki, idmanın inkişafı ilə bağlı olacaq. Çünki bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Ümid edirəm ki, bizim həm ənənəvi medal gətirən idman növlərində, həm də bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur, müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində. Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını




keçirmişdik. Ondan sonra İslam Həmrəylik Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçirilmişdir. Yəni, burada da vaxtilə inşa etdiyimiz idman obyektinin - Olimpiya Stadionunun böyük rolu olmuşdu. Çünki əgər vaxtilə biz bunu etməsəydik, bu boyda, bu miqyasda beynəlxalq tədbiri keçirə bilməzdik - 197 ölkə, 76 min qeydiyyatdan keçmiş iştirakçı təmsil olunurdu və qonaqların məmnunluğu xüsusi qeyd edilirdi. Cəmi 10 şikayət var idi, onlar da tezliklə öz həllini tapdı.

Bölgələrdə isə dediyim kimi, bundan sonra da bu işlər aparılacaq. O ki qaldı, azad edilmiş ərazilərə, siz yaxşı bilirsiniz ki, o ərazilərdə infrastruktur layihələri ilə yanaşı, keçmiş köçkünlərin yaşayışı üçün inşa edilən evlərlə yanaşı, idman infrastrukturu da yaradılır. Bəziləri hesab edə bilər ki, bu, bir az tezdir. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki bu idman obyektlərinin həm rəmzi mənası, həm də funksional tərəfi var. Məsələn, İmarət stadionunun inşa edilməsi - bunun çox böyük rəmzi mənası var. İndi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edilir. Füzuli şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulub. Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur. Düz bir il bundan əvvəl Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik. Amma bu stadion da bütün beynəlxalq standartlara cavab verəcək və bu stadionun yenidən qurulması prosesi gələn il başa çatmalıdır. Azad edilmiş ərazilərimizdə digər idman qurğularının tikintisi nəzərdə tutulur və bütün bu işləri biz ardıcıllıqla edəcəyik.

Gələn il Azərbaycan növbəti böyük idman yarışına ev sahibliyi edəcək, bu da MDB Oyunlarıdır. Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi.

Gəncə şəhərində isə 7000 iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək üçün əlbəttə ki, şərait yaradılmalıdır və müvafiq göstərişlər verildi. Gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər.

Biz ilin sonunda, ya da ki, hər ilin əvvəlində ənənəvi olaraq idmançılarımızı təltif edirik - dövlət təltifləri ilə, mənzillərlə. Bu proses artıq 27 ildir ki, davam edir. Çünki mən Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə seçiləndən sonra çox yaxşı görürdüm ki, əgər idmançılara dövlət qayğısı göstərilməsə, idman inkişaf edə bilməz və idmanın inkişafının bir çox amilləri Azərbaycanda vəhdət təşkil edir, ilk növbədə, dövlət dəstəyi. Bütün təltiflər tamamilə əsaslıdır. Həm idmançılar, həm də idman ictimaiyyətinin nümayəndələri, eyni zamanda, məşqçilər və digər idman mütəxəssisləri dövlət tərəfindən layiqincə qiymətləndirilir və bu da ədalətlidir.

Hər yerdə ədalət olmalıdır - beynəlxalq münasibətlərdə, ailədə, hər bir ölkədə, hər bir cəmiyyətdə. Biz buna çalışırıq. Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələbəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Çünki idmanın inkişafı hər bir ölkənin ümumi inkişafının nümayişidir, onu əks etdirir. Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qarşısında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir.

Bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Artıq 30 ilə yaxındır ki, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq.

O ki qaldı, Qarabağ və Şərqi Zəngəzur bölgələrinə, mən bilirəm ki, bizim idmançılarımız müntəzəm olaraq o bölgələrə səfərlər edirlər. Artıq orada 10 min insan yerləşib. Onların böyük hissəsi uşaqlardır, gənclərdir. O yerləri heç vaxt görməyən uşaqlar, gənclər böyük həvəslə oraya qayıdırlar. Əlbəttə ki, Azərbaycanın görkəmli idmançılarının azad edilmiş torpaqlara müntəzəm səfərləri gənclər üçün də, uşaqlar üçün də böyük hadisə olacaq. Ona görə hesab edirəm ki, idman yarışları öz yerində, amma, eyni zamanda, indi müxtəlif tədbirlər çərçivəsində Azərbaycan idmançıları, cəmiyyətimizin digər tanınmış simaları, ziyalılar o bölgələrə nə qədər çox səfər etsələr, o qədər də yaxşı olacaq, həm onlar üçün, həm orada yaşayanlar üçün. Çünki orada həyat yenidən, sıfırdan qurulur. Bizim icra etdiyimiz layihələrin dünyada misli-bərabəri yoxdur və bəlkə də olmayacaq. Böyük coğrafiyada, 15-16 min kvadratkilometr ərazidə, - hansı ki, Ermənistan onu tamamilə yerlə-yeksan edib, - yeni həyat qurulur, özü də müasir, gözəl, rahat. Ona görə mənim idmançılara, idman ictimaiyyətinin nümayəndələrinə tövsiyəm odur ki, o bölgələrə və bütövlükdə digər bölgələrə də tez-tez getsinlər, orada həm görüşlər keçirsinlər, həm də ki, gənc idman istedadlarını seçsinlər. Çünki seleksiya işi, - indi idman mütəxəssisləri bunu yaxşı bilirlər, - əsas amildir.

Əziz dostlar, sizi uğurlar münasibətilə bir daha təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir, Yeni il gəlir. Bu bayramlar münasibətilə də sizi təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

*

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.

Dövlətimizin başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Natiq Bağırova, Rauf Bunyatəliyevə, Cavanşir Qurbanova və Sadıq Sadıqova Prezidentin fəxri fərmanlarını təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Nəriman Abdullayev və Rövşən Umudov "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adları ilə təltif olundular.

Prezident İlham Əliyev ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Zərqələm Abbasovaya, İqrar Cəfərova, Fərhad Əliyevə, Musa Mamedova, Nəsimi Musayevə, Aydın Məmmədova, Rəşad Rəsulluya, Tahir Tahirova və Vüqar Verdiyevə "Tərəqqi" medallarını təqdim etdi.

Dövlətimizin başçısı 2024-cü ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Anna Skidan, Vüqar Əzimov, Aynur Rzayeva, Sərxan Əliyev, Hidayət Heydərov, Zelim Kotsoyev, Vladimir Şulikin, Əliabbas Rzazadə, Rövşən Hacıyev, Rəna Həsənova, Könül Mikayılova, Qaşım Maqomedov, Sabir Həsənov, Vadim Kutukov, Anar Süleymanov, Elgiz Əlizadə, Şahin Xudaverdiyev, Ceyhun Hüseynov, Anar Məmmədov, İmaməddin Xəlilov və Ərkan Sağdıç yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Faiq Qarayevə, Mirağa Qiyasova və Ramiz Tağıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Sonra xatirə şəkilləri çəkdirildi.

*AZƏRTAC*

# Liviya Dövləti Prezident Şurasının Sədri Zati-aliləri cənab Məhəmməd Yunis Əl-Mənfiyə

**Zati-aliləri!**

Liviya Dövlətinin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Azərbaycan ilə Liviya arasında dostluq əlaqələrinin inkişafı məmnunluq doğurur. Sizin noyabr ayında COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi xoş təəssüratlarla xatırlayıram. Son bir il yarım ərzində Sizin ölkəmizə ikinci dəfə səfər etməyiniz dövlətlərarası münasibətlərimizin səviyyəsindən xəbər verir.

İnanıram ki, ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Liviya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngləri

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rusiya Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyətinə toxunulub, Vladimir Putinin bu il Azərbaycana dövlət səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmlənməsi işinə mühüm töhfə verdiyi qeyd olunub.

Telefon söhbəti zamanı strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirilib, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

**Dekabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı yüksək səviyyədə qarşılıqlı səfərlərin və mütəmadi təmasların ikitərəfli münasibətlərin inkişafına verdiyi töhfə qeyd edilib, Prezident İlham Əliyevin bu il Özbəkistana dövlət səfərinin əməkdaşlığımızın daha da gücləndirilməsi işində xüsusi rol oynadığı vurğulanıb. Qeyd olunub ki, həmin səfər zamanı imzalanmış müttəfiqlik münasibətləri haqqında Müqavilə ikitərəfli münasibətlərimizin ən yüksək zirvəsini nümayiş etdirib.

Özbəkistan Prezidenti COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsi ilə bağlı Prezident İlham Əliyevə bir daha təbriklərini çatdırıb və bu mühüm tədbiri ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsinin nümayişi kimi qiymətləndirib.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını ifadə edərək, Şavkat Mirziyoyevin COP29-da fəal iştirakına görə bir daha təşəkkürünü bildirib.

Prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə ad günü münasibətilə təbriklərini çatdırıb, prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı yüksək səviyyədə qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətinə toxunulub, bu il Qazaxıstan Prezidentinin ölkəmizə dövlət səfərinin əlaqələrimizin möhkəmlənməsi işində rolu xüsusi vurğulanıb.

Qazaxıstan Prezidenti COP29-un ölkəmizdə uğurla keçirilməsi ilə bağlı bir daha təbriklərini çatdırıb, bu tədbirin Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsi işinə töhfə verdiyini deyib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü ifadə edərək, Qazaxıstan dövlət başçısına COP29-da fəal iştirakı ilə bağlı bir daha minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb, əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı əlaqələrimizin perspektivləri, yeni təmaslar və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Əbdüllətif Camal Rəşid dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

İraq Prezidenti COP29-un uğurla təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentini təbrik edib.

Dövlətimizin başçısı təbrikə görə təşəkkürünü bildirib, Əbdüllətif Camal Rəşidə COP29-da iştirakı ilə bağlı bir daha minnətdarlığını ifadə edib.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İrakli Kobaxidze dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin bundan sonra da müxtəlif sahələrdə uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri və qarşıdan gələn ildə yeni təmaslar barədə fikir mübadiləsi aparılıb.

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Ersin Tatar dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlətimizin başçısının Ersin Tatarla Bakıda və digər beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlanıb, Ersin Tatarın bu il Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakının önəmi vurğulanıb, gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

**Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Patriarx Kirill dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirilərək, humanitar sahədə əməkdaşlığımızın bu işə töhfə verdiyi qeyd olunub, Patriarx Kirillin Azərbaycana səfərlərinin humanitar əməkdaşlığın möhkəmlənməsində rolu vurğulanıb.

Telefon söhbəti zamanı ölkələrimizdə dini-mənəvi dəyərlərin qorunub saxlanılması ilə bağlı həyata keçirilən işlər məmnunluqla qeyd edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də və 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 3.1.12-2-ci yarımbəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324 (Cild I); 2024, № 1, maddə 22, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 8.5-2-ci bəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 647) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.5-2-ci bəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 8.12-2-ci bəndində "illik hesabatları" sözləri "(qurumlarının) illik məlumatları" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.55-2-ci yarımbəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 dekabr 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 dekabr tarixli 244 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 55-4-cü hissə əlavə edilsin:

"55-4. Məcəllənin 517-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

55-4.1. əmlaka zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə, ictimai qaydanın və ictimai təhlükəsizliyin pozulmasına münasibətdə:

55-4.1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.1.2. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.2. əhalinin sağlamlığına zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə münasibətdə:

55-4.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.3. ətraf mühitə zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından – bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.4. qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin həyata keçirilməsinə yardım göstərilməməsinə münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından – fövqəladə hallar naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə rəisi, onun müavini, idarə rəisi, onun müavini, regional mərkəzlərin rəisləri, onların müavinləri, Mülki Müdafiə Qoşunlarının komandanı, onun müavinləri, Mülki Müdafiə Qoşunları hərbi hissələrinin komandirləri, onların müavinləri, Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi, onun müavinləri, Xüsusi Riskli Xilasetmə Xidməti hərbi hissələrinin komandirləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, onun müavinləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 dekabr 2024-cü il**

## Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 10 milyon ton artırılaraq 25 milyon tona çatdırılması məqsədilə limanın genişləndirilməsi üçün 2-ci fazasının tikintisi üzrə xüsusi layihə idarəetmə ofisinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan nizamnamə kapitalının artırılması üçün 20,0 (iyirmi) milyon manat vəsait "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə mənim və xanımımın səmimi təbrikimizi və xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Fürsətdən istifadə edərək bir daha əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı çox gözəl praqmatik və səmərəli əməkdaşlıq, həmçinin mövcud olan strateji tərəfdaşlıq münasibətləri gələcəkdə daha fəal şəkildə inkişaf edəcəkdir.

Bolqarıstan ilə Azərbaycanın səmərəli ikitərəfli təmasları və yüksək səviyyədə fəal siyasi dialoqu genişləndirmək, inkişaf etdirmək istəyi, həmçinin hər iki ölkənin buna hazır olması il ərzində həm ikitərəfli, həm də COP29 kimi mühüm beynəlxalq formatlar çərçivəsində Sizinlə keçirilmiş görüşlər və danışıqlar zamanı dəfələrlə nümayiş etdirilib. Sizin şəxsi töhfəniz və iştirakınız, şübhəsiz ki, bütün bu məsələlərdə böyük rol oynayıb.

Mən ölkələrimiz arasında olan ən yüksək siyasi, dövlət səviyyəsində dialoqu 2025-ci ildə də davam etdirməyə hazıram.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə yeni uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Rumen RADEV,**
**Bolqarıstan Respublikasının Prezidenti**

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu əlamətdar gündə Sizə cansağlığı, sevinc, ölkənizə firavanlıq və tərəqqi gətirən fəaliyyətinizdə davamlı uğurlar arzu edirəm.

Mən ötən ay Bakıda COP29-un təşkilində Azərbaycanın göstərdiyi səyləri qeyd etmək istəyirəm. Sammit qlobal iqlim çağırışları üzrə mühüm dialoq platforması rolunu oynadı. Biz bu müzakirələrin aparılmasında ölkənizin rolunu yüksək qiymətləndiririk.

Əməkdaşlığımızı davam etdirməyi və Moldova ilə Azərbaycan arasında qarşılıqlı maraq kəsb edən sahələrdə əlaqələri gücləndirməyi səbirsizliklə gözləyirəm.

Cənab Prezident, doğum gününüz münasibətilə Sizə bir daha ən xoş arzularımı çatdırır və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Maya SANDU,**
**Moldova Respublikasının Prezidenti**

***

**Zati-aliləri, hörmətli Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Müdrik rəhbər kimi Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə sadiqliyiniz həm ölkə daxilində, həm də xaricdə Sizə hörmət qazandırmışdır. Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan iqtisadi inkişafın təşviqində, beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsində və xalqınızın zəngin mədəni irsinin qorunub saxlanılmasında mühüm nailiyyətlər əldə etmişdir.

Xalqınızın rifahı naminə nümayiş etdirdiyiniz fədakarlıq və Azərbaycanın davamlı inkişafı yolunda göstərdiyiniz səylər çoxları üçün ilham mənbəyidir. Bu əlamətdar gündə Sizin nailiyyətlərinizlə yanaşı, sülh, həmrəylik və tərəqqi dəyərlərinə böyük önəm verməyinizi də xüsusi qeyd etmək istəyirəm.

Yeni ildə Sizə davamlı uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram. Azərbaycanı daha parlaq gələcəyə aparmaq istiqamətində fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edirəm.

**Hörmətlə,**

**Jelka TSVİYANOVİÇ,**
**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri**

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ailəsi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuram.

Bu əlamətdar gün Sizin uzaqgörən liderliyinizi və Azərbaycan Respublikasının tərəqqisinə, firavanlığına daimi sadiqliyinizi qeyd etmək üçün gözəl fürsətdir. Zati-alinizin dayanıqlı inkişafın təşviqi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi üçün göstərdiyi fədakarlıq istər Azərbaycanda, istərsə də dünya miqyasında böyük heyranlıq doğurmuşdur.

ICESCO Azərbaycanla möhkəm tərəfdaşlığı, həmçinin İslam dünyasında və onun hüdudlarından kənarda təhsil, elm və mədəniyyəti inkişaf etdirmək üçün ortaq missiyamıza verdiyiniz davamlı dəstəyi yüksək qiymətləndirir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram. Uca Allah Sizə daha böyük nailiyyətlər və gözəl xalqınıza davamlı rifah nəsib etsin!

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

**Salim bin Məhəmməd əl-MALİK,**
**ICESCO-nun Baş direktoru**

***

**Hörmətli cənab Prezident, əziz dost!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Böyük çağırışlara baxmayaraq, dünya 2025-ci ilin başlanmasını qarşıda daha parlaq günlərin olacağı ümidi ilə gözləyir. Azərbaycan öz potensialı, iqtisadiyyatı, mədəniyyəti və digər xalqlarla paylaşdığı ortaq dəyərləri ilə hər kəs üçün imkanların və uğurların olduğu dünya qurmağa töhfə verir. Dövlətin qarşısında duran əsas vəzifələri səmərəli şəkildə yerinə yetirmək və beynəlxalq məsələlərin həllində kompromislər tapmaq bacarığınız Sizə haqlı olaraq bütün dünyada yüksək nüfuz və hörmət qazandırıb.

Cənab Prezident, icazə verin, Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, firavanlıq və çoxşaxəli fəaliyyətinizdə uğurlar arzulayım. Şadam ki, Sizə dost deyə müraciət edə və ünsiyyət qura bilirəm.

Fürsətdən istifadə edərək Sizə, ailənizə və xalqınıza Yeni ildə ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

**Stepan MESİÇ,**
**Xorvatiya Respublikasının sabiq Prezidenti**

***

**Cənab Prezident!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi, xoşbəxtlik və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm. Sizə uğurlu 2025-ci il arzulayıram.

Mən müxtəlif vəzifələrdə olduğum vaxtlarda dəfələrlə Azərbaycana səfər etmək və konstruktiv fikir mübadiləsi aparmaq şərəfinə nail olmuşam.

Ötən il xüsusilə dövlət sərhədinin delimitasiyası prosesində mühüm irəliləyişlərlə yadda qaldı. Bu nailiyyət Azərbaycanın ərazi bütövlüyü və sabitliyi məsələsində Sizin əzminizi əks etdirir.

Azərbaycanın regional əlaqələrin gücləndirilməsində strateji rolu xüsusilə Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanı birləşdirən Orta Dəhliz layihəsi vasitəsilə artmaqda davam edir. Bu mühüm təşəbbüslər regional tərəqqiyə gətirib çıxarmaqla yanaşı, həm də ölkənizin Avrasiyanın iqtisadi inkişafında əsas oyunçu kimi mövqeyini möhkəmləndirir.

Gələcək layihələrinizlə bağlı mənim səmimi dəstəyimə əmin ola bilərsiniz. Sizə xoşbəxt günlər arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Tierri MARİANİ,**
**Avropa Parlamentinin üzvü**

***

**Zati-aliləri, möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Təcrübəli və məsuliyyətli dövlət lideri kimi Siz Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına və həmvətənlərinizə daim böyük diqqət göstərirsiniz. Qeyd etmək sevindiricidir ki, Siz mədəniyyətlərarası dialoqun aparılmasına mühüm töhfə verirsiniz, bunun sayəsində Cənubi Qafqazda insanların sakit və təhlükəsiz həyat sürməsi üçün zəruri olan dinlərarası sülh və sabitlik təmin edilir.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının fəaliyyətinə xeyirxah diqqətinizə görə Sizə xüsusi minnətdarlığımı ifadə edirəm. Əminəm ki, dövlət institutlarının və dini qurumların məhsuldar qarşılıqlı fəaliyyəti xalqın birliyinə, ənənəvi mənəvi-əxlaqi dəyərlərin bərqərar olmasına, sülhün və vətəndaş həmrəyliyinin möhkəmlənməsinə kömək edən mühüm amildir.

Sizə möhkəm cansağlığı və ruh yüksəkliyi, mərhəmətli Tanrıdan kömək və ali dövləti vəzifənizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**KİRİLL,**
**Moskvanın və Bütün Rusiyanın Patriarxı**

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli dirçəliş, inkişaf ideyalarının və strategiyasının həyata keçirilməsində Sizə yeni uğurlar və qələbələr arzulayırıq. Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə güclü, müasir, firavan, bir çox sahələrdə heyrətamiz nailiyyətlər əldə edən, regional və qlobal məsələlərdə əsas aktor rolunu oynayan ölkəyə çevrilib.

Biz dövlət quruculuğu və institusional inkişaf, işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və ölkənin sosial-iqtisadi strukturuna reinteqrasiyası, iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, respublikanın regional və qlobal məsələlərdə fəal rolu ilə bağlı əldə olunan nailiyyətlərə heyranıq.

Azərbaycanın işğal edilmiş ərazilərinin tarixi Qələbə ilə azad edilməsindən və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra həyata keçirilən quruculuq proqramı miqyası, sürəti və keyfiyyəti baxımından misilsizdir. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı Proqramının həyata keçirilməsi təqdirəlayiqdir.

Müharibədən sonrakı dövrdə ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq regionda davamlı sülhün və sabitliyin bərqərar olması istiqamətində nümayiş etdirdiyiniz əzmkar səyləri də yüksək qiymətləndiririk.

Azərbaycan Sizin rəhbərliyinizlə beynəlxalq məsələlərdə öz rolunu və nüfuzunu möhkəmləndirməkdə davam edir. Bakıda COP29 Sammiti kimi qlobal əhəmiyyətli tədbirin uğurla keçirilməsi bunun əyani sübutudur. Beynəlxalq məsələlərin bir çox aspektlərində prinsipial və ardıcıl mövqeyiniz, qarşıya qoyulan məqsədlərə nail olmaq bacarığınız sayəsində Siz dünyada yüksək nüfuz və hörmət qazanmısınız.

Cənab Prezident, biz regional təşkilat olaraq irəli sürdüyünüz təşəbbüslərin həyata keçirilməsi işinə dəstək verməyə hazırıq. Həmçinin Azərbaycanın GUAM-a üzv dövlətlər arasında bölüşə biləcəyi təcrübəsini öyrənməkdə də maraqlıyıq. Azərbaycanın regional əməkdaşlığa verdiyi töhfəni yüksək qiymətləndirir, onun getdikcə daha da güclənəcəyinə inanırıq.

Zati-aliləri, doğum gününüz münasibətilə Sizə bir daha səmimi təbriklərimizi çatdırır, möhkəm cansağlığı, güclü, müasir, demokratik və firavan Azərbaycanın daha da inkişafı naminə bütün ideya və təşəbbüslərinizi həyata keçirmək üçün tükənməz enerji arzulayırıq.

**Hörmətlə,**

**Altay ƏFƏNDİYEV,**
**GUAM-ın Baş katibi**

***

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə möhkəm cansağlığı, ailə səadəti və Azərbaycan Respublikasının daha da inkişafı üçün həyata keçirdiyiniz uzaqgörən fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

Müdrik rəhbərliyinizlə Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi istiqamətində əminliklə addımlayıb. Bu gün Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri Türk dünyasının gücləndirilməsi və Türk dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsidir. Andiçmə mərasimində söylədiyiniz "Bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur" fikri Azərbaycanın Türk dünyası ilə bağlı siyasətinin nə qədər əhəmiyyətli olduğunu göstərir.

Sizin təşəbbüsünüzlə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu zəngin mədəni türk irsinin qorunması və bütün dünyada tanıdılmasından, eləcə də bu vəsilə ilə Türk dünyasının gücləndirilməsinə öz töhfəsini verməkdən qürur duyur.

Əminəm ki, Azərbaycan xalqının rifahı naminə gördüyünüz işləri bundan sonra da uğurla davam etdirəcəksiniz.

Sizi bir daha doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Fürsətdən istifadə edərək Zati-alinizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də səmimi-qəlbdən təbrik edirəm.

**Dərin hörmətlə,**

**Aktotı RAİMKULOVA,**
**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir.

Siz 20 ildən artıqdır ki, Azərbaycana rəhbərlik edirsiniz, əsl siyasət və müdrik dövlət xadimi kimi nadir istedad nümayiş etdirirsiniz. Bu ilin fevralında keçirilən seçkilərdə inamlı qələbəniz respublika vətəndaşları tərəfindən xidmətlərinizə verilən yüksək qiymətin və Sizə olan qeyd-şərtsiz etimadın təsdiqidir.

Siz əsası atanız, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti layiqincə davam etdirərək, ölkələrimiz arasında çoxillik xoş münasibətləri hərtərəfli möhkəmləndirirsiniz.

Avqust ayında Rusiya Prezidentinin Azərbaycana dövlət səfəri zamanı bir sıra mühüm razılaşmalar əldə edilib. Sizi oktyabrda Kazanda keçirilən BRICS sammitində görməkdən çox məmnun oldum. İqtisadi və humanitar sahələrdə birgə proqramların praktiki həyata keçirilməsinə, dövlətlərarası və regionlararası əlaqələrin genişləndirilməsinə kömək etməklə Siz ölkələrimizin strateji tərəfdaşlığının möhkəmlənməsi üçün etibarlı zəmin yaradırsınız.

TASS Azərbaycanda baş verən hadisələrin işıqlandırılmasına böyük diqqət yetirir, informasiya əməkdaşlığımızın səmərəli inkişafına ümid edir.

Bütün qəlbimlə Sizə möhkəm cansağlığı, əmin-amanlıq, firavanlıq və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Andrey KONDRAŞOV,**
**Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru**

***

**Çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz böyük atanızın - Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, dünya miqyaslı görkəmli siyasi xadim, təcrübəli Ali Baş Komandan, doğma torpaqları azad edən və haqq-ədalət uğrunda mübarizədə qalib olan əsl lider kimi haqlı olaraq bütün Azərbaycan xalqının ən dərin hörmətini və hərtərəfli dəstəyini qazanmısınız.

Sizin müdrik siyasətiniz və qətiyyətiniz, qlobal strateji təfəkkürünüz və ölkənizə olan sonsuz məhəbbətiniz sayəsində Azərbaycan davamlı şəkildə inkişaf edir, dünya siyasətində mühüm mövqe tutur, Rusiya ilə tərəfdaşlıq əlaqələri daim genişlənir.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən nailiyyətlər, bol sevinc və nikbinlik, bütün planlarınızın həyata keçməsini arzulayıram.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

**Mixail QUSMAN,**
**Dünya Xəbər Agentlikləri Şurasının vitse-prezidenti, Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini, Rusiya Dövlət mükafatı laureatı, Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, professor**

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Sizə İsrail Dövləti adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Sizin Azərbaycan Respublikasının inkişafı üçün göstərdiyiniz sarsılmaz fədakarlıq olduqca təqdirəlayiqdir. Sizin liderliyinizlə xalqınız davamlı olaraq tərəqqi və uğur yolunda irəliləyir.

Xalqlarımız arasında tərəfdaşlıq və dostluq Sizin rəhbərliyinizlə inkişaf edir və biz bu dəyərli əlaqələri gələcək illərdə daha da dərinləşdirməyi səbirsizliklə gözləyirik.

Bu əlamətdar günün sevdiklərinizin və Sizi sevənlərin əhatəsində Zati-alinizə böyük sevinc bəxş etməsini diləyirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və bütün işlərinizdə uğurlar arzulayıram.

Doğum gününüz mübarək, cənab Prezident!

**Hörmətlə,**

**Zeev ELKİN,**
**İsrail–Azərbaycan Birgə İqtisadi Komitəsinin sədri, İsrail Dövləti Maliyyə Nazirliyində nazir**

***

**Möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycanın və xalqınızın inkişafı, firavanlığı, regionda və dünyada bərabərhüquqlu əməkdaşlığın, ədalətli nizamın sabitliyinin möhkəmləndirilməsi naminə fədakar əməyinizin əhəmiyyətini yüksək qiymətləndiririk.

Sizin qeyri-adi şəxsi keyfiyyətləriniz, milli və dünya liderinə xas olan rəhbər və strateq kimi böyük səriştəniz dərin hörmət və heyranlıq doğurur. Müdrik, istedadlı, ilhamverici rəhbərliyiniz ölkənizin dünya miqyasında mövqeyini ildən-ilə möhkəmləndirir, Azərbaycan ilə Rusiya arasındakı səmimi münasibətlərin inkişafına töhfə verir, ən iddialı birgə layihələrin həyata keçirilməsinə şərait yaradır.

İcazə verin, bu xoş gününüzdə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, doğma ölkənizin rifahı naminə bütün möhtəşəm planlarınızı həyata keçirmək üçün tükənməz enerji və güc arzulayım. Sizə, doğmalarınıza və yaxınlarınıza firavanlıq və əmin-amanlıq, ölkənizə sülh və tərəqqi diləyirəm.

**Hörmətlə,**

**Dmitri SAVELYEV,**
**Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini**

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə təbriklərimi çatdırıram.

Sizə və ailənizə ən xoş arzularımı bildirirəm.

Zati-alinizə dərin ehtiramımı ifadə edir, cansağlığı və xoşbəxtlik diləyirəm.

Arzu edirəm yeni 2025-ci il gözəl ölkənizə daha böyük tərəqqi və daha çox əmin-amanlıq gətirsin.

**Hörmətlə,**

**Rene Van der LİNDEN,**
**Niderland Krallığı Senatının sabiq sədri**

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin Azərbaycan Respublikasının Prezidenti kimi çoxşaxəli fəaliyyətiniz dövrümüzün ən böyük dövlət, siyasi və beynəlxalq xadimi kimi yüksək istedadınızı üzə çıxarıb. Əsası Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş siyasi, iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və dəqiq şəkildə həyata keçirilməsi Sizə ölkədə və onun hüdudlarından çox-çox kənarda böyük hörmət, etimad və layiqli nüfuz qazandırıb.

Yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, ən çətin vəziyyətlərdə siyasi kompromislər tapmaq bacarığı, çoxmillətli Azərbaycan vətəndaşlarının mənafeyinə uyğun sosial siyasətin uğurla həyata keçirilməsi Sizin beynəlxalq aləmdə hörmətinizi, nüfuzunuzu daha da artırıb.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə qarşıda duran vəzifələrin həyata keçirilməsində yeni-yeni uğurlar, firavanlıq, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə,**

**Ruslan AUŞEV,**
**Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı**

***

**Çox hörmətli cənab Prezident!**

İcazə verin, doğum gününüz münasibətilə Sizi şəxsən öz adımdan və Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından təbrik edim və Zati-alinizə ehtiramımı bildirim.

Siz dünyaya lider kimi gəlmisiniz, mükəmməl siyasi xadim, strateqsiniz, eyni zamanda, mətanət, müdriklik və məsuliyyət örnəyisiniz. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə həm regional, həm də beynəlxalq səviyyədə sabitlik amilidir. Sizin balanslaşdırılmış daxili və xarici siyasətiniz sayəsində ölkə ictimai-siyasi və sosial-iqtisadi inkişafın bütün sahələrində mühüm nailiyyətlər əldə edir.

Bu əlamətdar gündə Sizə cansağlığı, firavanlıq, tükənməz enerji, yeni qələbələr və nailiyyətlər arzu edirəm.

Azərbaycan Respublikası ilə Qaqauziya arasında əməkdaşlığın inkişafı Qaqauz Muxtariyyətinin rəhbərliyi üçün mühüm və perspektivlidir. Sevindirici haldır ki, bu gün bu əməkdaşlıq qarşılıqlı fəaliyyət sayəsində uğurla genişlənir və möhkəmlənir, yeni məzmunla zənginləşir.

Sizi əmin edirik ki, biz bütün sahələrdə hərtərəfli tərəfdaşlığı təmin etmək və əməkdaşlığın inkişafına yönəlmiş ikitərəfli gündəliyin cari vəzifələrini həyata keçirmək üçün bütün səylərimizi göstərəcəyik.

Çox hörmətli cənab Prezident, fürsətdən istifadə edərək Sizə ən yüksək ehtiramımı bildirirəm.

**Dərin hörmətlə və ən xoş arzularla,**

**Yevgeniya QUTSUL,**
**Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri**

***

**Möhtərəm cənab Prezident!**

Dövlətlərarası Aviasiya Komitəsinin adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

İcazə verin, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan Respublikasının tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayım.

Sizə və yaxınlarınıza sülh, rifah və müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

**Oleq STORÇEVOY,**
**Dövlətlərarası Aviasiya Komitəsinin sədri**

***

**Möhtərəm İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Sizin yüksək peşəkarlığınız, insani keyfiyyətləriniz, zəngin təcrübəniz, tükənməz enerjiniz və qarşıya qoyduğunuz məqsədlərə çatmaqda əzmkarlığınız ən mühüm dövlət vəzifələrini həll etməyə imkan verir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, mürəkkəb və çoxşaxəli fəaliyyətinizdə, Azərbaycan Respublikasının rifahı naminə bütün layihələrin və planların həyata keçməsində uğurlar diləyirəm.

Sizə və xanımınız Mehriban Əliyevaya dərin hörmətimi ifadə edir, xoşbəxtlik və rifah arzulayıram.

**Hörmətlə,**

**Tatyana ANODİNA,**
**Dövlətlərarası Aviasiya Şurasının prezidenti**

***

**Möhtərəm İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Siz mahir diplomat, müdrik siyasi xadim kimi doğma ölkənizin tərəqqisinə xidmət edən və böyük töhfə verən mühüm layihələr həyata keçirən istedadlı lidersiniz.

Mən bir sənət adamı kimi Sizin daimi dəstəyiniz və diqqətinizlə əhatə olunan Azərbaycanın mədəniyyət proqramlarına xüsusilə yaxınam.

Rusiya Rəssamlıq Akademiyası üzvlərinin hazırkı bədii layihələrinə və beynəlxalq fəaliyyətlərinə diqqət yetirdiyinizə, Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin möhkəmləndirilməsində birgə təşəbbüsləri dəstəklədiyinizə görə Sizə təşəkkür edirik.

Sizinlə və əziz, unudulmaz atanız Heydər Əliyevlə mənim üçün çox xoş olan ünsiyyət anlarını və görüşlərimizin bənzərsiz ab-havasını daim xatırlayıram.

Möhtərəm İlham Heydər oğlu, Sizə ehtiramımı bildirmək fürsəti əldə etdiyim üçün səmimi-qəlbdən şadam.

Sizə möhkəm cansağlığı, firavanlıq, çoxşaxəli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Zurab SERETELİ,**
**Rusiya Rəssamlıq Akademiyasının prezidenti**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan Respublikası Sizin çoxillik rəhbərliyinizlə iqtisadi artım və sosial inkişaf yolu ilə inamla addımlayır.

Rusiyanın Rostov vilayəti Azərbaycanla dostluğu yüksək qiymətləndirir və qurulmuş əlaqələri gələcəkdə də inkişaf etdirmək niyyətindədir.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq diləyir və ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

**Yuri SLYUSAR,**
**Rusiyanın Rostov vilayətinin qubernatoru vəzifəsini müvəqqəti icra edən**

***

**Möhtərəm cənab Prezident!**

Avrasiya Yəhudi Konqresi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikası ötən illər ərzində özünün nüfuzlu, tolerant, multikultural və çoxkonfessiyalı dövlət statusunu sübut edib. Bir tərəfdən, ənənələrin və tarixi irsin vəhdəti, digər tərəfdən, müasir dünya dəyərlərinə açıq olmaq Azərbaycana təkcə düşünülmüş siyasət yürütməyə deyil, həm də xarici əlaqələrini möhkəmləndirməyə imkan verir. Bu gün Azərbaycan dünyada mövqelərini sürətlə gücləndirir və ən yüksək səviyyədə beynəlxalq əməkdaşlıq platformasına çevrilir. Şübhəsiz ki, bütün bu uğurlarda Sizin böyük şəxsi töhfəniz var.

2019-cu ildə Azərbaycana səfərimiz zamanı Sizinlə görüşümüzü, göstərdiyiniz qonaqpərvərliyi böyük məmnuniyyətlə xatırlayırıq. Həmin vaxt Siz ölkələrimiz arasında tam diplomatik münasibətlərin qurulacağını bildirmişdiniz və bir müddət sonra Təl-Əvivdə Azərbaycan səfirliyi açıldı, əlaqələrin inkişafı prosesində mühüm prinsipial addım atıldı.

Cənab Prezident, icazə verin, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edim. Sizə əmin-amanlıq və xoşbəxt həyat arzulayıram.

**Hörmətlə,**

**Mixail MİRİLAŞVİLİ,**
**Avrasiya Yəhudi Konqresinin prezidenti**

***

**Zati-aliləri!**

Sizi doğum gününüz münasibətilə "LUKOYL" şirkətinin adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan bu gün dinamik inkişaf edən, səmərəli beynəlxalq əməkdaşlığa açıq dövlətdir. Sizin rəhbərliyinizlə ölkədə sabit iqtisadi və siyasi vəziyyətin qorunub saxlanılması üçün düşünülmüş tədbirlər sistemi öz səmərəliliyini sübut edir.

"LUKOYL"un Azərbaycandakı fəaliyyətinə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirirəm. Biz mövcud layihələr üzrə öhdəliklərimizi tam şəkildə yerinə yetirmək, eləcə də azərbaycanlı tərəfdaşlarımızla uzunmüddətli əməkdaşlığımızı genişləndirmək və gücləndirmək üçün bütün səylərimizi göstərəcəyik.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Vadim VOROBYOV,**
**Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin baş icraçı direktoru**

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Siz həyatınızı bütünlüklə Vətənə xidmətə, Azərbaycanın firavanlığına və xalqın rifahının yüksəldilməsinə həsr etmisiniz. Sizin həyata keçirdiyiniz düşünülmüş və müdrik siyasət, iqtisadiyyat sahəsində islahatların aparılması istiqamətində göstərdiyiniz ardıcıl səylər Azərbaycanda investorların fəaliyyəti üçün əlverişli şərait yaradıb.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin, xüsusən də neft-qaz sektorunda əməkdaşlığın inkişafına şəxsi töhfənizi yüksək qiymətləndiririk.

Əminəm ki, biz Rusiya və Azərbaycanın dost xalqlarının rifahı naminə azərbaycanlı tərəfdaşlarımızla birgə layihələr üzərində konstruktiv işi davam etdirəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Vahid ƏLƏKBƏROV,**
**Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə Rusiyanın "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sizə səmimi-qəlbdən cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə səmərəli fəaliyyətinizdə yeni böyük nailiyyətlər, ölkənizin inkişafı planlarının uğurla reallaşmasını arzulayıram.

**Hörmətlə,**

**Aleksey MİLLER,**
**Rusiyanın "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri**

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müdrik rəhbərliyiniz və uzaqgörən siyasətiniz Azərbaycanı regionun ən dinamik inkişaf edən ölkələrindən birinə, qlobal geosiyasi arenada mühüm rol oynayan güclü suveren dövlətə çevirib.

Sizin səyləriniz sayəsində Azərbaycan xalqının milli birliyi daha da möhkəmlənir, ənənəvi dəyərlər qorunur, cəmiyyətin tərəqqisinə yönəlmiş genişmiqyaslı təşəbbüslər həyata keçirilməkdə davam edir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycan Respublikasının və onun vətəndaşlarının rifahı naminə fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Mixail QUTSERİYEV,**
**Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti**

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin taleyiniz doğma ölkəniz Azərbaycan ilə qırılmaz şəkildə bağlıdır. Siz həyatınızı bütünlüklə xalqa və respublikanın siyasi maraqlarına xidmət işinə həsr edirsiniz.

Sizin fəal dəstəyiniz sayəsində Azərbaycan ilə Seçenov Universiteti arasında əməkdaşlıq ildən-ilə möhkəmlənir. Seçenov Universitetinin ilk xarici filialı olan Bakı filialı 2025-ci ildə 10 illik yubileyini qeyd edəcək. Yubileyi birgə nailiyyətlərlə qarşılayırıq və beynəlxalq layihələr həyata keçiririk.

Əməkdaşlığımızın bəlkə də ən dəyərli bəhrəsi artıq Azərbaycan səhiyyəsinin inkişafına töhfə verən və ölkə vətəndaşlarının rifahı üçün çalışan gənc mütəxəssislərdir.

Sizə cansağlığı, doğma ölkənizin rifahı naminə fəaliyyətinizdə daim güc və ruh yüksəkliyi, bütün işlərinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Pyotr QLIBOÇKO,**
**İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor**

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasının davamlı və yaşıl inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Azərbaycanı COP29 Konfransına uğurla ev sahibliyi etməsi və sədrliyi münasibətilə təbrik edirəm. COP29 qlobal iqlim gündəliyinin irəli aparılmasında mühüm rol oynayıb. Xüsusilə, 2035-ci ilə qədər hər il 300 milyard ABŞ dolları məbləğində yeni iqlim maliyyəsi hədəfinin qəbul edilməsi, qlobal karbon ticarəti sisteminin yaradılması, həmçinin Lima Gender üzrə İş Proqramının 10 il müddətinə uzadılması mühüm tarixi nailiyyətlərdir və bunlar iqlim siyasəti fəaliyyətində səyləri artırmaq, eləcə də gender bərabərliyini, ədalətli keçidi gücləndirmək üçün gələcək təşəbbüslərin formalaşmasına kömək edəcəkdir.

Birləşmiş Millətlər Təşkilatı Azərbaycanla tərəfdaşlığını davam etdirməyə sadiqdir. Biz Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində 2026-2030-cu illər ərzində birgə səylərimizi əlaqələndirmək üçün BMT və Azərbaycan arasında yeni Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin hazırlanmasını səbirsizliklə gözləyirik.

Mən, həmçinin qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına təbriklərimi çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Səmimiyyətlə,**

**Vladanka ANDREYEVA,**
**BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi**

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, Zati-alinizə və Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq.

Arzu edirik ki, ölkəniz Sizin rəhbərliyinizlə bundan sonra da uğurlu inkişaf yolunu davam etdirsin.

Qoy bu əlamətdar gün Azərbaycan və onun vətəndaşları üçün daha böyük uğurlara imza atmaq naminə Sizə bol sevinc və güc-qüvvət gətirsin! Sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə davamlı uğurlar diləyirik.

Doğum gününüz mübarək olsun!

**Hörmətlə,**

**Cuzeppe KANİLİA,**
**İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri**

***

**Əziz İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə ürəkdən və xüsusi ehtiramla təbrik edirəm. Sizə möhkəm cansağlığı, tükənməz enerji, ailə səadəti, ölkənin və xalqın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizin rəhbərliyinizlə Azərbaycanda həyatın bütün sahələrində əldə edilən uğurlarla fəxr edirik. Bu uğurlar Azərbaycan xalqının Sizin liderliyinizlə qazandığı tarixi qələbələr nəticəsində xüsusilə aydın şəkildə hiss olunur.

Sizin müdrik, düşünülmüş və praqmatik xarici siyasətiniz Azərbaycanın beynəlxalq aləmdə nailiyyətləri və qələbələri üçün zəmin yaradır.

İcazə verin, Sizə ən xoş arzularımı bir daha çatdırım, həmçinin planlarınızın və ideyalarınızın tezliklə həyata keçməsini arzulayım.

**Hörmətlə,**

**Yuri ÇAXUNAŞVİLİ,**
**"SOCAR Energy Georgia" MMC-nin baş direktorunun müşaviri**

***

**Çox hörmətli və əzizimiz cənab Prezident!**

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ən xoş arzu və istəklərimizdən qaynaqlanan səmimiyyətlə təbrik etməyi özümüzə böyük şərəf hesab edirəm.

Ümummilli Liderimiz Heydər Əliyevin siyasətini uğurla davam etdirərək doğma Azərbaycanımızın sürətli inkişafı, dünya ölkələri arasında layiqli yer tutması, suverenliyinin tam təmin olunması ilə nəticələnən zəfərlər qazanması istiqamətində gördüyünüz böyük işlər bizi olduqca fərəhləndirir, Vətənimizdən kənarda Azərbaycançılıq ideyamız naminə yeni-yeni nailiyyətlər əldə etməyə səfərbər edir.

Azərbaycanımızın dövlət quruculuğunun möhkəmləndirilməsi üçün həyata keçirilən siyasi, iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsinə, inkişaf etdirilməsinə göstərdiyiniz diqqəti və qayğını yüksək qiymətləndiririk.

Bu xoş fürsətdən istifadə edərək, Sizi və bütün xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, Azərbaycan diasporunun fəaliyyətinə göstərdiyiniz dəstəyə görə dərin təşəkkürümüzü bildiririk. Bu əlamətdar gündə Zati-alinizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

**Arif QULİYEV,**
**"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, Ukraynanın Əməkdar təhsil işçisi, diplomat, "Odessa Hüquq Akademiyası" Milli Universitetinin Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki**

***

**Möhtərəm cənab Prezident!**

Zati-alinizi doğum gününüz münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizdə, beynəlxalq müstəvidə dəyər kəsb edən səylərinizdə Uca Yaradandan Sizə uğurlar diləyirik.

Ulu Rəbbimizin xeyir-duası ilə Zati-aliniz dünya miqyasında hər bir dövlət xadiminin qibtə edəcəyi yüksəkliyə ucalmış, müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə təsdiq etmiş dövlət xadimisiniz. Müdrik dövlətçilik təfəkkürü və dəmir siyasi iradə ilə tarixi ədalətin təntənəsini təmin etmiş, Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suverenliyini tam bərpa etmiş Zati-aliniz soydaşlarımızı dədə-baba torpaqlarına qovuşdurmaqla, azad olunmuş Qarabağda şəhərləri, kəndləri yenidən dirçəldərək genişmiqyaslı quruculuq işləri ilə yanaşı, məscid və məbədləri xüsusi qayğı ilə bərpa etməklə Ulu Yaradanın nəzərində və xalqın qəlbində ucalmaqdasınız. Sizin mənəvi irsə, dini abidələrə, bütün dinlərə məxsus məbədlərə müstəsna qayğı və diqqətiniz Zati-alinizin müdrik dövlətçilik təfəkkürünün bəhrələri olaraq dünya üçün örnəkdir.

Möhtərəm cənab Prezident, Sizin həyatınızın şərəfli ildönümü bizə xoş fürsət verir ki, cənabınızın Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkür və minnətdarlığını bir daha ifadə edək. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və iqtisadi qüdrətinin artması, dünyada sivilizasiyalar və mədəniyyətlərarası dialoq mərkəzi və dinlərarası əməkdaşlıq məkanı kimi qəbul olunması, heç şübhəsiz, Zati-alinizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsidir. Beynəlxalq müstəvidə dinlərarası dialoq və əməkdaşlıq işinə önəmli töhfələr verən qlobal ideyalarınız və təşəbbüsləriniz, müəllifi olduğunuz Mədəniyyətlərarası Dialoqa dair Bakı Prosesi, insan həmrəyliyinə xidmət edən davamlı əməli səyləriniz Azərbaycanın tolerant imicini, ali mənəvi dəyərlərə sadiqliyini dünya miqyasında əyani təsdiq edir, beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirir. Dövlət siyasəti olaraq yürütdüyünüz multikulturalizm siyasəti sayəsində dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarını milli birlik, mənəvi vəhdət ideyaları ətrafında bir araya gətirən Azərbaycan dinlərarası, məzhəblərarası harmoniya mühitində birgəyaşayış təcrübəsi ilə dünyada model olaraq təqdir edilir.

Möhtərəm cənab Prezident, iqlim dəyişmələrinə dair qlobal əhəmiyyətli mötəbər COP29 tədbirinə yüksək səviyyədə ev sahibliyi və əldə olunmuş uğurlu nəticələr münasibətilə Zati-alinizi və Sizin simanızda Azərbaycan dövlətini ürəkdən təbrik edir, Uca Yaradana xoş olan məramlara xidmət edən fəaliyyətinizin Azərbaycan və bütün dünya üçün xeyirlərə vəsilə olması naminə dualar edirik. Sizin xeyir-duanızla COP29 çərçivəsində keçirilmiş Dini Liderlərin Qlobal Bakı Sammiti, heç şübhəsiz, Azərbaycan dövlətinin daha bir böyük nailiyyəti oldu. Bəşəriyyət üçün çox önəmli olan iqlim dəyişmələri probleminin mənəvi dəyərləndirilməsinə həsr olunmuş belə bir qürurverici Zirvə görüşünün Azərbaycanda ərsəyə gəlməsində, möhtərəm cənab Prezident, Sizin böyük rolunuz danılmazdır. Məhz Sizin "yaşıl iqtisadiyyat" quruculuğu istiqamətində dəyərli fəaliyyətinizlə, planetin gələcəyi naminə insan həmrəyliyinə xidmət edən "Yaşıl Dünya Naminə Həmrəylik İli" kimi dəyərli qlobal təşəbbüsünüzlə Azərbaycan dünyanın iqlim nəbzinin vurduğu məkan kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Çox hörmətli cənab Prezident, dini konfessiyaların rəhbərləri olaraq, ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınıza, dini konfessiyalara diqqət və dəstəyinizə görə təmsil etdiyimiz icmalar adından Sizə dərin minnətdarlığımızı bildirməkdən şərəf duyuruq. Azərbaycanın dövlət rəhbəri olaraq doğum günündə dünyanın müxtəlif nöqtələrindən təbriklər qəbul edən qalib xalqın Müzəffər Sərkərdəsi, Qarabağın Fatehi olaraq Sizin ən böyük mükafatınız xalqın dəstək və həmrəyliyi, sonsuz məhəbbəti, dərin etimadı və hədsiz minnətdarlığıdır. Var olun, hər zaman zirvədə olun, uğur həmişə Sizə yar olsun! Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xətinizi dəstəkləyən biz dindarların duaları hər zaman Sizinlədir.

Möhtərəm cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən Dini Konfessiyaların Məşvərət Şurası adından bir daha Sizi - müzəffər dövlət başçısını şərəfli ildönümü münasibətilə ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək, Zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizdə uğurlar diləyirik. Bir olan Yaradanımız hər zaman yardımçınız olsun, lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və onun müdrik rəhbəri üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

**Dərin hörmət və ehtiramla,**

**Şeyxülislam Allahşükür PAŞAZADƏ,**
**Qafqaz Müsəlmanları İdarəsinin sədri,**

**Milix YEVDAYEV,**
**Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,**

**Yepiskop ALEKSİY,**
**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri,**

**Yepiskop Vladimir FEKETE,**
**Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi,**

**Aleksandr ŞAROVSKİ**
**Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,**

**Robert MOBİLİ,**
**Alban-udi Xristian Dini İcmasının sədri**

***

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu əlamətdar gündə Sizə - böyük dövlət xadiminə, sadiq beynəlmiləlçiyə və mərhəmətli liderə çoxlu uğurlar arzulayıram.

Azərbaycanda və dünyada bir çox həyati vacib işlərdə göstərdiyiniz mühüm xidmətləri, xüsusilə də ölkənizdə və xaricdə yəhudi icmalarına səmimi münasibətinizi alqışlayıram. Siz əhalinin firavanlığı üçün böyük işlər görən yüksək nüfuzlu, güclü lidersiniz.

Bu il Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və COP29-un mükəmməl şəkildə təşkil olunması münasibətilə səmimi təbriklərimi qəbul edin. Hər iki tədbir xalqların və bütövlükdə planetimizin zəfəri idi.

Mən həm Mədəniyyətlərarası Dialoq Forumunda, həm də COP29 çərçivəsində keçirilmiş Dini Liderlərin Qlobal Sammitində çıxış etməkdən şərəf duydum. Həmin tədbirlər Sizin dini tolerantlıq, mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin gücləndirilməsinə sadiqliyinizi nümayiş etdirdi ki, bu da dinlərin və mədəniyyətlərin sülh, ləyaqət və təhlükəsizlik şəraitində yaşaya biləcəyi bir dünya axtarışında olan hər bir gələcək nəsil üçün Azərbaycanın qlobal dinc birgəyaşayışın simvolu olduğunu təsdiq edir.

Cənab Prezident, əgər biz hamımız Sizin qarşıya qoyduğunuz yüksək standartların yalnız bir hissəsinə uyğun yaşaya bilsəydik, o zaman dünyamız daha yaxşı məkana çevrilərdi.

İnanıram ki, qarşılıqlı hörməti və anlaşmanı inkişaf etdirmək yollarını axtararkən bundan sonra da uzun illər müdriklik və inam nümayiş etdirərək bizi ruhlandırmağa davam edəcəksiniz.

Sizə möhkəm cansağlığı və firavanlıq diləyir, sevimli Azərbaycan xalqının davamlı tərəqqisi və rifahı üçün ən xoş arzularımı çatdırır, yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

**Ravvin Mark ŞNAYER,**
**Amerika Birləşmiş Ştatlarının Etnik Anlaşma Fondunun prezidenti**

***

Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar gün təkcə həyatınızın daha bir ilini deyil, həmçinin ölkənizə və xalqınıza verdiyiniz mühüm töhfələri əks etdirir.

Azərbaycan Sizin rəhbərliyinizlə möhtəşəm nailiyyətlər əldə edib. Prezident olaraq nümayiş etdirdiyiniz müstəsna liderliyə görə Sizə səmimi heyranlığımı bildirirəm. Sizin qətiyyətli mövqeyiniz və Azərbaycanın maraqlarının müdafiəsinə sadiqliyiniz ölkənizi həqiqətən də regionda ümid və tərəqqi mayakına çevirib.

Sizə möhkəm cansağlığı, davamlı uğurlar, ailənizin və dostlarınızın əhatəsində bol-bol sevinc arzulayıram. Qoy qarşıdan gələn il Sizə və gözəl ölkənizə daha böyük nailiyyətlər və imkanlar gətirsin!

Bir daha doğum gününüz mübarək, cənab Prezident!

**Hörmətlə,**

**Ramaz NİKOLAİŞVİLİ,**
**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin vitse-prezidenti, Gürcüstan parlamentinin deputatı**

# Milli Məclisdə görüşlər

**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 24-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və Gürcüstan arasında dostluq münasibətlərinin, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu, xalqlarımızın həmişə bir-birinə dayaq olduğu bildirilib. Vurğulanıb ki, Prezident İlham Əliyev də həmişə gürcüstanlı həmkarları ilə keçirdiyi görüşlərdə bu məsələləri xüsusi qeyd edir.

Görüşdə iki ölkə arasında müxtəlif sahələr üzrə inkişaf edən münasibətlər fonunda parlamentlərimiz arasında da əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə olunub. Qeyd edilib ki, qanunverici orqanlarımız ikitərəfli və üçtərəfli formatda əməkdaşlıq edir. O cümlədən beynəlxalq parlament təşkilatları çərçivəsində də qarşılıqlı dəstək mövcuddur.Bildirilib ki, hər iki ölkənin parlamentinə seçkilərdən sonra yeni tərkibin fəaliyyətə başladığı və qarşıdakı dövrdə də əlaqələrin daha da genişləndirilməsi istiqamətində fəaliyyət davam etdiriləcək.



Givi Mikanadze Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvilinin salamlarını Milli Məclisin sədrinə çatdırıb. O, Prezident İlham Əliyevin tarixi şəxsiyyət olduğunu, onun rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini söyləyib, ölkəmizin rəhbərinin ad gününü təbrik edib. Qonaq Azərbaycanın Gürcüstana göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Söhbət zamanı ölkələrimizə qarşı mövcud olan ikili standartlara qarşı mübarizədə də birgə addımlamağın vacibliyi qeyd edilib, qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***

**Milli Məclisin sədri Sahibə Qafarova dünən Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusevlə də görüşüb.**

Görüşdə Azərbaycan və Ukrayna əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Ölkələrimizin etibarlı tərəfdaş olduqları, münasibətlərin möhkəm təməllərə əsaslandığı diqqətə çatdırılıb. Ölkələrimizin ərazi bütövlüyü və suverenliyi məsələlərində bir-birinə qarşılıqlı dəstək göstərdikləri vurğulanıb.

Azərbaycan və Ukrayna xalqlarını bir çox ortaq dəyərlərin birləşdirdiyi və bu dəyərlərin xalqlarımızı daha da yaxınlaşdırdığı diqqətə çatdırılıb.

Səfir Yuri Qusev Prezident İlham Əliyevin doğum günü münasibətilə təbriklərini çatdıraraq, ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycanın dövlət başçısının müstəsna rolunu qeyd edib.

Görüşdə parlamentlərimiz arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluq bildirilərək, bu əlaqələrin daha da inkişafına dair müzakirələr aparılıb.

***XQ***

# Adını dünya diplomatiya və hərb tarixinə yazdırmış lider

**2003-cü ilin payızında Azərbaycan xalqı növbəti illər üçün prezident seçkilərinə başladı. Heydər Əliyevlə yanaşı digər partiyaların nümayəndələri də öz namizədliklərini irəli sürmüşdülər. Lakin səhhətində yaranan problemlər Heydər Əliyevə başladığı işləri sona çatdırmağa imkan vermirdi.**

Ümummilli lider hesab edirdi ki, ölkə prezidenti olacaq şəxs mütləq geniş dünyagörüşə, yüksək biliyə və bacarığa sahib olmalı, dünya siyasətini və iqtisadiyyatını dərindən bilməli, beynəlxalq aləmdə tanınmalı, sarsılmaz siyasi iradəyə və qətiyyətə malik olmalıdır. Heydər Əliyev siyasi kursunu davam etdirməli idi. Azərbaycan xalqı və onun elitası belə bir dövlət xadimi kimi Baş nazir, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi görürdü. Bu səbəbdən də Heydər Əliyev oktyabrın 1-də öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürərək onun namizədliyini irəli sürdü və Azərbaycan xalqına müraciətində axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyevin başa çatdıra biləcəyinə inandığını və gələcəyinə ümid bəslәyini bildirdi.

Ümummilli liderin İlham Əliyevin namizədliyini irəli sürməsi reallıqdan irəli gəlmişdi. İlham Əliyevin Azərbaycanda 2003-cü ilin prezident seçkilərinə qədər keçdiyi çətin və şərəfli yol, onun bu mühüm və məsuliyyətli vəzifəyə seçilməsini təmin edən mühüm amillər olmuşdur. Azərbaycanda dövlət rəhbəri üçün çox zəruri olan keyfiyyətlərə malik olmaq baxımından da İlham Əliyevin çox fərqli üstünlükləri vardır. Heydər Əliyevin böyük sınaqlardan çıxmış dövlətçilik məktəbinin nümayəndəsi olan İlham Əliyev bir siyasətçi kimi yetişmişdir.



## Xalq öz namizədini seçir

2003-cü il prezident seçkilərində əvvəlki 1998-ci il seçkilərdən fərqli olaraq 11 nəfərin namizədliyi qeydə alındı. Azərbaycan Respublikasında prezident seçkiləri 2003-cü il oktyabrın 15-də keçirildi. Seçicilərin 71,5 faizinin iştirak etdiyi seçkilərdə İlham Əliyev 1 milyon 860 min 346 nəfər seçicinin – seçkidə iştirak edənlərin 76,4 faizinin səsini topladı və rəqibləri üzərində inamlı qələbə qazandı. 2003-cü il oktyabrın 31-də andiçmə mərasimi keçirildi. Mərasimdəki nitqində Prezident İlham Əliyev bildirdi ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında - Azərbaycanın torpaqları işğaldan azad olunmalı, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalı, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.




Azərbaycan Respublikasının prezidenti seçkilərindən sonra ilk növbədə, qonşu dövlətlərlə ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlığın inkişafına xüsusi diqqət yetirildi. Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, Qazaxıstan və Gürcüstan respublikaları, Pakistan və Çin Xalq Respublikası, Avropa, Asiya və Afrika ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın əsaslarına dair razılaşmalar inzalandı.

Minsk qrupunun həmsədr ölkələri ilə aparılan danışıqlar, münaqişənin tənzimlənməsində xalq diplomatiyasından istifadə edilməsi, Azərbaycan tərəfinin münaqişənin həlli istiqamətində bütün kompromislərinə baxmayaraq Ermənistan pozucu mövqeyini daha da gücləndirdi və ziyalıların səfərlərinin davam etdirilməsi imkanı tükəndi.

2008-ci il oktyabrın 15-də keçirilən növbəti prezident seçkiləri ölkənin ictimai-siyasi həyatında bir sıra hadisələrlə zəngin oldu. İlk dəfə olaraq seçkilərin gedişini müşahidə etmək üçün 500 seçki məntəqəsində müşahidə kameraları quraşdırıldı, Mərkəzi Seçki Komissiyasında 1233 beynəlxalq müşahidəçi, 34 xarici KİV-in 90-dan çox nümayəndəsi, 40 min nəfərdən artıq yerli müşahidəçi qeydə alındı. 2008-ci il prezident seçkilərində səsvermədə şəffaflığın təmin edilməsi məqsədi ilə ilk dəfə olaraq Danimarkadan Azərbaycana gətirilmiş gözlə görünməyən mürəkkəbdən, şəffaf seçki qutuları və ultra-bənövşəyi detektorlardan (lampalardan) istifadə olundu. Görmə qabiliyyəti zəif olan seçicilərin müstəqil səs verməsi üçün bütün seçki məntəqələri xüsusi əlifba (Brayl əlifbası) vasitəsilə hazırlanmış trafaretlərlə təmin edildi.

Seçkilərdə səsvermə hüququna malik vətəndaşların 75,64 faiz – 3.700.634 iştirak etdi. Prezident vəzifəsi uğrunda mübarizədə iştirak edən yeddi namizəd arasında İlham Əliyev böyük üstünlüklə – 87,34 faiz səslə qələbə qazandı. Oktyabrın 24-də Heydər Əliyev sarayında İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirildi.

2008-ci ildə keçirilən prezident seçkilərindən sonra Azərbaycan Respublikasının Prezident İlham Əliyevin və türk dövlətləri rəhbərlərinin birgə səyləri nəticəsində qurulan Türk Dövlətləri Şurası ilə qarşılıqlı münasibətlər yeni keyfiyyət mərhələsinə daxil oldu. Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Respublikası dünya sivilizasiyalararası dialoqun keçirildiyi məkana çevrildi.

Azərbaycan dövlətinin qonşu ölkələrlə münasibətlərində müzakirə edilən əsas məsələlər Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə tənzimlənməsi, siyasi, təhlükəsizlik, müdafiə, sərhəd, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, Bakı–Tbilisi–Qars dəmiryolu xətti, terrorizmə qarşı mübarizə, ticarət-iqtisadi, Xəzər dənizinin hüquqi statusu, Şimal–Cənub nəqliyyat dəhlizi və s. oldu.

Azərbaycan Respublikasının Mərkəzi Asiya və Avropa ölkələri, ABŞ ilə əməkdaşlıq və tərəfdaşlıqdan strateji münasibətlərə doğru yeni mərhələ açıldı. Şərq ölkələri ilə əlaqələrdə yeni perspektivlər müəyyənləşdirildi. 2003-2008-ci illərdə Azərbaycan Respublikası beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində yerini möhkəmləndirmək istiqamətində Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, NATO və İslam Konfransı Təşkilatı (İKT) ilə əməkdaşlığı davam etdirdi.

2013-cü ilin oktyabrında Azərbaycan xalqı bir daha gələcəyinin parlaq səhifələrinin yaradılmasına səs verdi. Oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri əvvəlki seçkilərdən həm mahiyyətinə, həm də təşkilati cəhətinə görə ölkəmizin tarixinə mühüm hadisə kimi düşdü. 2009-cu ildə ölkə Konstitusiyasında dəyişikliklərə dair keçirilən ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikası Prezidentinin yalnız iki dəfə seçilməsini məhdudlaşdıran maddə aradan qaldırıldığından seçkiyə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev də qatılmışdı. Azərbaycan Respublikası Prezidentliyə namizədliyə qatılmış 10 namizəd arasından Yeni Azərbaycan Partiyasından Azərbaycan Respublikası prezidentliyinə namizəd İlham Əliyev seçicilərin 84,54 faizinin səsini qazanaraq qalib oldu.

2013-cü il prezident seçkilərindən sonra dünya ölkələri ilə uğurlu əməkdaşlıq davam etdirildi. Bu istiqamətdə növbəti addım 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu Qaz Boru Kəməri-TANAP-ın təməlinin qoyulması oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mərasimdə iştirak etdilər. Azərbaycan və Türkiyə hökumətləri arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş İstanbul şəhərində bağlandı. Cənub Qaz Boru Kəməri sistemi ilə Azərbaycanın təbii qazı Gürcüstandan keçərək Türkiyənin Qərb sərhədinə çatdırılmalı və bununla sabit tranzit xətti təmin edilməli idi.

## Birinci Avropa Oyunları

2013-cü il seçkilərindən sonra Azərbaycan tarixinin yaddaqalan hadisələrindən biri Birinci Avropa Oyunları oldu. Prezidentin sərəncamı ilə Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına məsul olan Təşkilat Komitəsi yaradıldı. Təşkilat Komitəsinə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva sədr təyin edildi. Bakıda Olimpiya stadionunun tikintisinə start verildi. "Bakı-2015" ilk Avropa Oyunlarının təqdimat mərasimi 2015-ci il yanvarın 22-də Davosda keçirildi. 2015-ci il martın 18-də Prezident İlham Əliyev və Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı Olimpiya stadionunun açılış mərasimində iştirak etdilər.

Avropanın 50 ölkəsindən 6000-dən artıq idmançının qatıldığı Birinci Avropa Oyunları iyun ayının 12-18-də Bakı və Mingəçevir şəhərlərində keçirildi. Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olimpiya Komitəsi tərəfindən keçirilən oyunlarda 20 idman növü üzrə mübarizə aparıldı. Mərasimin təşkilinə əksəriyyəti azərbaycanlılardan ibarət 1600-dan çox, həmçinin 17 ölkədən də könüllülər bu işə cəlb olundu. Bu tədbirin ərsəyə gəlməsi istiqamətində könüllülər 400 dəfədən çox məşq etmiş, mərasimin təşkilinə 28 ölkədən 300 nəfərdən çox yaradıcı heyət və 34 ölkədən müxtəlif sahələrdə ixtisaslaşmış 1000 mütəxəssis cəlb olunmuşdu.

Yarışların nəticələrinə görə, 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanan Azərbaycan idmançıları Rusiya Federasiyasından geri qalaraq 2-ci yerə çıxdılar. Birinci Avropa Oyunları Azərbaycan dövlətinin beynəlxalq mövqelərinin möhkəmlənməsinə kömək etdi.

## Aprel döyüşləri

Azərbaycanda yaranmış siyasi sabitlik, siyasi, iqtisadi və mədəni sahədə əldə olunan uğurlar, xüsusilə ordu quruculuğu sahəsində həyata keçirilən islahatlardan qorxuya düşən Ermənistanın hərbi-siyasi rəhbərliyi Minsk qrupunun səyləri ilə keçirilən danışıqlardan boyun qaçırmağa üstünlük verərək Qərb havadarlarının diktəsi ilə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq təmas xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahılların da olduğu qeyri-döyüşçü mülki əhaliyə qarşı qəsdən, sistemli şəkildə hədəflənən hücumlar etdi. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla 6 mülki şəxs həlak oldu, 26 şəxs ağır yaralandı. Hücumlar nəticəsində 232 fərdi yaşayış evi, 99 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, kilometrlərlə su və qaz boruları dağıdıldı. Məcburi köçkünlərdən 16 nəfər həlak oldu, 40 nəfər yaralandı, məcburi köçkünlərin məskunlaşdığı 228 evə ziyan dəydi. Onlardan 43 ev tamamilə, 185-i isə qismən dağıdılmış və 235 mal-qara tələf olmuşdu.

Əməliyyatların başlandığı ilk dəqiqələrdən etibarən hərbi vəziyyəti və döyüşlərin idarə edilməsini Ali Baş Komandan İlham Əliyev öz üzərinə götürdü. Prezident həmin gecə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitindən qayıtdı. Aprelin 2-də Təhlükəsizlik Şurasının iclasını çağıraraq, göstərişlərini verdi. Döyüşlər zamanı Ermənistan ordusunun şəxsi heyəti çoxsaylı itki verdi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Çocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olundu.

## Uğurlu islahatlar

2013-2016-cı illərdə Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi uğurlu islahatlar nəticəsində Azərbaycan Respublikası lider dövlətlərdən biri səviyyəsinə yüksəldi.

Azərbaycanın inkişafı və yeni reallıqlar ölkənin əsas qanununda - konstitusiyada müvafiq dəyişikliklərin aparılmasını zəruri edirdi. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 26 iyul tarixli 2241 saylı sərəncamı ilə "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktının layihəsi 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsinə (referenduma) çıxarıldı.

Konstitusiyanın 42 maddəsinə 29 dəyişiklik təklif edilirdi. Seçicilərin 25 faizdən çoxu, yəni 69,70 faizi səsvermədə iştirak etdiyindən referendum baş tutdu və referendum aktının layihəsi qəbul olunmuş hesab edildi.

Xalqın siyasi iradəsinin təcəssümü olan 2016-cı ilin 26 sentyabr referendumu ilə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərdən sonra ölkədə dövlət idarəetməsinin təkmilləşdirilməsi, daha çevik və səmərəli komandanın formalaşması, demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılması istiqamətində islahatlar sürətləndirildi. 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq referendumu əsasında Azərbaycan Respublikasında vitse-prezidentlik institutunun yaradılması hakimiyyətin icraedici qolunun müasirləşdirilməsi istiqamətində mühüm addım oldu. Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı sərəncama əsasən Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, ictimai-siyasi xadim Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu.

## IV İslam Həmrəyliyi Oyunları

2016-cı il referendumundan sonra ölkə həyatında mühüm hadisələrdən biri IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi oldu. Birinci Avropa Oyunlarında olduğu kimi sentyabrın 18-də Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. Mehriban Əliyeva Təşkilat Komitəsinin sədri təyin olundu. Mayın 12-22-də Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında iştirak etmək üçün Bakıya 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəldi. İdmanın 24 növü üzrə keçirilən yarışlarda Azərbaycan idmançıları 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazanaraq birinci oldular.

## Beynəlxalq logistika mərkəzi

1994-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən imzalanmış və "Əsrin müqaviləsi" adı ilə beynəlxalq aləmə səs salan neft kontraktlarının həyata keçirilməsi istiqamətində dövlət səviyyəsində geniş, ardıcıl və məqsədyönlü iş aparıldı. Qarşıya çıxan bütün maneələr qətiyyətlə aradan qaldırıldı və möhtəşəm layihə böyük uğurla tamamlandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft boru xəttinin və 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişinin başa çatdırılması və beynəlxalq miqyasda rəsmi açılışı mərasimlərinin keçirilməsi və istismara başlamasına start verildi. Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilən Bakı–Tbilisi–Qars dəmir yolunun tarixi İpək yolunun bir hissəsinin bərpası kimi Tbilisidən Axalkələkə gedən ilk sınaq sərnişin qatarı 2017-ci il sentyabrın 27-də yola salındı. Bakı–Tbilisi–Qars dəmir yolu Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərindən sonra iqtisadiyyatı daha da inkişaf etdirməklə bərabər, Azərbaycan Respublikasını dünyanın iqtisadi güc mərkəzi olan Avropa İttifaqı, Çin və Cənub-Şərqi Avropa ölkələrini birləşdirən mühüm geosiyasi və geoiqtisadi mərkəzə çevirirdi. Azərbaycan Respublikasında əsas alternativ enerji mənbəyi hesab edilən Günəş enerjisindən istifadə sahəsində həyata keçirilən tədbirlər son illərdə geniş vüsət alıb. Ölkədəki hərtərəfli və dinamik inkişaf, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, enerji sektorundan və neft-qaz hasilatından əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönləndirilməsi, Azərbaycan Respublikasının neft gəlirlərindən asılı olmayan iqtisadiyyatının formalaşdırılması istiqamətində həyata keçirdiyi ardıcıl siyasət real bəhrələrini verməyə başladı. Məcburi köçkünlərin və qaçqınların problemlərinin həll edilməsi üçün şəhərciklərin yaradılması şəbəkəsi genişləndirildi.

**(ardı var)**

***Mais ƏMRAHOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor***

**Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan xalqı növbəti dəfə ağır tarixi sınaqlarla üzləşmişdi. Torpaqları işğal olunan, doğma yurd-yuvalarından qovulan çarəsiz xalq yenicə bərpa olunmuş müstəqilliyini birdəfəlik itirmək təhlükəsi qarşısında qalmışdı. Belə bir taleyüklü zamanda xalq bütün ümidini Heydər Əliyevə bağlamışdı. Odur ki, xalq təkidlə Heydər Əliyevin hakimiyyətə dəvət olunmasını tələb edirdi.**

# Azərbaycanın 21 illik Şərəf və Zəfər tarixi

Belə ağır bir durumda iflic vəziyyətinə düşmüş və yalnız hadisələrin arxasınca sürünən o zamankı siyasi rəhbərliyin hakimiyyəti Heydər Əliyevə təhvil verməkdən başqa yolu qalmadı. 1993-cü ildə Azərbaycan xalqı müstəqil dövlət quruculuğunun Heydər Əliyevlə başlayan şərəfli yoluna qədəm qoydu.

Həmin dövrün hərbi - siyasi təlatümlərindən keçərək bu günün mənzərəsini yaratmaq heç də asan olmadı. İlk növbədə, günbəgün daha böyük itkilər və sarsıntılar gətirən müharibəyə son qoymaqla ölkənin tarixi taleyində dönüş yaradan Heydər Əliyev qısa bir zamanda ortaya qoyduğu uğurlu enerji strategiyası ilə ölkəmizi yeni bir yola – Yeni Azərbaycanın şərəfli quruculuq yoluna çıxara bildi.

Qısa bir müddətdə geniş miqyaslı siyasi-iqtisadi islahatları həyata keçirməklə Heydər Əliyev ölkədə iqtisadi tənəzzülə son qoydu, ölkəyə xarici sərmayələrin axını təmin edildi və Azərbaycan özünün yeni inkişaf yoluna qədəm qoydu. Yeni Azərbaycan dövlətinin müstəqilliyini əbədi və













sarsılmaz etmək uğrunda son nəfəsinədək göstərdiyi fədakarlıqlar Heydər Əliyevi xalqın Ümummilli liderinə çevirdi.

Xalq 2003-cü ilin prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləməklə Heydər Əliyev ideallarına sədaqətini nümayiş etdirdi. İlham Əliyevin ilk dəfə prezident seçildiyi 2003-cü ildə ölkədə ictimai-siyasi və iqtisadi sabitlik nisbətən təmin olunmuşdu. Lakin inkişafdan danışmaq hələ tez idi. Ölkəyə rəhbərlik etdiyi ilk 5 il ərzində İlham Əliyev seçki öncəsi bəyan etdiyi fəaliyyət proqramını artıqlaması ilə həyata keçirməyə müvəffəq oldu. Bir milyona yaxın qaçqın və məcburi köçkünlərin yaşadığı düşərgələr ləğv olundu. Öz torpaqlarından didərgin düşmüş soydaşlarımız ölkənin müxtəlif bölgələrində nisbətən daha yaxşı şəraitdə məskunlaşdırıldı, 600 mindən çox yeni iş yeri yaradıldı. İlham Əliyev ölkənin daxili inkişaf imkanlarını səfərbər etdi, külli miqdarda xarici sərmayələrin ölkə iqtisadiyyatına cəlb olunmasını təmin etdi, həyata keçirdiyi ardıcıl islahatlar nəticəsində davamlı iqtisadi inkişafa nail oldu. Nəticədə ümumdaxili məhsul istehsalının həcmi ildən-ilə artdı, ölkədə geniş miqyaslı abadlıq - quruculuq işlərinə start verildi. Bu siyasətin ardıcıllığı və dönməzliyi ölkədə yoxsulluq səviyyəsinin azaldılmasına və əhalinin sosial rifahının yüksəlişinə səbəb oldu. Dağılmış yolların, sınıq-salxaq körpülərin, divarları ovulub tökülən yaşayış binalarının, qəzalı vəziyyətdə fəaliyyət göstərən məktəblərin, xəstəxanaların, təsərrüfat, istehsal və xidmət obyektlərinin abadlaşdırılması və yenidən tikilməsi, bütövlükdə, ölkənin simasının kökündən dəyişilməsi bütün xalqın gözü qarşısında baş verən möcüzə təəssüratı yaradırdı.

Bu intibah Azərbaycan dövlətinin və vətəndaşının birgə səyi nəticəsində baş tutdu. İntibahın əsasında Azərbaycan liderinin – İlham Əliyevin yaradıcı zəkası, Azərbaycan vətəndaşının isə qurucu əməyi dayanırdı. Bu gün "dünyaya Günəş kimi doğan Azərbaycan" (Heydər Əliyev) məhz xalq – iqtidar vəhdətinin nəticəsi oldu. Azərbaycanda xalq və hakimiyyət vəhdətinin yeni və daha məhsuldar epoxası da məhz bu dövrdən başladı.

Prezident İlham Əliyev cəmiyyətdə vətəndaş həmrəyliyinin bərqərar olmasına, müstəqilliyimizin, ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinə və beynəlxalq arenada milli maraqlarımızın qətiyyətlə qorunmasına nail oldu.

Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, milli məqsədlərə xidmət edən və praqmatik realizmə söykənən mütərəqqi siyasi fəaliyyət nümunəsi gətirdi. İlham Əliyev öz şəxsi nümunəsi ilə cəmiyyətimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı və milli siyasi etika nümunəsi təqdim etdi.

O, Heydər Əliyevin siyasi kursunu yeni keyfiyyətlərlə zənginləşdirmək, heç kimin proqnozlaşdıra bilmədiyi bir novatorluqla davam etdirmək, müasir dünyanın siyasi mədəniyyətində "öz üslubunu" yaratmaq bacarığını ortaya qoydu. İqtisadi böhranın bütün dünyanı çulğadığı bir zamanda milli dövlətimizin tərəqqiyə qovuşması, ölkə miqyasında bu inkişaf tendensiyasının davamlılığı Azərbaycanı beynəlxalq arenada önəmli bir dövlətə – qlobal siyasətdə söz sahibinə çevirdi.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirildi, dövrün çağırışlarına uyğun olaraq daha da təkmilləşdirildi və bu prosesdə ölkəmizin güclü enerji infrastrukturu təşəkkül tapdı, onun qlobal əhəmiyyəti daha da artdı. Azərbaycan Avropanın yeganə alternativ enerji təchizatçısına çevrildi. Nəticədə, ölkəyə sabit maliyyə axını başlandı, ölkənin valyuta ehtiyatları dəfələrlə yüksəldi, çoxsaylı sosial-iqtisadi proqramların icrası təmin edildi. Həmin illərdən başlayaraq bugünədək ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamaqdadır.

2008-ci ildə başlamış qlobal iqtisadi böhran bütün ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzülə səbəb olduğu halda, həmin illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətli inkişaf edən iqtisadiyyatı kimi tanındı. Həmin illərdə 10-12 faiz illik iqtisadi artım qeydə alınmışdı. Elə həmin illərdə Azərbaycan ilk kosmik peykini fəzaya göndərməklə, kosmik dövlətlər klubunun üzvünə çevrildi.

Dünya Bankının hesablamalarına görə, son 20 ildə Azərbaycanın ümumdaxili məhsulu 4 dəfə artıb və 2022-ci ildə Azərbaycan yüksək orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 ildə orta aylıq əmək haqqı dollar ifadəsində 7 dəfə artıb ki, bu da dünya ölkələrinin təcrübəsində nadir hadisə hesab olunur.

İlham Əliyevin həyata keçirdiyi şəffaf, dəqiq hesablamalara əsaslanan və diqqətlə düşünülmüş siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu xeyli yüksəldi, dünyanın aparıcı dövlətləri tərəfindən əməkdaşlıq üçün etibarlı tərəfdaş kimi tanındı, inkişaf etmiş onlarca dövlətin strateji tərəfdaşına çevrildi. Dünya ölkələri İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edən Azərbaycanı müasir dövlət quruculuğunun yeni nümunəsi kimi tanıdılar və qəbul etdilər. Ölkəmiz getdikcə daha çox beynəlxalq səviyyədə diqqət mərkəzinə gəlməyə başladı. Azərbaycan Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq, 1-ci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula 1", "Eurovision" və s. kimi qlobal tədbirlərin keçirildiyi məkana çevrildi.

Azərbaycanın öz geostrateji mövqeyindən maksimum səviyyədə səmərəli faydalanması üçün Prezident İlham Əliyev öz ölkəsini Avrasiya miqyaslı siyasi-iqtisadi hadisələrin mərkəzinə gətirən irimiqyaslı iqtisadi layihələrin təşəbbüskarı oldu. Müstəqil iqtisadi siyasət yürüdən bir ölkə kimi Azərbaycan Respublikası bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış etdi. "Yeni enerji strategiyası"na uyğun olaraq, Azərbaycanın enerji potensialının dünya bazarlarına çıxarılması istiqamətində bir sıra uğurlu layihələr həyata keçirildi. Hazırda Azərbaycanın enerji resursları Bakı–Novorossiysk, Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərləri, eləcə də Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində tikilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərləri vasitəsilə Avropa bazarlarına nəql olunmaqdadır.

İlham Əliyevin prezidentliyi illərində Azərbaycan əsas nəqliyyat və logistika marşrutlarının qovşağına çevrilərək, həm Şərqlə Qərb, həm də Şimalla Cənub arasında körpüyə çevrildi. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional və qlobal layihələr bütün Avrasiya məkanında qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına şərait yaratdı. Bütün bunlar Prezident İlham Əliyevin şəxsi rəhbərliyi ilə onun yaxşı düşünülmüş və uğurla həyata keçirdiyi siyasət sayəsində əldə edildi.

Son 20 ildə Azərbaycan beynəlxalq siyasət sahəsində də möhtəşəm uğurlar əldə edib. 90-cı illərdə, hətta 2000-ci illərin əvvəllərində böyük dövlətlər, beynəlxalq güc mərkəzləri ərazilərimizin işğalına göz yummaqla Azərbaycanın maraqlarını nəzərə almaq istəmirdilər. Ərazilərimizin 20 faizi Ermənistan tərəfindən işğal olunduğu halda, işğalçıya qarşı deyil, məhz ölkəmizə qarşı sanksiyalar tətbiq edilirdi. 1993-cü ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na edilmiş 907-ci Düzəlişə görə, Azərbaycan ABŞ-ın maliyyə dəstəyindən məhrum edilmişdi.

Azərbaycana maliyyə dəstəyindən imtina edən ABŞ ölkəmizin ərazisində qeyri-qanuni olaraq yaradılmış separatçı quruma müntəzəm olaraq maliyyə dəstəyi göstərirdi. Bu kimi hallar işğal olunmuş torpaqların azad edilməsi perspektivlərini şübhə altına qoyurdu. Buna baxmayaraq Qarabağın işğaldan azad edilməsi hər zaman İlham Əliyevin apardığı daxili və xarici siyasətdə əsas prioritet olaraq qalırdı. Məhz onun davamlı səyləri və siyasi məharəti sayəsində Azərbaycan dövləti beynəlxalq səviyyədə ölkəmizin ərazi bütövlüyünün qeyd-şərtsiz tanınmasına nail oldu, işğal edilmiş ərazilərimizin gələcəkdə azad olunmasına əsaslar yaradacaq çoxsaylı hüquqi sənədlər qəbul olundu.

Azərbaycanın dövlət başçısı 20 ildən az bir müddətdə hərb elminin və texnikanın ən son nailiyyətləri ilə təchiz edilmiş müasir ordu yaratmağa nail oldu. Nəhayət, 2020-ci ilin Vətən müharibəsində şanlı ordumuz Qarabağı və Şərqi Zəngəzuru 30 illik işğaldan azad etməklə üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi. 2020-ci ilin Vətən müharibəsindəki Qələbə xalqımızın son iki yüz illik tarixində qazanılmış ən böyük Zəfərdir. Bu möhtəşəm Qələbə İlham Əliyevin Prezident və Ali Baş Komandan kimi Azərbaycan xalqı qarşısında ən böyük və unudulmaz xidmətidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində xalq və dövlət olaraq son 20 il ərzində keçdiyimiz yol Azərbaycan tarixinin iqtisadi yüksəlişlə başlayıb tarixi Zəfərlə davam edən ən qüdrətli mərhələsidir.

Son 15 ildə Azərbaycan beynəlxalq münasibətlərin ən fəal iştirakçılarından birinə çevrilib: 2012-ci ildə 155 ölkənin dəstəyi ilə 2 il müddətinə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib, 2019-cu ildən 2023-cü ilədək dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edib və nəhayət bu yaxınlarda COP-29 kimi tanınan İqlim Dəyişikliyi üzrə 29-cu Qlobal Konfransa uğurla ev sahibliyi edib.

Bu gün dinamik inkişafda olan ölkələrdən biri kimi Azərbaycan regional və qlobal problemlərin həllində fəal iştirak edir. Bütün suveren dövlətlərin qlobal idarəçilikdə bərabərhüquqlu iştirakı uğrunda mübarizə, dünyanın bəzi regionlarında hələ də mövcud olan neokolonializmin kökünün kəsilməsi, inkişaf etməmiş ölkələrə maliyyə dəstəyi, dünya miqyasında multikulturalizm ideyasının təbliği kimi qlobal əhəmiyyət daşıyan məsələlər hazırda Azərbaycan dövlətinin apardığı beynəlxalq siyasətin gündəmini təşkil edir. Bütün bunlar İlham Əliyevin dünya miqyasında Azərbaycan siyasətinə qazandırdığı etimadın və gücün göstəriciləridir.

Bu gün qlobal rəqabətin ən geniş meydanında Azərbaycan Respublikası Prezident İlham Əliyevin şəxsində layiqincə təmsil olunur. Qlobal siyasətin mütərəqqi tendensiyalarında Azərbaycan dövlətinin yer və rol alması, şübhəsiz ki, Prezident İlham Əliyevin dünyanın aparıcı dövlətləri və tanınmış siyasi xadimləri tərəfindən dönə-dönə etiraf olunan uğurlu siyasətinin nəticəsidir. İlham Əliyev kimi dünya miqyaslı bir siyasətçinin ölkəmizə rəhbərlik etməsi isə xalqımız üçün böyük şərəfdir.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

# Prezident İlham Əliyevin “yaşıl” enerji siyasəti

## *Ölkəmiz qlobal iqlim savaşının önündə qərarlaşıb*

**XX əsrin sonlarında tarixi müstəqilliyini bərpa edən Azərbaycan Respublikası dünya birliyinin tamhüquqlu üzvü kimi sərbəst iqtisadi siyasət yürütməyə başladı. Xalqın istək və arzusunun ifadəsi olaraq hakimiyyət sükanı arxasına keçən ulu öndər Heydər Əliyev ölkənin gələcək inkişafına zəmin yaratmaq məqsədilə müstəqil enerji strategiyasını müəyyənləşdirdi. Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının işlənməsi üçün dünyanın tanınmış neft şirkətləri ilə tarixi sazişə imza atıldı. Bununla da, gənc Azərbaycan Respublikası dünyada etibarlı enerji tərəfdaşı kimi tanınmağa başlandı.**




Ötən müddətdə dünyada mühüm enerji layihələrinin əsas təşəbbüskarı və fəal iştirakçısına çevrilmiş Azərbaycan, həm də bir sıra qlobal çağırışlara qoşulan, bəşəriyyətin xeyrinə olan layihələri yaxından dəstəkləyən ölkə kimi tanınıb. Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Bununla yanaşı, Azərbaycan Respublikası Paris Sazişini 2016-cı ildə ratifikasiya edərək qlobal iqlim dəyişikliklərinin təsirlərinin yumşaldılması üzrə təşəbbüslərə özünün töhfəsi olaraq istilik effekti yaradan qazların emissiyalarının azaldılması ilə bağlı öhdəlik götürüb.

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioriteti müəyyənləşdirilib. Həmin prioritetlərdən biri olan təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi istiqaməti qarşıya yeni vəzifələr qoyub. Elə “Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası”nda da elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Bununla yanaşı, Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılması və işğaldan azad edilmiş ərazilərdə “xalis sıfır emissiya” zonası yaradılması niyyəti ifadə olunub. Beləliklə, bir sıra dünya, o cümlədən Avropa ölkələri ilə enerji sahəsində fəal əməkdaşlıq edən Azərbaycan, həm də bəşəriyyətin prioritet elan etdiyi “yaşıl keçid”ə qoşulduğunu uca səslə bəyan edib. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi prioritet vəzifə olaraq irəli sürülüb.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının son iki ildə keçirilən iclaslarında Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin toplantıları da Azərbaycanın ənənəvi enerji resurslarının istehlakı və ixracı ilə yanaşı, öz yüksək potensialı hesabına bərpaolunan enerji istehsalı məsələsinə verdiyi önəmin ifadəsi idi. Sözügedən tədbirlər bu sahədə konseptual məsələlərin həlli baxımından mühüm əhəmiyyət kəsb edib. Eyni zamanda, 2022-ci il dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması ölkəmizin bu sahədə potensialının realizə olunmasını və dünyanın enerji bazarında əhəmiyyətli rolunun daha da yüksəlməsini şərtləndirir.

Azərbaycanın bərpaolunan enerji potensialı isə olduqca yüksəkdir. Son illər bu sahədə aparılmış tədqiqatlar nəticəsində quruda külək və günəş enerjisinin həcminin 27 qiqavatdan çox olması, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisinin 157 qiqavat təşkil etməsi tam təsdiqini tapıb. Ölkəmizin enerji potensialına isə beynəlxalq maraq getdikcə artır. Bu, həm də Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühitinin məntiqi nəticəsidir. Yeri gəlmişkən, enerji sahəsində düşünülmüş, gələcəyə hesablanmış siyasət yeridən Azərbaycan ötən əsrin əvvəllərində neft-qaz ehtiyatlarının işlənməsi üçün xarici sərmayələrin ölkəyə cəlb edilməsinə nail olduğu kimi, bərpaolunan enerji mənbələrinin də hərəkətə gətirilməsi üçün bu təcrübədən yararlanmağı məhəratlə bacardı. Digər tərəfdən, Azərbaycan hökuməti ölkədə “yaşıl” enerji layihələrinə sərmayə qoyan xarici şirkətlərə zəruri dəstək göstərir.

Prezident İlham Əliyev dekabrın 17-də “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində bu məqama toxunaraq deyib: “Günəş, külək enerjisi layihələrinin Azərbaycanda xarici investorlar tərəfindən həyata keçirildiyini, dövlətin heç bir sərmayə qoymadığını, sadəcə, belə bir potensiala malik olacağını nəzərə alaraq, əlbəttə, biz bu sahəyə daha çox investisiya layihələrində maraqlı idik. Əgər hər hansı bir ölkədən hansısa şirkət maraq göstərərsə, biz də birgə investor ola bilərik. Zənnimcə, bu, investisiyalar üçün yaxşı layihə ola bilər. Çünki indi, elə bugünlərdə, yaxın vaxtlarda, yəqin ki, həftələrdə və ya bir-iki ayda buradan, Azərbaycandan Qara dənizin dibi ilə enerji kabellərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması başa çatacaq. İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq. Ona görə də onlara təmiz “yaşıl” enerji mənbələri lazım olacaq. Yəni, bu, yaxşı aparıcı qüvvə ola bilər. Həmçinin Azərbaycanda elektrik enerjisinin daxili qiymətləri elədir ki, bu sektora investisiyalar və şirkətlər üçün istehlakçılara elektrik enerjisinin satışı kommersiya nöqteyi-nəzərindən təmamilə məqbuldur”.

Artıq 5 ilə yaxındır ki, Azərbaycan dünyanın “yaşıl” enerji şirkətləri ilə fəal əməkdaşlıq edir. Məlum olduğu kimi, 2020-ci ilin yanvar ayında Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb. Xatırladaq ki, həmin sənədlər “ACWA Power” şirkəti tərəfindən 240 meqavatlıq külək, “Masdar” şirkəti ilə isə 230 meqavatlıq günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələri əhatə edir.

2022-ci il martın 15-də “Gülüstan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Mazroueinin iştirakı ilə təməli qoyulmuş “Qaradağ” Günəş Elektrik Stansiyası ötən il oktyabrın 26-da istifadəyə verilib. Ölkə energetikasının, enerjisistemin, hələlik, ən böyük “yaşıl” stansiyasının açılışında Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabir iştirak ediblər. Ötən müddətdə bu nəhəng istehsal müəssisəsindən şəbəkəyə 500 milyon kilovat-saatdan artıq təmiz enerji ötürülüb. Enerji istehsalı nəticəsində 130 milyon kubmetrdən artıq qazın istifadəsinə qənaət edilib, bununla da, 200 min tondan artıq karbon emissiyasının qarşısı alınıb. Azərbaycanda dövlət təminatı olmadan xarici investisiya hesabına icra edilən ilk layihə olan “Qaradağ” Günəş Elektrik Stansiyası 262 milyon dollara başa gəlib ki, bunun da 153,7 milyon dolları “Masdar” şirkətinin öz vəsaitidir. Yerdə qalan 108,3 milyon dollarlıq vəsait isə banklardan alınmış kreditlərin payına düşür.

Bununla yanaşı, 2022-ci il iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində Şuşa şəhərində keçirilən forum zamanı Azərbaycanın Energetika Nazirliyi ilə “Masdar” şirkəti arasında “yaşıl” enerjiyə dair daha iki saziş imzalanıb. Həmin sənədlər isə toplam olaraq 10 qiqavat gücündə enerji güclərinin yaradılmasını nəzərdə tutur. Bu il iyunun 4-də Xəzər neft-qaz sərgisi zamanı həmin sazişlərin reallaşdırılması məqsədilə Prezident İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 qiqavat olan üç böyük layihənin təməli qoyulub. Həmin layihələrə Biləsuvarda 445 meqavatlıq, Neftçalada, Bankə qəsəbəsində 315 meqavatlıq günəş və 240 meqavatlıq Abşeron-Qaradağ külək elektrik stansiyaları daxildir. Artıq 760 meqavat gücündə günəş elektrik stansiyalarının tikintisinə başlanılıb. Biləsuvar və Neftçala günəş elektrik stansiyalarının isə 2026-cı ilin ilk rübündə istifadəyə verilməsi planlaşdırılır. Heç şübhəsiz, bütün bunlar Azərbaycan hökumətinin bərpaolunan enerji sektorunun inkişafına verdiyi əhəmiyyətin göstəricisidir. Dövlət bu sahənin genişlənməsi üçün həm hüquqi bazanı təkmilləşdirib, həm də investisiyaların cəlb edilməsini təşviq edib.

Hazırda ölkəmizdə regionun ən böyük külək elektrik stansiyası layihəsinin icrası da sürətlə davam etdirilir. Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən həyata keçirilən “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının təməli isə 2022-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudin iştirakı ilə qoyulub. Ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən “Xızı-Abşeron” külək elektrik stansiyası layihəsi sənaye həcmli bərpaolunan ilk enerji layihələrindəndir. Səudiyyə Ərəbistanı şirkəti tərəfindən 300 milyon ABŞ dolları hesabına inşa ediləcək bu stansiya, həm də Azərbaycanın ilk ən böyük külək enerji stansiyası olacaq. Burada hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbininin quraşdırılması nəzərdə tutulur. İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

“ACWA Power” şirkəti “Xızı-Abşeron” külək elektrik stansiyasından əlavə, Azərbaycanın Energetika Nazirliyi ilə ölkədə 1 qiqavat gücündə yerüstü külək elektrik stansiyasının, 1,5 qiqavat gücündə dəniz külək elektrik stansiyasının tikintisi imkanlarının öyrənilməsi və hidrogen layihələrinin həyata keçirilməsi ilə bağlı memorandum da imzalayıb. Bundan əlavə, “ACWA Power” Azərbaycan hökumətinin Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonası yaratmaq təklifinə müsbət cavab verən iki şirkətdən biridir. Belə ki, adı çəkilən şirkət növbəti mərhələdə bu ərazilərdə külək və günəş elektrik stansiyalarının tikintisini məqsədəuyğun hesab etdiyini bildirib. Bütün bunlar isə Səudiyyə Ərəbistanı şirkətinin yaxın illərdə bu istiqamətlərdə də mühüm layihələr həyata keçirəcəyinə inam yaradır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin də alternativ və bərpaolunan enerji potensialı yüksəkdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2021-ci ildən etibarən Qarabağda və Şərqi Zəngəzurda 270 meqavata yaxın gücdə hidroelektrik stansiyalar istifadəyə verilib. Bir neçə ildən sonra isə bu rəqəmin 500 meqavata çatdırılması nəzərdə tutulur.

Adıçəkilən bölgənin günəş və külək enerjisi potensialının hərkətə gətirilməsi istiqamətində də mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. “İşğaldan azad edilmiş ərazilərində “yaşıl” enerji zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” ölkə Prezidentinin 3 may 2021-ci il tarixli sərəncamının icrası ilə əlaqədar Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılıb, müvafiq konsepsiya sənədi hazırlanıb. Konsepsiyanın məqsədi Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz “yaşıl” enerji ilə təmin etmək, enerji səmərəliliyinə malik “yaşıl” texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır. Bütün bunlar isə nüfuzlu beynəlxalq şirkətləri həmin ərazilərdə bərpaolunan enerji layihələrinə sərmayə yönəltməyə sövq edir.

İşğaldan azad edilmiş ərazilərdə daha bir mühüm bərpaolunan enerji layihəsi ölkəmizin ənənəvi enerji sahəsində vacib tərəfdaşı olan BP şirkəti tərəfindən həyata keçirilir. Ötən ay COP29 çərçivəsində adı çəkilən şirkətin operatoru olduğu 240 meqavat gücündə “Şəfəq” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. Bununla da, layihə fəal tikinti mərhələsinə qədəm qoydu. Xatırladaq ki, sözügedən stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir.

Qeyd edək ki, “Şəfəq” GES layihəsi ilə bağlı icra müqaviləsi 2021-ci il iyunun 3-də Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanıb. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda inşa ediləcək “Şəfəq” GES-də il ərzində, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da illik 120-150 milyon kubmetr təbii qaza qənaət etmək və 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir. Eyni zamanda, iqtisadi cəhətdən tam əsaslandırılmış bu layihə işə düşdükdən sonra elektrik enerjisi hasil etmək üçün Səngəçal terminalında qazdan istifadəni azaltmağa imkan verəcək. Beləliklə, layihənin icrası həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə verəcək.

2025-ci ilin sonlarında istismara verilməsi nəzərdə tutulan “Şəfəq” GES postsovet məkanında ilk ən böyük günəş elektrik qurğusu kimi tarixə düşəcək. Eyni zamanda, Xəzərin coğrafi məkanında ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı tam olaraq “yaşıl” enerji hesabına ödəniləcək. Sözügedən stansiyanın səhmdarları olan BP, SOCAR və Azərbaycan İnvestisiya Şirkəti tərəfindən layihəyə, təxminən, 200 milyon ABŞ dolları məbləğində investisiya yatırılması nəzərdə tutulur.

İşğaldan azad olunmuş Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında da günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur. Eyni zamanda, ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2 min meqavat həcmində texniki potensialının olması müəyyən edilib. COP29 çərçivəsində Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Clean Energy Invest LLC və Baltech Green LLC arasında Kəlbəcər Külək Elektrik Stansiyasının inkişafına dair Anlaşma Memorandumu imzalanıb. 3100 metr hündürlükdə həyata keçiriləcək bu unikal layihə çərçivəsində birgə müəssisə yaradılaraq yaxın zamanda ölçmə kampaniyalarına və layihə hazırlıqlarına başlanılacaq. 200-240 meqavat gücündə olan sözügedən stansiyanın isə 2028-ci ilin əvvəlində kommersiya fəaliyyətinə başlaması gözlənilir. Ərazinin yüksəkliyinin yaratdığı əlverişli şərait sayəsində layihənin ümumi gücünün gələcəkdə 600 meqavatadək artırılması potensialı mövcuddur.

Azərbaycanın “yaşıl” enerji sahəsində həyata keçirdiyi uğurlu siyasətin məntiqi nəticəsi idi ki, ötən ilin dekabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçeirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasında növbəti iqlim tədbirinin (COP29) Bakıda keçirilməsi ilə bağlı qərar qəbul olundu. Ölkəmiz isə COP29 kimi mötəbər tədbirə uğurla ev sahibliyi etməklə qlobal iqlim dəyişikliyi ilə mübarizəyə xüsusi önəm verdiyini, bəşəriyyətin gələcəyinə biganə qalmadığını bir daha təsdiq etdi. Bununla da, dünya iqlim tədbirlərinin Azərbaycan modelinin şahidi oldu.

Dövlətimizin başçısı “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində bununla bağlı deyib: “Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə 2-3 gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün bizim cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki biz 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq, - belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur, - qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi. Bunun üçün müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirilməli idi. Bu, çox böyük təşkilati iş idi və biz onun öhdəsindən şərəflə gəldik”.

Göründüyü kimi, bəşəriyyətə ciddi təhlükə yaradan qlobal iqlim dəyişikliklərinin mənfi təzahürləri ilə mübarizə fonunda ölkəmizin son illər həyata keçirdiyi enerji və iqlim siyasəti dünyada birmənalı olaraq yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Azərbaycan son illərdə əldə etdiyi uğurlar nəticəsində Dünya İqtisadi Forumunun hesabatlarında Enerji Keçidi İndeksinə görə çox böyük sıçrayışa nail olub və dünya ölkələri arasında 32-ci yerdə qərarlaşıb.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

Mövqe

# Markedonovun Liparityandan gətirdiyi iqtibas

## *...Ermənistanda qərar verəcək şəxs yoxdur*

**"Əvvəldən beynəlxalq birlik bizə Qarabağın müstəqilliyini tanımadığını bildirdi. Nəzəri olaraq, Azərbaycan buna razılıq versəydi, bunu edə bilərdilər. Amma ümumilikdə Rusiya, Türkiyə, İran, ABŞ və Fransa Azərbaycanın ərazi bütövlüyünə əsaslanan variantları təklif ediblər. Bu aydın idi". Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın müşaviri olmuş Jirayr Liparityanın bu fikirlərini Rusiyanın tanınmış politoloqu, ölkənin Xarici İşlər Nazirliyinin Beynəlxalq Tədqiqatlar İnstitutunun AvroAtlantik Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov yada salıb. Əlbəttə, rusiyalı politoloq təkcə bu barədə söz açmayıb.**



Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın ölkənin eks rəhbərlərini Qarabağ mövzusunda debata çağırması geniş müzakirə olunmaqdadır. S.Markedonov da məsələyə dair düşüncələrini bölüşüb. Ancaq bir qədər fərqli tərzdə. Politoloq bildirib ki, Azərbaycan Qarabağ məsələsini tamamilə qapadıb və bu barədə ölkənin rəsmiləri də açıqlamalar veriblər. Ermənistanda isə durum fərqlidir və elə təəssürat var ki, Qarabağ mövzusu erməni cəmiyyəti və ictimai rəyi üçün sanki bir zədədir. Çünki istər rəsmilər, istərsə də ekspert dairələri mövzunu daim gündəmdə saxlayır və ondan daha çox bir-birinə qarşı mübarizə müstəvisində istifadə edirlər.

Markedonovun J.Liparityandan gətirdiyi iqtibas onu göstərir ki, N.Paşinyan, loru dildə desək, həm özündən Amerika kəşf edir, həm də kəşf etmir. Birincisi, beynəlxalq birlik sözdə Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bəyan edirdi. Görünür, beynəlxalq hüquq normalarını pozmaq istəmirdi. Amma həmin beynəlxalq birlik hər vasitə ilə çalışırdı ki, Azərbaycan özü Qarabağın Ermənistan ərazisi kimi olmasına, yaxud onun tərkibində ən yüksək status əldə etməsinə razılaşsın.

Yeri gəlmişkən, Azərbaycan ikinci variantı qəbul edirdi, Ermənistan isə Qarabağı beynəlxalq hüququn ayrıca subyekti sayırdı. Hətta, müəyyən dövrlərdə öz havadarları ilə birlikdə Qarabağdakı separatçı rejimi də danışıqlar masasına oturtmağa cəhd göstərirdi. Bu mənada Paşinyan haqsızdır, çünki Ermənistanın əvvəlki rəhbərliyi Qarabağı əldən vermək istəmirdi. Nəinki Qarabağı, heç işğal etdiyi ətraf bölgələri də boşaltmaq niyyətində deyildi. Ancaq Nikol, belə demək mümkünsə, özündən ona görə Amerika kəşf etmir ki, beynəlxalq birlik haqqında söz açdığımız beynəlxalq hüquq nöqteyi-nəzərindən davranırdı. O qəbul edirdi ki, Qarabağ Azərbaycanındır. Hər halda, məsələnin belə qoyuluşu başqadır, rəsmi İrəvanın Qarabağ dirənişi və həmin dirənişə göstərilən dəstəklər bir başqa.

Elə həm də buna görə S.Markedonov bildirir ki, sülh yolu ilə nizamlanma variantlarını müzakirə etmək bir şeydir, məğlubiyyətlər və rüsvayçılıqlar fonunda güzəştlərlə bağlı konkret qərarlar qəbul etmək başqa şey. Mövcud məsələdə politoloqun gəldiyi başlıca qənaət isə budur ki, Ermənistanda mühüm dövlət xadiminin məsuliyyəti əsas məsələyə çevrilir. Yəni, Markedonov faktiki olaraq bildirir ki, Ermənistanda məsuliyyəti öz üzərinə götürməyə hazır olan şəxs yoxdur. Ancaq, o, bu fikirdədir ki, Paşinyan mahir taktiki gedişə əl atır və özünün "şəbəkə döyüşçüsü" keyfiyyətlərini nümayiş etdirməkdə israrlıdır. Başqa sözlə desək, şoumenlik keyfiyyətlərindən istifadəyə baş vurur.

Sonda onu da deyək ki, ümumən Qarabağ məsələsi erməni cəmiyyətində müzakirə olunmaqdadır. Daha doğrusu, Qarabağ itkisi erməni ictimai rəyini psixoz duruma salıb və heç cür onun təsirindən çıxa bilmir. Ölkə müxalifəti bölgənin itirilməsinə görə iqtidarı ittiham edir. İqtidarın da əks arqumentləri özünü təmizə çıxarmaqla bağlıdır. Reallıqda hər iki tərəf, obrazlı desək, gedən qatarın arxasınca baxmaqla məşğuldur. Yekunda bu "məşğuliyyət" illüziya yaradır. İllüziya Azərbaycanla barış mühitinin formalaşmasına, bütövlükdə, Cənubi Qafqazda sülhün qərarlaşmasına maneçilik törədir. S.Markedonovun təbirincə ifadə etsək, Ermənistanda məsuliyyəti üzərinə götürəcək siyasi liderin olmaması o deməkdir ki, bu ölkədə barış mühit naminə qətiyyətli qərar verəcək rasional düşüncəli şəxs yoxdur. Bu durumda isə Ermənistanı yalnız bir aqibət gözləyir ki, o da tam şəkildə iflasa uğramaqdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paşinyanın "debat şousu" təşəbbüsü



**(əvvəli 1-ci səhifədə)**

Xülasə, N.Paşinyan Qarabağla bağlı dediklərinə görə Ermənistanın eks-prezidentlər tərəfindən tənqid olunub və nəticədə Nikol onları debata çağırıb. Əslində, Nikolun seçkiyə hazırlaşması da elə budur. Paşinyan düşünür ki, debatda üstünlük əldə edəcək və 2026-cı ildə Qarabağla əlaqədar hansısa ittihamla üzləşməyəcək, yaxud ittihamların kəsəri zəif olacaq. Beləliklə, Nikol bildirib: "Yaxşı ki, keçmiş prezidentlər Qarabağ üzrə danışıqlar prosesi ilə bağlı yazıma öz nümayəndələri vasitəsilə cavab verdilər. Amma mən nümayəndələrin arxasında gizlənmirəm. Məncə, onların da gizlənməməsi düzgün olardı. Bu gün vəzifəmə etiraz edən prezidentlərin reaksiyasını gözləyirəm".

Buna cavab olaraq, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın ofisinin rəhbəri Baqrat Mikoyan bildirib ki, Paşinyanın yalan danışmaq üzrə mütləq çempion olduğu çoxdan bəllidir. B.Mikoyan hökumət rəhbərinin 1994-cü ildən Qarabağla bağlı danışıqlar prosesinin bölgəni Azərbaycana qaytarmaq ətrafında getdiyinə dair fikrinə növbəti aşağılayıcı replika ilə də münasibət bildirib: "O (Paşinyan – red.), eyni zamanda, deyə bilər ki, Qarabağ hərəkatının əvvəlindən biz (köhnə komanda) Ermənistanın Qərbi Azərbaycan elan edilməsi üçün mübarizə aparmışıq. Görəsən, dünyada bu yalana inanan nə qədər sadəlövh erməni qalıb?"

Göründüyü kimi, M.Mikoyan manipulyasiyaya yol verir. Əlbəttə, o, bu baxımdan tək deyil. Məsələyə diqqət yetirəcəyik. Hələlik onu deyək ki, beynəlxalq birlik heç vaxt Qarabağın Ermənistana məxsusluğunu bildirməyib, eyni zamanda, bölgədəki artıq canını tapşırmış separatçı erməni rejimini tanımayıb. Amma fakt budur ki, həmin beynəlxalq birlik Qarabağın Ermənistan olması üçün çox çalışıb, müxtəlif üsul və vasitələrə əl atıb ki, bölgənin erməni torpağı olmasına dair təsəvvür yaransın və belə bir sərsəm düşüncə leqallıq qazansın. Danışıqlar prosesi məhz buna görə davamlı xarakter alıb və Ermənistanın keçmiş rəhbərlərinin ən böyük "xidməti" prosesi uzatmaq olub.

N.Paşinyan isə bunu bacarmadı. Həm də ona görə bacarmadı ki, özünü, bir növ, demokratiyanın qladiatoru obrazında görmüş, hesab etmişdi ki, onu hakimiyyətə gətirən Qərb dairələri Qarabağ məsələsinin İrəvanın mənafeyinə uyğun həllinə kömək göstərəcəklər. Hələ Nikola dəstək vədi də verilmişdi. Ortada təxminən belə bir plan var idi: "Demokratik Ermənistan" "avtoritar Azərbaycanı" məğlubiyyətə uğradacaq və bundan Qərb öz payını götürəcək. Yəni, Azərbaycanda hakimiyyət dəyişikliyi olacaq, ölkədə Qərbmeyilli marionet hökumət qurulacaq.

Sözümüz ondadır ki, Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını heç də elə-belədən səsləndirməmişdi. Lakin məlum olduğu kimi, Ermənistanın istəyi gerçəkləşmədi. Ölkə 44 günlük müharibədə acınacaqlı duruma düşdü. Bundan sonra Qarabağ mövzusu kabus kimi Paşinyan iqtidarının üzərinə çökdü və bu gün də həmin kabusdan qurtula bilmir. B.Mikoyan isə deyir ki, prezident Koçaryan uzun müddətdir baş nazirin qocalıq qeydlərini oxumur. Onun sözlərinə görə, (debatda) müzakirə üçün mübahisəli mövzu olmalıdır, Qarabağın və Ermənistanın suveren ərazilərinin təhvil verilməsinin indiki baş nazirin şəxsi "xidməti" olması isə danılmaz tarixi faktdır və bütün düşüncə sahibləri üçün aydındır. Ona görə də "heç kim TikTok-un komik personajları ilə ciddi mövzuları müzakirə etməyəcək".

Qeyd edək ki, N.Paşinyanın debat təklifinə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın komandası da reaksiya verib. Amma bu da reaksiya yox, daha çox Nikolu ələ salmaqdır. Ter-Petrosyanın mətbuat katibi Arman Munisyan özünün "Facebook" hesabında yazıb ki, debatlar dövlət və cəmiyyət üçün son dərəcə faydalı olardı. Ancaq: "Nəticədə mübahisənin hər iki tərəfi bir-birini yalançı adlandıracaq. Üstəlik, Nikol Paşinyan – Nikol Paşinyan debatı təkcə Qarabağ məsələsində deyil, istənilən başqa mövzuda da son dərəcə faydalıdır. Məsələn, Amulsar, səfirlərin təyinatının siyasiləşdirilməsi, dövlət büdcəsinin israfçılığı, məhkəmə sisteminin müstəqilliyinin məhv edilməsi və sair mövzularda".

Bu arada onu da deyək ki, N.Paşinyan Ermənistanın eks-prezidentləri ilə Qarabağ mövzusunda debat təklifinə verilən reaksiyalara da münasibət bildirib və növbəti dəfə mövqeyini təkrarlarıb. Baş nazir özünün "Facebook" hesabında yazıb: "Mən keçmiş prezidentləri bir daha düşünməyə və üzbəüz müzakirə üçün fürsətdən istifadə etməyə, üçüncü respublikanın tarixində baş verənlər haqqında müzakirə aparmağa çağırıram. Bu, media üçün üz-üzə görüşmək və üzbəüz debatla məsafəli müzakirəni yekunlaşdırmaq üçün unikal imkandır. Bu, təkcə keçmişlə bağlı söhbət deyil, həm də gələcək strategiyalarda oriyentasiya üçün əsas hadisədir. Problem təkcə mübahisədə deyil, həm də tarixi xalqa təqdim etməkdə, öz tarixini dərk etməkdədir. Keçmiş prezidentlər debatdan uzaqlaşıblar. Lakin mən onları yenidən düşünməyə çağırıram. Çünki gec-tez nəticələr çıxarılacaq. Mən vicdanlı yolu – üz-üzə dayanıb keçmiş prezidentlərlə görüşü seçirəm. Təklifimi qəbul etmələrini istəyirəm. Əks-halda, nəticələr xalqda qalacaq və mən xalqa bu nəticələrin çıxarılmasında kömək edəcəm".

Paşinyanın bu mövqeyindən sonra əvvəldə səsləndirdiyimiz bir fikrə qayıdaq. Göründüyü kimi, baş nazir israrlıdır və o, indidən 2026-cı ilin parlament seçkiləri üçün ehtimal edilən və özünə qarşı istifadə olunacağı şübhə doğurmayan Qarabağ ritorikasına son qoymaq istəyir. Çünki haqlı olduğunu düşünür. Əks tərəf də Paşinyanın, belə demək mümkünsə, tutarlı arqumentlərlə silahlandığından xəbərdardır. Paşinyan onu da yaxşı anlayır ki, məhz Qarabağ mövzusu rəhbərlik etdiyi iqtidarın nüfuzu baxımından təhlükədir. Ona görə bu mövzudakı debatı seçkiyə bir ildən artıq müddətin qaldığı zamanda gerçəkləşdirmək istəyir. Əgər qalib gəlsə, müxalifətin ona qarşı çıxardığı Qarabağ kartı zəifləyəcək. Əksinə, debatda məğlubiyyətlə üzləşsə, o zaman reytinqi bərpa etmək üçün qarşıda müəyyən vaxt qalacaq. Yəni, bu səbəbdən Nikol debatda israrlıdır və şantajından qalmır. O, anons edir ki, əgər ekslər debat təklifi ilə razılaşmasalar, xalqa Qarabağ mövzusunda öz həqiqətlərini təbliğ edəcək. Bir sözlə, Paşinyan 2026-cı il üçün hər cür həyasızlığa əl atacağının anonsunu verir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Təqvim yada salır

# 25 dekabr 1991-ci il – SSRİ-nin süqut günü

**Qərb siyasətçiləri bu süqutun reallaşdırılması üçün uzun illər çalışmışdılar. Ortada elə bir nəticə yox idi. Elə SSRİ adlı nəhəng dövlətin tərkibində olan "müttəfiq" respublikaların əhalisi də həmin günü arzulamaqla kifayətlənmir, bunun üçün gah açıq, gah da gizli səy göstərirdilər. Real nəticələr isə hələ uzaqda görünürdü. Ancaq Kreml rəhbərliyinin öz ölkəsində milli ayrı-seçkiliyi gizlətməməsi, gah Orta Asiyada (Qazaxıstanda Kolbin məsələsi, Özbəkistanda ermənilərin əli ilə Ahıska türklərinə qarşı süni problem yaradılması), gah Baltikyanı ölkələrdə, gah da Cənubi Qafqazda (əvvəlcə Tbilisidə, sonra isə Bakıda) yerli əhalini minbir bəhanə ilə qanına qəltan etməsi qırmızı imperiyanın sonunu yaxınlaşdırdı və... milyonların arzusu reallaşdı.**

Doğrudur, Qərb mətbuatı sonralar yazırdı ki, SSRİ-nin çökməsinin əsas səbəbi həmin ölkənin ilk və sonuncu prezidenti Mixail Qorbaçovun başladığı islahatlar kursu olmuşdu. Şərqdə isə deyirlər ki, "yalan olmaz, yanlış olar". Bəli, Mixail Qorbaçovun "yenidənqurma" adı ilə başladığı həmin islahatlar SSRİ xəritəsinin bir çox hissəsində qan ləkələri, qırğın şəkilləri yaratmışdı. Yəni qərblilər bu məsələdə Mixail Qorbaçovun adını çəkməkdə haqlı idilər, ancaq SSRİ-nin çökməsinin əsas səbəbi onun islahatları yox, milli ayrı-seçkilik zəminində axıtdığı qanlar , azadlıqsevər insanların qəsdən məhv edilməsi olmuşdu.



Qeyd etdiyimiz fakt ( Kremlin ölkəni qan çanağına çevirməsi İ.M.) o qədər ağrılı idi ki, politoloq və siyasətçilər nəhəng bir dövlətin dünya xəritəsindən silinməsi kimi, tarixi hadisəni kin və nifrətlə, cəmi iki cümlə ilə qeyd edirdilər: "SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçov 1991-ci il dekabrın 25-də vəzifəsindən istefa verib. Bununla da SSRİ dövləti hüquqi cəhətdən süqut edib".

... Xatırladaq ki, 1964-cü ildən Sov. İKP MK-nın birinci katibi olan Leonid Brejnevin rəhbərliyi dövründə "birinci katib" vəzifəsi 1966-cı ildən "Baş katib"lə əvəz edildi və SSRİ-də ən yüksək vəzifə hesab olundu. 1985-ci ildən bu vəzifəni Mixail Qorbaçov tutdu, bu ona faktiki dövlət başçısı kimi həm partiyanın, həm də dövlətin lideri olmaq səlahiyyəti verdi. 1990-cı ilin martından etibarən isə Mixail Qorbaçov Sov. İKP MK-nın Baş katibi və SSRİ Prezidenti vəzifələrini birləşdirdi. Sonra SSRİ Konstitusiyasının 6-cı maddəsi ləğv edildi və Sov. İKP ölkə hakimiyyətindəki inhisarını itirdi. Ancaq partiya öz hökmranlığını itirsə də, 1991-ci il avqustun 19-21-də Moskvada baş verən hadisələrə qədər hakim partiya olaraq qaldı. 1991-ci il dekabrın 25-də, nəhayət, SSRİ-nin mövcudluğu dayandırıldı. Bildirilir ki, SSRİ-nin mövcudluğunun 70 ili ərzində yalnız 9 partiya və dövlət rəhbəri (hökuməti idarə edən Malenkov və "Avqust qiyamı" zamanı SSRİ prezidenti vəzifəsini icra edən Yanayevi də saymaqla) SSRİ-nin lideri olmuşdur.

Bəs Mixail Qorbaçovun səhvləri nədən ibarət idi? Ekspertlər bu sualın cavabnı Kreml rəhbərliyinin həm xarici, həm də daxili siyasətində axtarırlar. Qeyd edilir ki, 1983-cü ildə Amerika Birləşmiş Ştatlarının prezidenti Ronald Reyqan Strateji Müdafiə Təşəbbüsü adlı kosmosda raketdən müdafiə planını həyata keçirməyə başlamışdı. Buna cavab olaraq SSRİ də öz hərbi və kosmik xərclərini artırırdı. Nəticədə ölkə əhalisi ziyan görməli oldu. Məlum ərzaq qıtlığı, bəzi məhsulların talonla satılması və digər faktlar hamının yadındadır. Mixail Qorbaçov bu geriləmələrin qarşısını almaq üçün "İqtisadi inkişafı sürətləndirmək" adı ilə "yenidənqurma" və "aşkarlıq" kimi nağıllarla əhalinin başını qatmağa çalışdı.

Bütün bunların fonunda ölkənin regionlarında da ciddi problemlər yaranırdı. Yəni etnik münaqişələr sovetlərin vəziyyətini, demək olar ki, hər gün gərginləşdirdi. Rusiyalı ekspertlərin fikrincə, Azərbaycan SSR-in tərkibindəki Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilər tərəfindən başlanan separatçılıq hərəkatı "Böyük dağılmanın" başlanğıcı olmuşdu.

Rəsmi materiallarda oxuyuruq ki, 1990-cı ilin martında Estoniya, Litva, may ayında isə Latviya müstəqilliklərini bərpa etmək haqqında qərar qəbul etdilər. Gürcüstanda suverenlik haqqında dekret qəbul olundu.

İyun ayında RSFSR dövlət suverenliyi barədə Bəyannammə qəbul etdi. 1991-ci ilin iyununda Boris Yeltsin RSFSR-in prezidenti seçildi. 1991-ci ilin avqustunda Sovet İttifaqını qoruyub saxlamaq istəyən yüksək çinli məmurlar ölkədə fövqəladə vəziyyət elan etdilər. Qorbaçovun "səhhəti ağır olduğu üçün" onun səlahiyyətləri Gennadi Yanayevə verildi. Yanayev Moskvaya hərbi qüvvə yeritdi, lakin bu cəhd uğursuz alındı. "Avqust qiyamı" puç oldu. Bu hadisədən sonra Kommunist Partiyasının fəaliyyətinə son qoyuldu.



SSRİ-nin dağılma prosesini 1991-ci il dekabrın 8-dəki qərarlar sürətləndirdi. Belə ki, həmin gün Rusiya SFSR, Ukrayna SSR və Belarusiya SSR-in rəhbərləri SSRİ-nin parçalanması barədə istəklərini bildirdilər ( bu ölkələr SSRİ-nin yaradılmasını təşkil etmişdilər). 1991-ci il dekabrın 25-də isə SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçov istefa verdi. Dekabrın 26-da Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi və beləliklə 1922-ci il dekabr ayının 30-da yaranmış və 69 il mövcud olmuş SSRİ tarix səhnəsindən silindi.

Xatırladaq ki, bu gün istənilən azərbaycanlının ürəyində Mixail Qorbaçova nifrət və qəzəb hissi var. İnanırıq ki, gələcəkdə də belə olacaq. Çünki 1990-cı il yanvarın 20-də Bakıda törədilən faciənin əsas təşkilatçısı Mixail Qorbaçov olmuşdur. Bakıya qoşun yeridilməsi əmrini o vermişdi. Sonralar "Həyat və islahatlar" kitabında bu hadisəyə münasibət bildirən qatil yazmışdı ki, 1990-cı ilin yanvarında çoxlu sayda bakılının həyatı yarımçıq qırıldı: "Bu ağırdır, çox ağırdır… Bu faciəli hadisədən dərs götürdüm…"

Şərqlilər bu qəbildən olan rəzil etirafları eşidəndə deyirlər: " Bu ifadə "Bağışlayın, sizin övladınızı öldürdüm. Amma yaxşı oğlan idi" deyimindən də iyrənclik və riyakarlıqdır".

***İttifaq MİRZƏBƏYLİ***

# NAXÇIVAN XƏBƏRLƏRİ



## Qazilərə diqqət və qayğı

**Dünən Naxçıvan Muxtar Respublikasında Qarabağ müharibəsində yaralanmış və Çernobil qəzası zamanı xəsarət almış 12 əlilə avtomobil, 2 nəfərə isə özünüməşğulluğa dəstək üçün səyyar qəhvəxana təqdim edilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli dövlət hədiyyəsi alanlarla görüşdə qeyd edib ki, son illərdə Azərbaycanın bütün ərazisində suverenliyimiz təmin olunub. Bu tarixi nailiyyətin əldə olunmasında müharibə iştirakçıları və qazilərin rolu, əməyi danılmazdır. Dövlətimiz hər zaman onların Vətən qarşısındakı fədakarlıqlarını yüksək qiymətləndirir, bu kateqoriyadan olan şəxslərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür.

Fuad Nəcəfli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın uğurla icra olunduğunu, bu tədbirlər çərçivəsində əhalinin rifah halının yüksəldilməsi tədbirlərinin bundan sonra da davam etdiriləcəyini bildirib, hər kəsi qarşıdan gələn bayramlar münasibətilə təbrik edib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli avtomobillərin və qəhvəxanaların açarlarını, sənədlərini sahiblərinə təqdim edib, onlara möhkəm cansağlığı, uğurlar arzulayıb.



## Yubiley xalçasının təqdimatı

**Dünən Azərbaycan Milli Xalça Muzeyində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş yubiley xalçasının təqdimatı keçirilib.**






Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi Azərbaycan tarixində həm dövlətçilik ənənələrinin, həm də milli kimliyimizin qürur mənbəyidir. 1 əsr vvəl Naxçıvan muxtariyyətinin yaradılması ilə Azərbaycanın ayrılmaz hissəsi kimi bu diyarın hüquqi statusu təsbit edilib.

Bildirilib ki, bu gün Naxçıvanın əldə etdiyi nailiyyətlər ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və Prezident İlham Əliyevin bu xətti uğurla davam etdirməsi nəticəsində qazanılıb. Həyata keçirilən infrastruktur layihələri, dövlət proqramları Naxçıvanın tərəqqisinə yeni töhfələr verir. Birinci vitse-prezident Mehriban Əliyevanın diyarın mədəni irsini beynəlxalq səviyyədə tanıdır, humanitar inkişafa əhatəli qayğı göstərir.

Azərbaycan Respublikasının Mədəniyyət nazirinin müavini Səadət Yüsifova bildirib ki, təqdimatı keçirilən "Naxçıvan Muxtar Respublikası 100" xalçası bu qədim yurdun zəngin mədəniyyətinin rəmzi kimi ərsəyə gətirilib. Xalçanın eskizində qədim Naxçıvan Xalça Məktəbinə aid ənənəvi elementlər, Möminə Xatın türbəsi ornamentləri və əzəmətli Haçadağın təsviri ustalıqla əks etdirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli vurğulayıb ki, Naxçıvan təkcə coğrafi baxımdan deyil, həm də milli-mədəni irsin beşiyi kimi Azərbaycan xalqı üçün əvəzolunmaz əhəmiyyət daşıyır. Naxçıvanın 100 illik yubileyi çərçivəsində keçirilən belə tədbirlər tariximizi, mədəniyyətimizi və ənənələrimizi gələcək nəsillərə ötürmək baxımından böyük əhəmiyyət kəsb edir.

Xalçanın toxunması ilə bağlı videoçarx nümayişindən sonra Kamil Əliyev adına Naxçıvan Xalça Muzeyi əməkdaşlarının toxuduğu xalçanın təqdimatı və kəsimi həyata keçirilib. İştirakçılar muxtar respublikanın muzey fondlarına aid maddi mədəniyyət nümunələrindən ibarət sərgiyə də baxıblar.

Xalça eskizinin müəllifi muzeyinin direktoru Ülviyyə Məmmədova, toxucuları isə tərtibatçı rəssamlar Gülsüm Kəngərli və Rübabə Əliyevadır.

Naxçıvan Dövlət Filarmoniyasının sənətçiləri və Əməkdar artisti Nuriyyə Hüseynova mərasimin təntənəsini musiqi proqramı ilə yüksəldiblər.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan–Bakı**

# Quru Qoşunları komandanının türkiyəli həmkarı ilə görüşü

**Dekabrın 24-də Azərbaycan Respublikasının müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüşdə hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Hər iki qardaş ölkənin hərbi qulluqçularının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi vurğulanıb.

Görüş zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

*XQ*



# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 23 dekabr tarixli saylarında)***

Ancaq bu biznes uğurları Əlcəzairdəki siyasi vəziyyətlə ziddiyyət təşkil edir. Əbdüləziz Buteflikanın səhhətinin ağırlaşması, onun 2019-cu ildə beşinci dəfə prezident olub-olmayacağının qaranlıq qalması namizəd Makronun Əlcəzairə səfərini bir az dolaşdırır. Çünki bu saat Əlcəzair hakimiyyəti bir neçə klana bölünüb və bu klanlar bir-birini didirlər. Daha dəqiq desək, hazırda hakimiyyətdə olan ərəblərlə ölkənin iqtisadiyyatını əllərində saxlayan kabillər arasında müharibə gedir. Digər tərəfdən, prezidentin qardaşı Səidin başçılıq etdiyi Buteflika klanı nəyin bahasına olursa olsun, hakimiyyətdə qalmaq istəyir. Bəlkə də, elə buna görə Makron prezident olandan sonra Buteflikanın klanı ilə ünsiyyəti azaltdı. Bəzi həmsöhbətlərimizə inansaq, bu ünsiyyətin azalması Əlcəzairdə hamının zövqünü oxşamır. "Yaddan çıxarmaq lazım deyil ki, Djurini səfirlikdə əlcəzairlilər Makronun əlinə verdilər", – deyə onlardan biri replika atır.




Yaxşı, bəs Makron əkdiyini biçmir? Seçki kampaniyası dövründə, hələ prezidentliyə namizəd olanda Əlcəzairə səfəri zamanı hamının xoşuna gəlməyə çalışanda, bəyəm gələcək dövlət başçısı odla oynamırdımı? Biz gördük ki, namizəd Makron necə həvəslə FCE (Əlcəzair Biznes Liderlərinin Forumu Təşkilatı) rəhbərliyi ilə görüşdü. Özü də o, çox yaxşı bilirdi ki, FCE Əlcəzairdə müasirliyin simvolu deyil... onu nə Əlcəzairin hökumət orqanlarında baş verən qohumbazlıq, yerlibazlıq, nə də korrupsiya narahat elədi. "Yeni siyasi dünya" yaratmaq istəyində olan namizəd Makron, Aleksandr Djurinin yaxın dostu Əli Haddad başda olmaqla bütün şübhəli adamlarla görüşdü.

Həmin gün, həmin səhər, həmin hoteldə, bir az əvvəl Emmanuel Makron başqa bir səhər yeməyində də iştirak edir. Kiçik, məxfi bir görüş. Masanın ətrafında Əli Haddad və Fransua Tuazi. Fotoqraflardan və kameralardan uzaq olan bu görüşü Aleksandr Djuri təşkil etmişdi. Üç fərqli şahidin dediyinə görə, əlcəzairli biznesmen Aleksandr Djuri həmin gün, həmin hoteldə Fransanın gələcək prezidenti ilə görüşüb. Ancaq 2019-cu ilin fevral ayında ona bu sualı verəndə, Aleksandr Djuri seçki kampaniyası zamanı namizəd Emmanuel Makronla görüşməyini boynuna almadı. Bizim sualımıza "heç vaxt" deyə cavab verdi. Sonra da əlavə etdi ki, "mən Tuazini-filanı tanımıram. Kim kimi manipulyasiya edir?" Bir neçə gün əvvəl Aleksandr Djuri İngiltərə məhkəməsinin onu Fransaya transfer etmək qərarından sonra "France3" telekanalında çıxış etdi. Axırda da bəyan etdi ki, "bu mənim son müsahibəm deyil. Mən saat 20-də canlı yayıma çıxacağam […]. Həqiqət Hərəkətdədir..." (!) Daha sonra Fransa səfirliyindəki o axşamkı qəbulda iştirakına görə Əlcəzairdən "qovulmasından" təəssüfləndiyini bildirdi. Doğrudanmı bu adam Makron prezidentliyə namizəd olanda, onunla görüşmüşdü? "Köhnə ənənələrlə" davam edən siyasəti tənqid edən "yeni siyasi dünya" yaratmağa çalışan bir namizəd üçün belə bir şey qalmaqal olardı. Və ya bəlkə, hamının "Müsyö Aleksandr" çağırdığı bu adam gələcək prezidentlə kontakta girməyə cəhd etmişdi ki, onu bilərəkdən pis vəziyyətdə qoysun? Fransa səfirliyində keçirilən o başıbəlalı qəbuldan əvvəl, Aleksandr Djuri 2017-ci ilin noyabrında Əbu-Dabi şəhərində Makronla görüşməyə çalışmamışdımı? O vaxt, orada, Luvr muzeyinin açılışı münasibəti ilə təşkil olunan qəbulda Aleksandr Djurinin Makronla görüşməyə can atması uğursuzluqla nəticələnmişdi. "Kim kimi manipulyasiya edir?", – deyə Djuri çox haqlı bir sual verir. Bu sualın arxasında daha həssas bir sual gizlənir...

## Çox təşəbbüskar bir patron

Əslində, Əlcəzair səfərindəki bu görüş, prezidentliyə namizədin yeganə məxfi görüşü deyildi. Bir gün əvvəl, fevralın 13-ü axşamı Makron, Əlcəzairin ən böyük iş adamlarından biri, əsli Kabildən olan milyarder İssad Rebrab ilə şam edir. Bu adam ilk Əlcəzair özəl qrupu olan, 2017-ci ildə dövriyyəsi 2,7 milyard avro təşkil edən Cevital cəmiyyətinin sahibidir. Bu axşam yeməyində Fransua Tuazi də iştirak edir.

Əslinə qalsa, Makron ilə Rebrabı bir-birinə təqdim edən üçüncü bir adama ehtiyac yoxdur, çünki onlar nəinki tanışdılar, hətta bir-birlərini çox gözəl tanıyırlar. Makron yaxşı bilir ki, son vaxtlar İssad Rebrab qərara gəlib ki, Fransada, eləcə başqa ölkələrdə sərmayə qoyub, rəhbərlik elədiyi qrupu daha da inkişaf etdirsin və eyni zamanda, öz ölkəsində bir az rahat nəfəs ala bilsin. Məsələ burasındadır ki, Əlcəzairin məxfi xidmətinin sabiq rəhbəri, hamının Tufik çağırdığı general Mohamed Medienin yaxın dostu olan Rebrab, 2015-ci ildən Buteflika klanı tərəfdən hücumlara məruz qalıb. Bu klan heç bir əsas olmadan ona ölkədə çoxsaylı layihələrini həyata keçirməyə imkan vermir. Hələ bu harasıdır, Əlcəzair mətbuatında bu iqtisadi lider, bəzən hakimiyyətə qarşı "müxalifət" kimi mübarizə aparan bir şəxs kimi də təqdim edilir.

Makron və Rebrab 2012-ci ildə tanış olublar. Birinci, o vaxt Yelisey sarayında baş katibin müavini kimi həm iqtisadi, həm də sənaye layihələrini izləyirdi. Məhsuldar Bərpa naziri Arno Montburq ilə birlikdə Fransua Hollandın yaxın əməkdaşı, (Makron) daha çox təcili köməyə ehtiyacları olan sənaye şirkətləri ilə məşğul idi. O vaxtlar "Floranj" polad zavodunun sıxıntı içində olan fəhlələri haqqında mətbuat hər gün qalmaqallı məqalələr yazır, eləcə də "Brotayn" toyuq fermasının işçiləri kimi. Bu Makron üçün lap göydən düşmə bir xəbərdir, çünki əlcəzairli milyarder İssad Rebrab deyir ki, bu qalmaqallı işlərlə məşğul olmağa hazırdır. Ancaq bir neçə ay davam edən danışıqlardan sonra "Brotayn" toyuq ferması Səudiyyə qrupuna qatılmağı üstün tutur. Fransada investisiya etmək arzusunda olan milyarder İssad Rebrab bu məğlubiyyəti qəbul etmir. 2013-cü ilin iyun ayında bu iş adamı Saône-et-Loire departamentində yerləşən pəncərə istehsal edən Oxxo şirkətini alır. Daha sonra əlcəzairli milyarder Fransada bir nömrəli məişət texnikası istehsal edən, İspaniyanın Fagor firmasının filialı olan FagorBrandt qrupu ilə maraqlanır. Bu dəfə onun bəxti gətirir. 2014-cü ilin aprel ayında Nanter ticarət tribunalı FagorBrandt məişət texnikası qrupunun İssad Rebrab tərəfindən 200 milyon avroya satın alınmasını təsdiqləyir. Bu da lap yerinə düşür, çünki bu alqı-satqı qrupun 1800 fəhləsindən 1200-nü məcburi işsizlikdən xilas edir. Ancaq Əlcəzairdə hakimiyyətdə olan qüvvələr bu işdə də həmyerliləri İssad Rebraba problem yaradırlar, ona 200 milyonu birbaşa Əlcəzairdən Fransaya keçirməyə mane olurlar. Ona görə də İssad Rebrab məcbur olub bu məbləği əvvəl İsveçrəyə, oradan isə Fransaya keçirir.

O vaxtdan İssad Rebrab Fransada çox məşhurlaşır. Elə həmin il prezident Fransua Holland onu başqa iş adamları ilə birlikdə Yelisey sarayına dəvət edir. Makron İqtisadiyyat naziri keçəndə, təbii ki, Fransanı bu qədər çox sevən milyarderlə əlaqəni kəsmir. 2017-ci ildə dövlət başçısı seçilən Makron prezident kampaniyası zamanı Əlcəzairdə yenidən görüşdüyü bu adama diqqətini daha da artırır... Onu da qeyd edək ki, Makron Yelisey sarayında hər iş adamını şəxsən qəbul etmir.

2018-ci ilin noyabr ayında Fransanın şimal-şərqində yerləşən Şarlevil-Mezier şəhərində keçirilən "Birinci Dünya müharibəsinin xatirə həftəsi" zamanı dövlət başçısı fürsətdən istifadə edib gələcək Cevital zavodunun yerləşəcəyi bir binanın açılışını da edir. İssad Rebrabın iştirak etdiyi bu təntənəli mərasimdə prezident elan edir ki, 250 milyon avro sərmayə qoyulan bu zavod gələcəkdə 1000 nəfəri işlə təmin edəcək. Qəribədir, deyilmi? Necə deyərlər, heç hənanın yeridir? Birinci Dünya müharibəsi qurbanlarının anım həftəsində, zavod açılışından danışmaq nə dərəcədə təqdirəlayiqdir? 2019-cu ilin yanvarında Emmanuel Makron İssad Rebraba bir də xüsusi hörmət göstərib, onu Versal sarayında keçirilən Choose France sammitinə dəvət edir. Yüz əlli nəfər fransız və xarici iş adamının toplaşdığı bu məclisdə Rebrab bir neçə imtiyaz sahibləri ilə birlikdə prezidentlə bir stol arxasında oturur.... Diplomatik baxımdan Makronun bu hərəkəti çox təəccüb doğurur, çünki hamı bilir ki, milyarderlə indiki Əlcəzair hökuməti arasında münasibət çox soyuqdur.

# Dünya Ermənistanda "kəsişməyəcək"

## İrəvan riyakar təşəbbüslərlə çıxış etməkdənsə, öhdəliyini yerinə yetirməlidir

**(əvvəli 1-ci səhifədə)**

Ancaq qeyd etdiyimiz kimi, Ermənistan iqtidarı üzərinə düşən öhdəliyi yerinə yetirmir. Başqa sözlə desək, baş nazir Nikol Paşinyan öz imzasına hörmət etmir. Əvəzində Ermənistan sürətlə silahlanır. Silah almaq üçün yeni tərəfdaşlar axtarılır. Azərbaycanla şərti sərhədə yerləşdirilmiş Avropa İttifaqının "mülki" adlanan missiyasının müddəti uzadılır, sıraları genişləndirilir. Azərbaycanla sülh danışıqları aparılır, amma rəsmi İrəvan ölkənin konstitusiyasını dəyişdirməkdə maraqlı görünmür. Halbuki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı Müstəqillik bəyannaməsinə istinad var. Bəyannamədə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Bundan əlavə, digər məsələ ATƏT-in Minsk qrupunun ləğvidir. Bu, konsensusla həll edildiyinə görə, formal olaraq onu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Ancaq rəsmi İrəvan Qarabağı Azərbaycan ərazisi kimi tanısa da və münaqişənin başa çatdığını bəyan etsə də, onun həlli üçün yaradılmış Minsk qrupunu ləğv etməkdən yayınır. Burada, necə deyərlər, xoruzun quyruğu görsənir. Başqa sözlə, Ermənistan iqtidarının iç üzü açılır. İrəvanın ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün Azərbaycanla birgə ATƏT-ə müraciət etməkdən yayınması revanşistlərin planlarının kifayət qədər ciddi olduğunu göstərir.




Bununla belə, Paşinyan iqtidarı özünü dünya ictimaiyyətinin gözündə sülhdən imtina edən ölkə kimi göstərməmək üçün Azərbaycanla danışıqlar aparmağı davam etdirir. Paralel olaraq, regionda nəqliyyat kommunikasiyalarının açılmasına dair üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdənsə, müxtəlif mənasız təşəbbüslər irəli sürür. Belə təşəbbüslərdən biri "Dünyanın kəsişməsi" layihəsidir. Ermənistan hökumətinin nəqliyyat-logistika layihəsi kimi təqdim edilən "Dünyanın kəsişməsi" baş nazir N.Paşinyan tərəfindən ilk dəfə 2023-cü il oktyabrın 26–27-də Gürcüstanın paytaxtı Tbilisidə keçirilən IV Beynəlxalq İpək Yolu Forumunda panel sessiyası zamanı təqdim edilib. Paşinyan təqdimat zamanı bildirmişdi ki, "Dünyanın kəsişməsi" layihəsi Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması üçün bir model kimi onun rəhbərlik etdiyi hökumət tərəfindən işlənib hazırlanmışdır. Layihə dövlət müstəqilliyini bərpa etdikdən sonra yürütdüyü təcavüzkarlıq siyasəti üzündən Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı olan Ermənistanın iki qonşu ölkə ilə nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur.

Paşinyan təqdimat zamanı layihənin 4 əsas prinsipini də açıqlamışdı. Birinci prinsipdə qeyd edilir ki, bölgədə bütün infrastruktur, o cümlədən avtomobil yolları, dəmir yolları, hava yolları, boru kəmərləri, kabellər, elektrik xətləri keçdikləri ölkələrin suverenliyi və yurisdiksiyası altında fəaliyyət göstərir. İkinci prinsipdə bildirilir ki, hər bir ölkə öz dövlət orqanları vasitəsilə ərazisində sərhəd və gömrük nəzarətini həyata keçirir, həmçinin malların, nəqliyyat vasitələrinin və insanların təhlükəsizliyi də daxil olmaqla, infrastrukturun təhlükəsizliyini təmin edir. Üçüncü prinsipdə göstərilən infrastrukturun həm beynəlxalq, həm də daxili daşımalarda istifadə edilə biləcəyi vurğulanır. Nəhayət, dördüncü prinsipdə bütün ölkələrin bərabərlik və qarşılıqlılıq əsasında bir-birinin infrastrukturundan istifadə edəcəkləri öz əksini tapıb. Bildirilib ki, bu prinsiplərə uyğun olaraq, sərhəd və gömrük nəzarəti qarşılıqlı razılaşma və müqavilələr yolu ilə asanlaşdırıla bilər.

Əlbəttə, bunlar hamısı gəlişigözəl ifadələrdir. İrəvanın belə sözlərlə beynəlxalq aləmi aldatmağa çalışması isə ilk dəfə deyil. Bəzən "Sülhün kəsişməsi" kimi də tərcümə olunan bu layihə nə dünyanın, nə də sülhün kəsişməsinə xidmət edir. Ermənistan hökumətinin üçtərəfli bəyanatın imzalanmasından 3 il sonra ortaya qoyduğu bu layihədə, əslində, yeni heç nə yoxdur. Qeyd olunan 4 prinsip üçtərəfli bəyanatda əksini tapan müddəaların başqa formada təcəssümüdür. Yaxşı olardı ki, Ermənistanın siyasi rəhbərliyi hansısa layihələr üzərində baş sındırmaqdansa, öz imzasına hörmətlə yanaşsın və üzərinə düşən öhdəliyi icra etsin. Necə deyərlər, velosipedi yenidən icad etməyə ehtiyac yoxdur.

Qeyd edək ki, Ermənistan tərəfinin irəli sürdüyü bu layihəyə Prezident İlham Əliyev də münasibətini açıqlamışdır. 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı bu barədə demişdir: "Hesab edirəm ki, bu, sadəcə olaraq, piar aksiyadır. Çünki Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi" sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, – Şimal–Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq–Qərb dəhlizi var, – amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil".

Prezident İlham Əliyev qeyd etmişdir ki, onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər: "Bu, onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı, digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni, bu, çox ədalətli mövqedir".

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq İlyas Hüseynov** bildirdi ki, əslində, regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı müzakirələr İkinci Qarabağ müharibəsindən öncə də gedirdi. Onun sözlərinə görə, əgər Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı olmasaydı, biz bu gün regionda tamamilə başqa mənzərənin şahidi olardıq. Yaxud, Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə, yəni danışıqların aparıldığı illərdə İrəvan işğalçılıq siyasətindən əl çəksəydi, region hazırda inkişafın daha üstün səviyyəsində olardı. Bütün bunların baş verməməsinin təqsirkarı Ermənistandır: "Azərbaycan,



Türkiyə və Gürcüstan torpaqları hesabına ərazilərini genişləndirmək arzusu, "dənizdən dənizə böyük Ermənistan" qurmaq istəyi hayların xəstə ideologiyasının nəticəsidir. Vətən müharibəsinin sonunda ağır şərtlər altında təslimolma aktına imza atan Ermənistan rəhbərliyi xarici havadarlarının köməyi ilə ötən 4 il ərzində siyasi-diplomatik sahədə yalnız vaxt uzatmaqla məşğuldur və məsələnin mahiyyətindən kənar bir sıra ideyalar irəli sürür. Belə ideyalardan biri "Dünyanın kəsişməsi" layhəsidir".

Politoloq qeyd etdi ki, kommunikasiya xətlərinin açılması bir zamanlar mövcud olmuş avtomobil və dəmir yolu xətti üzrə əlaqələrin bərpa olunmasını nəzərdə tutur: "Yəni, SSRİ dövründə tam işlək vəziyyətdə olan Ağbənd–Mehri–Culfa dəmir yolunun bərpası və avtomobil yolunun çəkilməsi bu prosesin mühüm elementidir. Digər tərəfdən, Ermənistan bu bölgəyə kənar geosiyasi aktorları dəvət etməklə məsələyə beynəlxalq xarakter verməyə çalışır. Avropa İttifaqının mülki missiyasının bölgəyə yerləşdirilməsi və Brüsselin Ermənistandakı maraqları, İranın Qərbi Zəngəzurun inzibati mərkəzi Qafanda baş konsulluq açması, Fransanın İrəvanı himayə etməsi və silahlandırması, ABŞ-ın Rusiya ilə qarşıdurma şəraitində Zəngəzur dəhlizinin gələcəyi ilə bağlı ambisiyaları vəziyyəti çıxılmaz duruma saldı. Rusiya tərəfi isə dəhlizin təhlükəsizliyini Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarının təmin etməsini istəyir. Bu, üçtərəfli bəyanatda öz əksini tapıb. ABŞ isə bunu inkar edir və istəmir. Ermənistan özü də dəhliz ideyasını yaxına buraxmır. Azərbaycan və Türkiyə isə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkilində maraqlıdırlar. Ermənistan bununla bağlı öz üzərinə öhdəlik götürüb. Əsas məsələ bundan ibarətdir ki, İrəvan bundan boyun qaçırır, bunu mübahisələndirir və təkzib edir".

Müsahibimiz dedi ki, rəsmi İrəvan paralel olaraq, gah "Dünyanın kəsişməsi", gah da "Sülhün kəsişməsi" adlanan müxtəlif layihələr irəli sürür. Bundan öncəki təşəbbüs isə tamamilə absurd idi. Belə bir vəziyyət formalaşırdı ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında əlaqəni təmin etmək üçün Ermənistan ərazisini gəzib dolaşmaq, onun sərhədini iki dəfə keçmək, iki dəfə dövrə vurmaq lazımdır: "Digər tərəfdən burada İranın da öz maraqları var və bu səbəbdən Tehran dəhlizin açılmasına qarşı çıxır. Hətta, onlar Ermənistana nəyin doğru, nəyin səhv olduğunu izah etməyə çalışırlar. Guya, prosesi Ermənistanın maraqları müstəvisində nəzərdən keçirirlər, amma, əlbəttə ki, cənub qonşularımız burada öz maraqlarını güdürlər. İran şərti olaraq, Araz dəhlizi adlanan dəhlizin həyata keçməsində maraqlıdır. İran Naxçıvana Ermənistan ərazisindən yan keçməklə – Araz çayı üzərindən körpülər tikmək vasitəsilə dəhliz təqdim edir".

İ.Hüseynovun sözlərinə görə, məsələ o qədər gərgin, o qədər ziddiyyətli mərhələyə qədəm qoyub ki, tərəflər dəhlizin açılması ilə bağlı məsələni sülh müqaviləsindən kənarda saxlamağa qərar veriblər. Hazırda Ermənistan və Azərbaycan arasında müzakirə olunan sülh müqaviləsində dəhlizlə, kommunikasiya xətlərinin açılması ilə bağlı bir kəlmə belə yoxdur. Bu məsələnin danışıqların predmeti olmaqdan kənarda qalmasının əsl təqsirkarı Ermənistandır. Belə bir vəziyyətdə İrəvanın "Dünyanın kəsişməsi" adlı layihə ilə çıxış etməsi tamamilə absurd və məntiqdən kənardır.

***Səxavət HƏMİD***
***XQ***

# Koreya səfiri XİN-də



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının səfiri Li İn-Yonqu ölkəmizdəki diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul edib. Görüş zamanı Azərbaycan-Koreya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi müzakirə olunub.**

Ceyhun Bayramov səfir Li İn-Yonqa ölkəmizdə diplomatik fəaliyyəti müddətində göstərdiyi səylərə görə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 ildən artıq müddət ərzində iqtisadiyyat, investisiyalar, nəqliyyat-kommunikasiyalar, humanitar, təhsil, dövlət xidmətləri və sair istiqamətlər üzrə əməkdaşlığın mövcud vəziyyətinin müzakirə edildiyi görüş zamanı, həmçinin əlaqələrimizin inkişaf perspektivlərinin mövcudluğu vurğulanıb.

Səfir Li İn-Yonq ölkəmizdə fəaliyyəti müddətində göstərilən dəstək və əməkdaşlığa görə təşəkkür edib, Azərbaycan-Koreya münasibətlərinin gələcək inkişafına ümidvar olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Yeni ildə MDB-nin Gənclər Paytaxtı Qəbələ olacaq

**Özbəkistan Gənclər İttifaqı və Gənclərin İşləri üzrə Agentliyin təşkilatçılığı ilə Daşkənd şəhərindəki Gənclərin Yaradıcılıq Sarayında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Gənclərin işləri üzrə Şurasının növbəti iclası keçirilib.**



Məclisdə MDB-nin üzvü olan ölkələrin Gənclər Paytaxtı Beynəlxalq layihəsinin əsasnaməsinə əsasən Qəbələ şəhərinin 2025-ci ildə MDB-nin Gənclər Paytaxtı olması barədə məlumat verilib və bununla bağlı sertifikat Azərbaycan Gənclər və İdman Nazirliyinin nümayəndəsi Rauf Əliyevə və Qəbələ şəhər icra hakimiyyətinin nümayəndəsi Tahir Əlimirzəyevə təqdim edilib.

Yığıncaqda Gənclər və İdman Nazirliyinin gənclərdən ibarət heyəti də iştirak edib.

Xatırladırıq ki, bu il MDB-nin Gənclər paytaxtı Daşkənd şəhəri olub. Ötən ilin yanında isə MDB Hökumət Başçıları Şurasının Daşkənddə keçirilən iclasında Qəbələ şəhəri 2025-ci ildə MDB-nin Gənclər Paytaxtı elan edilmişdi.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**

**Replika**

# Makro-xarakteristika: qapalı və hiyləgər

**Fransızlar, doğrudan da, qəribə millətdir. Belə məlum olur ki, onlar üçün istənilən xarakterli macəra, hətta siyasi xarakterli olsa belə, çox maraqlıdır. Onlardan ötrü məsxərə və gülüş obyektinin sıravi vətəndaşın, yaxud dövlət başçısının olmasının da fərqi yox imiş. Ölkənin sabiq dövlət başçısı Fransua Ollandın şübhəli fotoşəkillərə görə hansı duruma düşdüyünü xatırlatmaq kifayətdir ki, baməzə fransızlara lap yaxından bələd olasan. On il bundan əvvəl Ollandın Parisin 8-ci rayonunda skuter sürməsini, aktrisa Julie Gayet ilə gizli görüşə hazırlaşmasını o zaman Yelisey sarayının baş katibinin müavini olan Emmanuel Makron da izləyib. Yəni ölkənin birinci şəxsinin imicinin "daxili partlayışa" məruz qalmasının canlı şahidi olib. Deyəsən, indi prezident Emmanuel Makronun özü buna bənzər aqibətlə üzləşməyin narahatlığını yaşamaqdadır. O, medianın obyektivinə tuş gəlib…**

Bu barədə Fransanın nüfuzlu nəşrlərindən biri – "Le Monde" məqalə dərc edib. Müəllif yazır ki, Makron Ollandın taleyini təkarlamamaq üçün özəl həyatı ilə bağlı hər şeyi yeddi pərdə arxasında saxlamağa çalışır. Məqalədə oxuyuruq: "İndi ən yaxın çevrəsinin ölkə başçısının hərəkət və davranışlarını xarakterizə etmək üçün işlətdiyi epitetlər bunlardır: "hiper qapalı", "ehtiyatlı və hiyləgər", "sirli persona", "son dərəcə paranoik". Qəzet yazır ki, Makronun on il əvvəlki qalmaqaldan çıxardığı nəticə Fransua Ollandın ehtiyatsız davranması və kifayət dərəcədə qorunmaması ilə bağlıdır.

Makronun şəxsi həyatı ətrafında gizlilik atmosferi yaratmaq ehtiyacını gücləndirən digər hadisə 2017-ci ildə seçki kampaniyası zamanı, o vaxt iddia edildiyi kimi, "rus xakerləri" tərəfindən komandasının elektron ünvanlarının sındırılması ilə bağlıdır. Doğrudur, bu, onun seçkini udmasına əngəl törətməsə də, bunun ardınca arvadı Bricit ilə münasibətləri kontekstində aldığı zərbələrdən Makron xeyli əziyyət çəkməli olmuşdu. Qəzet yazır ki, məhz o dönəmdən etibarən Yelisey sarayında həyat həmişəkindən daha sirli və qapalı davam edir. Olland qalmaqalını unutmayan Makron şübhəli imicə malik ünvanlardan yan keçir, adətən, Parisin səkkizinci deyil, VI, VII və XV rayonlarındakı adi restoranlara gedir. O, özünə zalın sonunda masa seçir, arxasını divara söykəyərək mühafizəçilərin nəzarəti altında nahar edir.

Bundan başqa, kənardakı hərəkət və davranışı ilə bağlı məlumatların Daxili İşlər Nazirliyinə ötürülməsini məhdudlaşdıran Makron Yelisey sarayında keçirilən qapalı görüşlərdə daha geniş və lüzumsuz açıqlamalardan yayınır. Prezident administrasiyasının əməkdaşları Makronu "gözdən sala biləcək" araşdırmalar aparan media qurumlarını və jurnalistləri ləkələməyə, onları şantaj etməyə çalışırlar. "Le Monde" iddia edir ki, çinovniklər sosial şəbəkələrdə belələrinə qarşı mütəşəkkil kampaniyalar təşkil edirlər. Nəşr prezident ofisinin rəhbəri Patris Fordurun Makrona qarşı media hücumlarına nəzarət etmək üçün mütəmadi olaraq Təhlükəsizlik Departamentini toplayır.

Makronun özünəməxsus hiyləgər üsullarla ətrafından gizlənməsi, qapalı həyat keçirməyə çalışması barədə yazan təkcə "Le Monde" deyil. Bu cəbhədə vaxtilə müsyö prezidenti göylərə qaldıran "Le Fiqaro" da hərdən yer alır. Bir müddət bundan əvvəl bu qəzet bizim üçün birbaşa maraq kəsb edən mövzunu qabardıb. Nəşr Yelisey sarayının "Qarabağ planı"nın iflasa uğramasına görə məhz prezident Emmanuel Makronun təqsirkar olduğunu bəyan edib. Diqqətli oxucuların xatirində olar. 2022-ci ilin lap sonlarında Fransa və Ermənistanın bizim ekofəalların Laçın–Xankəndi yolundakı dinc etiraz aksiyasını bəhanə edərək Azərbaycana qarşı başlatdıqları "ideoloji-dez" hücumunun iflasa uğraması kiçik hadisə deyildi. İki il əvvəl "cüt bacılar" riyakarcasına ictimai rəyi azdıraraq hayların torpaqlarımızda ekosidinə qarşı dinc aksiyanı Xankəndidəki xunta rejimini, Bakının, guya, "blokada"ya almaq, "humanitar fəlakət yaratmaq planı" kimi qələmə verməyə çalışırdılar. Hətta buna görə BMT Təhlükəsizlik Şurasının iclasını çağırmışdılar. Fəqət, Fransanın təkəbbürlü lideri BMT TŞ-da məlum bəyannaməni qəbul etdirəcəyinə, sonra onu qətnaməyə çevirə biləcəyinə əmin olsa da, istədiyi olmadı. Yelisey sarayının məkrli planlarından birini həmin "Le Fiqaro" ifşa etmişdi. Çünki burada qapalı və gizli saxlanması mümkün olmayan gerçəklik üzə durmuşdu.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ iqtisadi rayonundakı separatçı-terrorçu rejimin, qanunsuz erməni silahlıların tərksilah edilməsi, onların sığındığı "boz zona"nın ləğv olunması üçün lokal antiterror tədbirinə vaxtında qərar verməklə suverenliyimizi bərpa etdi. Bunu yaxşı anlayan Fransız qəzeti Makronun qurduğu hiyləgər oyunun acı aqibətinin obyektiv səbəblərini açıqlamışdı. Onsuz da bədniyyətli planlar gizli şəxsi əlaqələr kimi, gec-tez faş olur.

Əslində, bu çılpaq həqiqəti Yelisey sarayındakılardan daha əvvəl Ermənistan rəhbərliyi başa düşməli idi. Rəsmi İrəvan, nəhayət, anlamalıdır ki, soydaşlarının paranoik dedikləri Makronun geosiyasi oyunları, hiyləgər gedişləri yalnız Fransanın öz maraqlarına xidmət edir. Haylar qurtuluşu kənardan sifariş verilən havalara oynamaqda deyil, qonşusu ilə sülhə gəlməkdə axtarmalıdırlar.

***İ.HƏSƏNQALA***
***XQ***

# Sağlam rəqabət bolluq və keyfiyyət amilidir



**Keçən ilin dekabr ayında Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi Milli Məclisdə üçüncü oxunuşda qəbul edilib. Bu il yanvarın 23-də isə Prezident İlham Əliyev Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Qanunu təsdiqləyib.**

Ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm önəm daşıyan bu sənəd ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarının müəyyənləşdirilməsinə əlverişli imkan yaradıb. Bununla yanaşı, istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını özündə ehtiva edən Rəqabət Məcəlləsi ölkədə azad sahibkarlığın inkişafını, iqtisadiyyatda inhisarçılığın tamamilə aradan qaldırılması və süni maneələrin götürülməsini sürətləndirib.

Cari ilin yanvar–oktyabr aylarında ölkəmizdə Rəqabət Məcəlləsinin tətbiqi ilə bazar subyektlərinin maneəsiz və səmərəli fəaliyyətinin təmin edilməsi, liberal bazar münasibətlərinin inkişafının dəstəklənməsi, o cümlədən ölkədə rəqabət siyasətinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən məlumat verilib.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində cari ilin 11 ayı ərzində Rəqabət Məcəlləsi əsasında rəqabət problemlərinə dair səmərəli tənzimləmə mexanizmlərinin tətbiqi, bazarlarda rəqabətli mühitin təmin edilməsi ilə azad sahibkarlığın təşviqi və iqtisadi səmərəliliyin artırılmasına yönələn bir sıra tədbirlər həyata keçirilib. Bu barədə XQ-yə adıçəkilən dövlət xidmətindən məlumat verilib.

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən hazırlanmış məlumatında bildirilir ki, bu müddətdə rəqabət intizamının qorunması və inhisarçı davranışlarla mübarizə istiqamətində bazarda hökmran mövqe və nisbətən yüksək bazar gücündən sui-istifadə hərəkətləri ilə rəqabətin məhdudlaşdırılmasına yol verilməsi üzrə, ümumilikdə, 153 müraciətə baxılıb, onlardan 89-u təmin olunub. Baxılmış müraciətlərin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfəyədək artım müşahidə edilib.

Bundan əlavə, hesabat dövründə iqtisadi təmərküzləşmə əməliyyatları üzrə 72 müraciətə (2023-cü ilin yanvar–noyabr ayları ilə müqayisədə 3 dəfəyədək artım) baxılıb. Baxılmış müraciətlərdən 40-ı təmin olunub. Rəqabət qanunvericiliyinə riayət olunmasına nəzarət üzrə baxılmış digər müraciətlərin sayı isə 52 olub və onlardan 32-si təmin edilib.

Ötən dövrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə çalışan, bununla da rəqiblərinə zərər vura bilən bazar subyektlərinin hərəkətlərinin qarşısının alınması istiqamətində tənzimləyici tədbirlər həyata keçirilib.

11 ay ərzində qanunsuz reklamların yayımı ilə əlaqədar baxılmış müraciətlər üzrə ötən illə müqayisədə 29,4 faiz artım qeydə alınıb. Belə ki, baxılmış 110 müraciətin 59-u təmin olunub. Keçən ilin analoji dövrü ilə müqayisədə təminolunma səviyyəsində 44 faiz artım müşahidə edilib. Mal və xidmətlərdən istifadə edərkən istehlakçı seçimlərini stimullaşdıran reklam fəaliyyəti üzrə həyata keçirilən tədbirlər çərçivəsində alkoqollu içkilər, ət məhsulları, tütün və tütün məmulatları, körpələr və erkən yaşlı uşaqlar üçün süni qida məhsulları, nəqliyyat vasitələri, bank, kredit, təhsil, logistika, karqo və ictimai iaşə xidmətləri sahəsində, ümumilikdə, 29 bazar subyekti tərəfindən reklam qanunvericiliyinin tələblərinin pozulması halları müəyyənləşdirilib. Aşkarlanan pozuntular görülmüş tədbirlər nəticəsində könüllü aradan qaldırılıb.

Bu dövrdə adı çəkilən dövlət xidmətində pozuntu hallarının qarşısının alınması və rəqabət tənzimləmələri istiqamətində bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi barədə 149 müraciətə baxılıb, 106 qanunamüvafiq izahat verilib, 26 müraciət gerçəkləşdirilib. Digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri üzrə dövlət xidmətinə daxil olmuş müraciətlər zamanı görülən tədbirlər nəticəsində 26 bazar subyekti tərəfindən neqativ hallar könüllü aradan qaldırılıb.

Cari ilin yanvar–noyabr aylarında müştərilər və biznes subyektlərinin qanuni mənafelərinə mənfi təsir göstərə bilən davranışlarının qarşısının alınması və aradan qaldırılması, şəffaf və rəqabətə əsaslanan münasibətlərin gücləndirilməsi istiqamətində təbii inhisar subyektlərinin fəaliyyətinə nəzarət tədbirlərinin görülməsi də diqqətdə saxlanılıb.

Analoji dövrdə təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar baxılmış müraciətlər üzrə 36,5 faiz artım qeydə alınıb. Belə ki, baxılmış 1275 müraciətin 354-ü təmin olunub. 2023-cü ilin yanvar–noyabr ayları ilə müqayisədə təmin olunan müraciətlərin sayı 63,1faiz artıb. Bundan əlavə, sözügedən sahə üzrə 615 qanunamüvafiq izahat və tövsiyə verilib, 42-si baxılması üçün aidiyyəti orqana göndərilib, 126 halda rəy və təklif verilib, 3 halda aidiyyəti üzrə müraciət etmələri tövsiyə olunub, 2 halda zəruri sənədlər təqdim edilmədiyindən baxılması dayandırılıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamı ilə yaradılıb. Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət İşçi qrupuna rəhbərliyi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir.

# Ağdam Sənaye Parkının yeni rezidenti

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, "Met Invest" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Bununla da, parkda rezidentlərin sayı 29-a yüksəlib.**

Şirkət illik istehsal gücü 144 min ton olan armatur, künclük və polad məftil istehsalı zavodu inşa edəcək. İnvestisiya dəyəri 18 milyon manat olan müəssisədə 150 nəfərlik daimi iş yeri yaradılacaq. Müəssisədə Avropa, Türkiyə, Çin texnologiyalarından istifadə ediləcək və məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da həyata keçiriləcək.



Xatırladaq ki, Ağdam Sənaye Parkında "Met Invest" MMC-dən əvvəl ümumi investisiyalarının həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye parkında, ümumilikdə, 2 min 300-ə yaxın iş yerinin yaradılması nəzərdə tutulub. Ötən müddətdə bu sənaye zonasına 92 milyon manatdan çox investisiya yatırılıb. Bunun hesabına parkın ərazisində fəaliyyətə başlamış 9 müəssisədə 370-dən artıq daimi iş yeri yaradılıb.

Qeyd edək ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır. Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlərin tətbiqi diqqətdə saxlanılıb. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilir. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunur.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir.

# Neft Fondunun gəlirləri 15 milyard dolları ötüb



**Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik konfransında çıxış edən ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədov qurumun ötən 25 ildə keçdiyi inkişaf yolundan, əldə olunan mühüm uğurlardan və gələcək planlardan söz açıb.**

Bildirib ki, 1999-cu ildə əsası qoyulan fondun hazırkı vəsaitləri 60 milyard ABŞ dollarını keçərək ölkə iqtisadiyyatının, təxminən, 80 faizinə bərabər olub. Bununla yanaşı, qurumun vəsaitlərinin idarə edilməsindən əldə olunan gəlirlər artıq 15 milyard ABŞ dollarını ötüb.

Bu rəqəmlər ARDNF-in uğurlu fəaliyyət modelinə, strateji yanaşmasına və beynəlxalq standartlara əsaslanan risk idarəetmə mexanizminə söykənən investisiya siyasətinə dəlalət edir. Fond təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi müstəvidə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir.

Qeyd edək ki, ARDNF yaradıldığı gündən bəri həm möhkəm təməlləri, həm də çevik idarəetmə yanaşması ilə ölkənin iqtisadi dayanıqlılığını təmin etməkdə mühüm rol oynayır. Prezident İlham Əliyevin dəstəyi ilə fond bu gün indiki və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas iqtisadi sütunlardan biri kimi fəaliyyətini uğurla davam etdirir.

# "Elektron icazə" ilə ilk yükdaşıma

**Türkiyə ilə Azərbaycan arasında "İcazə" blanklarının elektron şəkildə mübadiləsinə və verilməsinə imkan verən "E-Permit" sisteminin yaradılması və inteqrasiya işləri uğurla yekunlaşıb.**



Dövlət Gömrük Komitəsindən XQ-yə bildirilib ki, layihənin icrası çərçivəsində ölkələrimiz arasında ikitərəfli yükdaşımalarda elektron icazənin tətbiqinə başlanılıb və ilk sınaq daşınmaları yerinə yetirilib. Elektron icazənin tətbiqi ilə Türkiyə daşıyıcı şirkətinə məxsus ilk yük avtomobili artıq Azərbaycana çatıb. Elektron "İcazə" blankı alan, Azərbaycandan yola düşən ilk yük avtomobili də Türkiyə ərazisinə daxil olub.

İcazələrin elektronlaşdırılması gömrük prosedurlarını əsaslı dərəcədə sadələşdirir. Əldə olunan inteqrasiya ilə Türkiyə tərəfindən verilən elektron icazə blankları və icazənin verildiyi yük nəqliyyat vasitələri haqqında məlumatlar real vaxt rejimində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin informasiya sistemi vasitəsilə Dövlət Gömrük Komitəsinin VAİS sisteminə ötürülür. Dövlət sərhədindən buraxılış məntəqəsinə yaxınlaşan yükün nəqliyyat vasitələrinin icazə blankının qeydiyyatı ilə bağlı əlavə vaxt itkisinə yol verilmədən ölkə ərazisinə girişi təmin edilir.

# Şuşanın su şəbəkəsi yenidən qurulur

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına əsasən, Daşaltı kəndi yaxınlığında Zarıslıçayın məcrasında 25 min kubmetr tutuma malik sutoplayıcı anbar, nasos stansiyası və 2,9 kilometr uzunluğunda su kəməri inşa edilib. Bundan əlavə, Kiçik Kirs–Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi yeni borularla əvəz olunub.**



Görülən işlər nəticəsində yeni mənbədən şəhərə verilən su vasitəsilə dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib. Bildirilib ki, Şuşaya su iki əsas mənbədən – Zarıslıçay və Kiçik Kirsdən daxil olur. Zarıslıçay mənbəyində aparılan yenidənqurma işləri çərçivəsində bənd tikilib və nasos stansiyası quraşdırılıb.

Məlumatda, həmçinin bildirilib ki, mövcud sutəmizləyici qurğunun məhsuldarlığı artırılıb və bu məqsədlə 12 ədəd qum süzgəci, daxili kommunikasiya xətləri, reagent təsərrüfatı və digər avadanlıqlar tamamilə bərpa olunub. Qurğunun gündəlik emal gücü 2 min kubmetrdən 5 min kubmetrə çatdırılıb. Həmçinin, ümumi həcmi 6 min kubmetr olan 3 su anbarından birinin tikintisi yekunlaşdırılıb. Bununla yanaşı, Vətən müharibəsindən sonra erməni işğalı zamanı ziyan çəkən "Xan qızı" bulağı bərpa edilərək sakinlərin və qonaqların istifadəsinə verilib.

Hazırlanan perspektiv plana əsasən, Şuşa şəhərinin su təchizatı və kanalizasiya sistemləri genişləndiriləcək. Layihə çərçivəsində 24 kilometrlik magistral su kəməri, 44 kilometrlik içməli su, 42 kilometrlik tullantı və 41 kilometrlik yağış su şəbəkələri inşa ediləcək. Bundan əlavə, sutkada 8 min kubmetr tullantı suyu tam təmizlənərək ekoloji mühitə zərər vermədən Qarqar çayına axıdan qurğu tikiləcək. Şuşa şəhərində su təchizatı SCADA sistemi vasitəsilə onlayn rejimdə idarə olunacaq. Bu sistem suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsinin monitorinqi və digər hidravlik prosesləri əhatə edəcək. Görülən işlər Şuşa şəhərinin uzunmüddətli inkişafını təmin etməklə yanaşı, sakinlərin sosial şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.



# Sığorta bazarı 10 faiz böyüyüb

**Mərkəzi Bankın məlumatına görə, bu ilin yanvar–noyabr aylarında Azərbaycandakı 17 sığorta şirkətinin xətti ilə 1 milyard 222 milyon manat sığorta haqqı (ötən ilin eyni dövrünə nisbətən 10,3 faiz çox) toplanılıb.**

Bildirilib ki, hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği 694 milyon manat (illik müqayisədə 39,5 faiz çox) təşkil edib.

11 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 56,8 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 44,9 manat olub.

# Dövlət satınalmaları elektronlaşdırılıb

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli "X" sosial şəbəkəsindəki hesabında Azərbaycanda dövlət satınalmalarının elektronlaşdırılması hesabına qənaətin 14 faiz artaraq 559,7 milyon manata çatdığını bildirib.**



Onun sözlərinə görə, 11 ay ərzində elektron açıq tenderlər vasitəsilə büdcəyə 532,3 milyon manat (1 il əvvələ nisbətən 10,4 faiz çox) qənaət edilib. Kotirovka üsulu ilə qənaət edilən məbləğ isə illik müqayisədə 3 dəfədən çox artaraq 27,4 milyon manata yüksəlib.

Bu göstərici adıçəkilən dövlət xidmətinin sahibkarlar üçün həyata keçirdiyi kompleks maarifləndirmə tədbirlərinin və nəzarət mexanizmlərinin gücləndirilməsi nəticəsində əldə olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Günün sualı

# “Zorən təbib”lik nədən qaynaqlanır?

## *İxtisas dəyişmək üçün həkim rezidentura keçməlidir*

**Azərbaycanda estetik cərrahiyyə və kosmetologiya sahəsində sirli düyünlər 2024-cü ilin sonunda açılmağa başladı. Aydın oldu ki, bu sferada fəaliyyət göstərənlərin bir çoxunun müvafiq təhsili və icazəsi yoxdur, bir çox estetik cərrahların sertifikatları ya saxtadır, ya da hansısa qaranlıq yolla əldə edilib. Sosial şəbəkələrdə doktor-bloger Günel Əzizovanın ixtisası olmadığı halda əməliyyatlar etməsi, plastik cərrah Ülviyyə İlyasovanın uğursuz əməliyyatları ilə bağlı qalmaqal baş verdiyi paylaşılıb. Bundan sonra saxta sertifikat alıb plastik və ginekoloji əməliyyatlar edən həkimlərlə bağlı araşdırmaların aparılması haqda çağırışlar olub.**

Artıq aidiyyəti qurumlar saxta sertifikatlı həkimlər və onları sertifikasiyadan keçirən qurumun məsul şəxsləri ilə bağlı işi nəzarətə götürüblər. Həmçinin həkimlərin ixtisaslarının dəyişdirilməsi, onlara sertifikatlar verilməsi məsələsində xeyli qanun pozuntularının üzə çıxdığı deyilir. O da bildirilir ki, yaxın vaxtlarda plastik cərrahiyyə sahəsində sertifikatlaşdırma qaydaları sərtləşdiriləcək.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Elşad Hacıyev televiziyada çıxışı zamanı diplomsuz plastik cərrahların fəaliyyətinə toxunub. Bildirib ki, dövlət bu məsələni diqqətdə saxlayır və qanunsuz fəaliyyətlə məşğul olan şəxslər barədə araşdırmalar aparılır.

Maraqlıdır, bu sahədə qanunsuzluğun baş alıb getməsinin səbəbləri nədir? İxtisasını dəyişib sonradan plastik cərraha çevrilən həkimlərin əlində bayraq etdikləri kurslardan verilən sənədlərin, sertifikatların hüquqi qüvvəsi varmı, onlar hansı əsaslarla verilir?

Bu suallarla bağlı sahəyə cavabdeh olan qurumlardan mövzu ilə bağlı açıqlamalar aldıq.

Öncə qeyd edək ki, test imtahanlarında 500–600-dən yuxarı bal toplayan, həkim olmaq istəyən abituriyentlər 6 il ATU-da tibbi biliklərə yiyələnirlər. Lakin bu, hələ onların tam ixtisas sahibi olması anlamına gəlmir. Eləcə də ATU-nu bitirməklə estetik cərrah kimi fəaliyyət göstərmək mümkün deyil.

İxtisas dəyişmək olar, amma bu, qanun çərçivəsində edilməlidir. Sovet dövründə Tibb İnstitutunu bitirənləri məcburi ixtisasa göndərmə qaydası vardı. Məzunlar dövlət xəstəxanalarında 6 illik təhsildən sonra seçilən ixtisas üzrə 1 il internaturada olurdular. Həm təcrübə keçir, həm ştatdankənar maaş alırdılar. Yəni ATU ümumi təbabət haqda bilik verir, diplomda praktiki həkim yazılır, ixtisas yazılmır.

İndi isə tələbə Tibb Universitetini bitirdikdən sonra rezidenturaya imtahan verib ixtisasdan asılı olaraq, 3 ildən 5 ilə kimi təhsil almalıdır. Ondan sonra o, ixtisaslı həkim – yəni Türkiyədə deyildiyi kimi, uzman olur. Bəzən yanlış olaraq düşünülür ki, uzman ancaq Türkiyədə olmaq mümkündür. ATU-nun rezidenturası məhz elə bu uzmanlıqdır. Sadəcə, bizdə başqa cür səslənir. Rezidentura təhsili almayan həkimlər yalnız poliklinikada, tibb məntəqəsində, məktəbdə və s. yerlərdə işləyə, sahə həkimi ola bilərlər. Plastik cərrahlarla bağlı məlum siyahıda adları çəkilən həkimlərin rezidentura bitirib-bitirməməsi, həqiqi ixtisası, hansı əsaslarla işləməsi dövlət qurumları tərəfindən yoxlanılmalıdır. Görünür, bu sahədə bir boşluq var. Belə “həkimlər” adətən, özəl klinikalarda sərbəst işləyə bilir, çünki arayıb-araşdıran yoxdur.

Estetik cərrahlarla bağlı qalmaqalda adı çəkilən qurumlardan biri Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutudur. Bu təhsil ocağı həkim hazırlığında ATU-dan sonra ikinci yer tutur və daha çox ixtisaslı həkimlər, alimlər yetişdirir. İnstitutun dosenti, tibb üzrə fəlsəfə doktoru Akif Əfəndiyevlə söhbətimizdə Azərbaycanda




plastik cərrah olmaq üçün nələr tələb olunduğundan danışdıq.

**– Doktor, kimlər plastik cərrah ola bilər?**

– Bu ixtisası nə Səhiyyə Nazirliyi, nə TƏBİB, nə də Həkimləri Təkmilləşdirmə İnstitutu verir. Vaxtilə Təkmilləşdirmə İnstitutunda müəyyən kurslarla ixtisas dəyişmək olurdu, indi isə qanunla bu, mümkün deyil. Rezidentura keçəndən sonra öz ixtisası daxilində daha dar ixtisaslar üzrə təkmilləşmək mexanizmi bizdə hələ yoxdur. Türkiyədə buna yandal uzmanlıq deyilir. Məsələn, ümumi cərrah onu keçib plastik cərrah ola bilər, endokrinoloq əməliyyat edə bilər və s. Bu, daha üst səviyyədir. Azərbaycanda hələ bu tətbiq olunmur. SSRİ dövründə, eləcə də müstəqilliyin ilk vaxtlarında Tibb Universitetinin müalicə işi fakultəsini bitirən tələbələr 3 ixtisas qrupuna bölünürdülər. Bunlar terapevtlər, cərrahlar və ginekoloqlar idi. Cərrahlar 1 illik internatura keçirdilər. Bundan sonra müəyyən cərrahi ixtisaslar üzrə bölünürdülər. O dövrdə plastik cərrahiyyə yox idi. Ona görə də o tələbələr uroloq cərrah, ümumi cərrah, LOR cərrah olurdular.



Azərbaycan müstəqillik qazandıqdan sonra, 2000-ci ilə kimi məhz bu cərrahlar Həkimləri Təkmilləşdirmə İnstitutunda 3–6 aylıq kurs keçib, ixtisasını artırıb, plastik əməliyyat edə bilirdilər. Ona görə bir çox yaşlı cərrahlar var ki, onların belə bir sənədi, icazəsi var və işləmələri qanunidir.

2011-ci ildən, Azərbaycan Tibb Universitetində və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda plastik cərrahiyyə ixtisası üzrə rezidentura çərçivəsində həkim kadrların hazırlığına başlanılıb. Müvafiq qanuna əsasən, rezidenturada plastik cərrahiyyə ixtisası üzrə təhsilin müddəti 5 il müəyyən edilib.

Plastik cərrahiyyə ixtisası ilə məşğul olmaq hüququnu ali təhsilli həkim plastik cərrahlar əldə edirlər.

Xaricdə təhsil alan və plastik cərrahiyyə üzrə rezidenturanı bitirən həkimlər Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən, öncə Təhsil Nazirliyində diplomun akademik ekvivalentliyi və Səhiyyə Nazirliyində peşə ekvivalentliyi təsdiq edildikdən sonra praktik cərrahiyyə üzrə peşə fəaliyyətlərinə davam edə bilərlər. Həmçinin bu mütəxəssislər praktik tibb fəaliyyətlə məşğul olduqlarından, beş ildə bir dəfə sertifikasiyaya cəlb edilirlər.

Nazirlər Kabineti 18 mart 2010-cu ildə “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nı təsdiq etdikdən sonra hansısa həkimin kurs bitirməklə plastik cərrah olmasına rəsmən qadağa qoyulub. Hazırda ATU-nu bitirən tələbə yenidən imtahan verib rezidenturaya qəbul oluna və seçdiyi ixtisas üzrə daha 4–5 il oxuyub cərrah ola bilər. Yəni plastik cərrah diplomu rezidenturanı uğurla bitirənlərə verirlər. 2011-ci ildən sonra heç bir həkim plastik cərrah diplomunu kurs bitirməklə ala bilmir.

**– Nevroloq, endokrinoloq, terapevt hansı şərtlər daxilində estetik cərrah ola bilər?**

– Bu o halda mümkündür ki, həmin şəxs də yenidən rezidenturaya imtahan verir, 4–5 il oxuyub həmin ixtisas üzrə həkim olur. ATU-nu bitirən hər kəsin hüququ var ki, lap 50 yaşa kimi yenidən rezidentura təhsili alıb cərrah və ya başqa ixtisasda uzman olsun. Heç bir həkim, xüsusən də nevroloq, endokrinoloq Həkimlərin Təkmilləşdirmə İnstitutunda kurs keçib sertifikat almaqla estetik cərrah ola bilməz. Bu kurslar yalnız plastik cərrahlar üçündür, ora hər həkim də gələ bilməz. Bunlar qanunauyğun aparılır.

**– Plastik cərrah olmağın qanuni yolları hansıdır?**

– Həkimləri Təkmilləşdirmə İnstitutunda plastik cərrahlar üçün 10 günlük qısa kurslar təşkil edilir. Bu kurslarda yeniliklər çatdırılır, fikir mübadiləsi aparılır və onlar sertifikasiya imtahanlarına hazırlaşırlar. Həmin kurslarda qeyri-həkimlər iştirak edə bilməzlər. 2011-ci ildən sonra plastik cərrah olmaq üçün yeganə yol 5 illik rezidenturanı oxuyub imtahan verib sənəd almaqdır. Bu o deməkdir ki, ixtisa sahib olmaq üçün Azərbaycanda 11 il təhsil almaq lazımdır.

Yəni plastik cərrah olmaq üçün bizdə başqa heç bir kurs yoxdur. İxtisası 1 aya, 1 ilə dəyişmək mümkün deyil. Görünür, qanunda yenə də hansısa boşluqlar var ki, bundan sui-istifadə edirlər. Həmin “cərrahların”göstərdikləri sertifikatlara baxmaq lazımdır ki, orada nə yazılıb. Onu da qeyd edim ki, Azərbacyanda həkimlər 5 ildən bir sertifikasiya imtahanı verir və imtahandan keçərsə, növbəti 5 il üçün öz ixtisası üzrə işləyə bilər. Bu da onlara heç bir yeni ixtisas, hansısa üstünlük vermir. Endokrinoloqun, stomatoloqun əlində plastik cərrahiyyə ilə bağlı sənəd, sertifikat varsa, bilin ki, o sənəd saxtadır.

**– Müxtəlif peşə sahiblərinin kosmetoloq həkim kimi fəaliyyət göstərməsinə münasibətiniz necədir?**

– Kim olmasından asılı olmayaraq, kosmetoloq həkimin insan bədəninə müdaxiləsini qanunsuz hesab edirəm. Gördüyümüz kimi, plastik cərrahiyyə asan sahə deyil, ona yiyələnmək üçün 11 il vaxt lazımdır. O ki qaldı kosmetoloqlara, başqa universitetləri, kimya-biologiya fakültəsinini bitirənlər və ya tibb bacıları, hətta, bəzən tibb təhsili olmayanlar belə əlinə iynə alıb insanların bədəninə müdaxilə edirlər. Əlbəttə, bu yolverilməzdir.

Biz ümid edirik ki, dövlətimiz bu məsələləri araşdırıb hüquqi baza, müvafiq təhsil mexanizmi yaradacaq. Bunun üçün başqa qanunvericilik lazımdır. Əminik ki, kosmetologiya sahəsi də nəzarətə götürüləcək. Aydınlaşacaq ki, kimlər kosmetoloq ola bilər? Əlbəttə, yaxşı olar ki, o Tibb Universitetini bitirmiş həkim olsun. Çünki həkim insan anatomiyasını fənn olaraq da öyrənir, ixtisas olaraq da. Onun insan simasına, yaxud başqa əzalarına müdaxiləsi o qədər qorxulu deyil.

Plastik cərrahiyyə üzrə tibb xidməti “Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı”na daxil olduğundan, bu istiqamətdə fəaliyyət göstərən müəssisələr müvafiq lisenziyaya sahib olmalıdırlar. Plastik cərrahların çalışdığı müəssisələrdə tibbi xidmətin göstərilməsinə nəzarət Səhiyyə Nazirliyinin müvafiq qurumları tərəfindən plan üzrə yoxlamalar, həmçinin daxil olan şikayət və təqdimatlar əsasında digər qurumlarla birlikdə plandankənar yoxlamalar şəklində aparılır.

Bundan başqa, hər bir pasiyentin müraciət etdiyi həkimdən onun bu fəaliyyətlə məşğul olmağını təsdiq edən sertifikatını tələb etmək hüququ var.

Nəzarət tədbirləri zamanı nöqsanlar aşkar olunduqda müvafiq qanunvericilikdə nəzərdə tutulan qaydada inzibati tənbeh tədbirləri (inzibati cərimə) görülür, təkrar aşkar edildikdə əlavə tədbirlər həyata keçirilir. Xüsusi ağır hallarda, həmçinin ölüm faktları zamanı isə bu məsələ məhkəmə-tibbi ekspertizası və hüquq-mühafizə orqanlarının səlahiyyətinə keçir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Qazi və şəhid ailələrinə yeni il hədiyyəsi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dekabrın 24-də şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 150 mənzil, müharibə əlillərinə 33 avtomobil verilib. Mənzillər Bakı, Sumqayıt, Abşeron və digər regionlarda yerləşən yeni yaşayış komplekslərində yerləşir. 4 saylı DOST Mərkəzində həmin mənzillərin və avtomobillərin sənədlərinin təqdim edilməsi mərasimi olub.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov və nazirlik yanında İctimai şuranın sədri Elşad Məmmədov iştirak ediblər. A.Kərimov vurğulayıb ki, Prezident İlham Əliyevin şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısı ilə həssas kateqoriyalara aid vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində





mühüm addımlar atılır. Bu istiqamətdə aparılan işlərin bir istiqaməti də onların mənzil və fərdi evlərlə təminatıdır.

Qeyd edilib ki, mərasimdə 150 mənzil verilməklə cari ilin ötən dövründə artıq 650 mənzil təqdim edilib və bu həftə daha 150 mənzil veriləcək. Beləliklə, postmüharibə dövründə 6800-dək, ümumilikdə ötən dövrdə 16 minədək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

Həmçinin daha 33 avtomobil verilib və növbədə dayanan bütün müharibə ilə əlaqədar əlillərin avtomobillə təminatı başa çatmış oldu. Bu kateqoriyaya aid şəxslərə postmüharibə dövründə 567, ümumən 7,7 min avtomobil verilib.

E.Məmmədov şəhid ailələri və müharibə ilə əlaqədar əlillərin sosial dəstəklə əhatə olunması, o cümlədən onların mənzillə təminatı sahəsində aparılan işlərin ümumən ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığını vurğulayıb.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzil və avtomobillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***Z.BAYRAM***
***XQ***

# Şəkər “şirin təhlükə”dir, yoxsa xoşbəxtlik qidası?

**Şəkərdən istifadə yeməklərə və içkilərə ləzzət qatmağın əsas yollarından biridir. Lakin bu şirin dad orqanizmimizə özü ilə birlikdə sağlamlıq üçün risklər də gətirə bilər. Son illər müxtəlif təbliğat vasitələrində tez-tez rastlaşırıq: “şəkərdən istifadə etməyin, şəkər ağır xəstəliklərə səbəb olur, şəkər zəhərdir”. Hətta iş o yerə çatıb ki, valideynlər uşaqlarını səhər yeməyini dada gətirən “şirin çay”dan məhrum ediblər.**



Tibb elmləri doktoru, professor Musa Qəniyevlə görüşüb bu fikirlərin nə dərəcədə həqiqətə uyğun olması ilə maraqlandıq. Onunla söhbətimizdə şəkərin orqanizmə mənfi və müsbət təsirinin elmi izahından söz açmasını xahiş etdik.

**– Professor, şəkərə orqanizm üçün “şirin təhlükə” deyə bilərikmi?**

– “Şəkərin orqanizmə mənfi təsiri var” fikri bir qədər əsassızdır. Məhz bu yanaşmaya görə, ictimailəşdirilməsini zəruri bildiyim bəzi elmi həqiqətləri geniş oxucu kütləsilə bölüşməyi zəruri bilirəm. “Şirin təhlükə” ilə bağlı müxtəlif fikirlər mövcuddur.

Söylənilən əsas iddialardan biri, şəkər qəbulunun hiperinsulinemiya ilə müşahidə olunan qanda şəkərin miqdarının kəskin artımı və sonda şəkər xəstəliyinə səbəb olma riski ilə bağlıdır. Əvvəla, adi halda qanda şəkərin miqdarının 70–80 mq/dl enişi üçün 2 TV (insulinin qatılığı təsir vahidi (TV) ilə ölçülür.) insulin tələb olunur. Halbuki, normada mədəaltı vəz hər saatda 40 mkq insulin ifraz edir. Bu miqdarın vahid zamanda hansı nisbətdə şəkəri parçalamasını adi hesablama ilə belə, müəyyən etmək çətin deyildir. Digər tərəfdən, tək şəkər deyil, sürətlə qlükozaya parçalanan digər qida qəbulu (məsələn, ağ çörək, kartof) fonunda da insulin ifrazının sıçrayışlı artımı təbii, qanunauyğun və normal bir haldır.

**– Bu artım nəticəsində orqanizmdə hansı proseslər baş verir?**

– İnsulin ifrazının artması tək karbohidrat mübadiləsinin tənziminə deyil, həm də baş beyində neyromediator sistemin modulyasiyasına səbəb olmaqla, “xoşbəxtlik hormonu” adlandırılan serotoninin endogen stimulyasiyasını törədir. Serotoninin strukturunun 9-tetrahidrokannabinol quruluşlu psixodeletiklərə oxşarlığı insulin ifrazının atmasının həm də həyat eşqi və illuziv fəallığın formalaşmasındakı rolunu təsdiq edir. Alman alimləri insulinin endogen stimulyasiyası fonunda törənən bu halı hətta “xəyali xoşbəxtlik hissi” və endogen depressiv halın özünütənzim mexanizmi kimi təqdim edir.

Digər tərəfdən, şəkər ekstrapiramid nüvələrdə dofaminin biosintezini sürətləndirir. Bu da məlum lokalizasiyalı atrofik-degenerativ gedişli bəzi baş beyin patologiyaları zamanı (məsələn, Parkinson xəstəliyi) korreksiyası daxili təlabatdan irəli gələn zəruri eksogen vasitə rolunu da oynayır.

Şəkər həm də Beta-endorfin reseptorlarını oyatmaqla, hipofizin orta payında bu hormonun biosintezini artıraraq, digər zəruri fizioloji effektlərlə yanaşı iştəh əleyhinə təsir də göstərir. Başqa sözlə desək, söylənilənlərin əksinə olaraq, şəkər, əslində, iştahı artırmır, ona moduləedici təsir göstərir, toxluq hissi yaradır.

Bildirirəm ki, şəkər adi yeyinti məhsusu deyil, o, orqanizmin daxili təlabatından irəli gələn təminat vasitəsi, ilk növbədə enerji mənbəyidir. Xüsusən, beyin və əzələlərin normal fəaliyyəti üçün son dərəcədə zəruridir. Orqanizmdə şəkər çatışmazlığı baş və onurğa beyininin qan tə-



minatını pisləşdirir, başgicəllənmə, zəiflik, yuxululuq, intellektual fəallığın süstləşməsi, hətta şüurun qaranlıqlaşması və itməsinə səbəb ola bilər.

**– Demək istəyirsiniz ki, şəkərin zərərli təsiri yoxdur?**

– Xeyr, elə demirəm. Təbii ki, şəkərin qədərsiz miqdarda qəbulunun piylənmə, ürək-damar sistemi xəstəlikləri və sair ciddi xəstəliklərin baş verməsində əsas risk faktoru olması da həqiqətdir. Lakin bu hal orqanizmdə şəkərə olan təlabat və təminat mexanizmlərinin pozulması və buna səbəb olan xəstəliklərin nəticəsi kimi meydana çıxır. Halbuki, rafinəolunmuş şəkərin belə, gün ərzində 50 qram və ya 12 çay qaşığı qəbulu endogen təlabatın ödənilməsi üçün normal miqdar sayılır. Digər tərəfdən, nəinki şəkər, istənilən yeyinti məhsulu, hətta adi suyun belə orqanizmin təlabatından artıq miqdarda qəbulu arzuolunmaz, yolverilməz və bir çox ciddi xəstəlikləri tətikləyən haldır.

Odur ki, şəkər qəbulundan imtina edilməsi deyil, onun daxili təlabatdan irəli gələn norma daxilində qəbulu təbliğ olunmalı və əhali arasında bu cür bilgilər yayılmalı, maarifləndirmə aparılmalıdır.

***Z.HÜSEYNOVA***
***XQ***

Murad Muradov – 140

# Dövrünün böyük sənət fədaisi

**Azərbaycan milli teatrının formalaşmasında əvəzsiz rolu olan Əməkdar artist Murad Məmmədrza oğlu Muradov 1884-cü ildə Ağdam rayonunun Muradbəyli kəndində dünyaya göz açıb. O, orta məktəbi bitirdikdən sonra təhsilini Realni məktəbdə davam etdirib. Uşaq yaşlarından teatr sənətinə, musiqiyə böyük maraq göstərib və ömrünü bütünlüklə bu sahəyə bağlayıb.**



Şuşanın mədəni həyatına sıx daxil olan gənc Murad dram və xor dəstələrinin tərkibində çıxışlar edib, orada təşkil olunan tamaşa, konsert və müsamirələrə qatılıb. İlk dəfə səhnəyə 13 yaşında ikən Şuşadakı Xandəmirov zalında oynanılan "Hacı Qara" (M.F.Axundzadə) komediyasında Bədəl obrazı ilə çıxıb. Aktyorun öz xatirələrindən məlum olur ki, o, həm tamaşalarda həvəskar aktyor kimi rol alır, həm də səhnə həyatına aid bütün işləri can-başla yerinə yetirirdi.

Daha 3 il sonra Murad daha böyük arzuların qanadında Bakıya gələrək 1919-cu ilə qədər "Müsəlman dram artistləri cəmiyyətin"ndə, "Artistlər şirkəti"ndə, H.Sarabskinin "Müsəlman opera artistləri" dəstəsində, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti"ndə, "Nicat" və "Səfa" cəmiyyətlərinin teatr truppalarında aktyorluq edib. Onun səhnədəki bacarığına hələ Şuşadan yaxşı bələd olan Əbdürrəhim bəy Haqverdiyev Muradı əsas rolları oynamağa dəvət edib. Dramaturq onu özünün yenicə yaratdığı "Bakı müsəlman dram truppası"na götürüb. M.Muradov bu dəstədə Cahangir Zeynalov, Əbülfət Vəli, Məhəmməd bəy Əlvəndi, Səməd Mənsur, Salah bəy Sadıqbəyov, Mehdi bəy Hacınski kimi görkəmli teatr fədailəri və ziyalılarla çiyin-çiyinə çalışıb.

O, Əbdürrəhim bəyin quruluş verdiyi "Müsibəti-Fəxrəddin" (Nəcəf bəy Vəzirov) faciəsində baş rolu böyük məharətlə ifa edib. Hər yeni məsuliyyətli rol ilə gündən-günə peşəkarlığını artıran aktyor 1919-cu ildə indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. Həmçinin 1920–30-cu illərdə müəyyən fasilələrlə Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında, müxtəlif təbliğat və təşviqat briqadalarında işləyib. Sonra yenidən Akademik Milli Dram Teatrına geri qayıdan aktyor bu sənət ocağında Rza Təhmasib, Mustafa Mərdanov, İsmayıl Hidayətzadə, Rza Əfqanlı, İsmayıl Osmanlı, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Möhsün Sənani və başqa qüdrətli səhnə ustaları ilə tərəf-müqabil olub.

Murad Muradov teatr fəaliyyəti boyunca həm milli, həm də rus və Qərb dramaturgiyasının ən seçmə nümunələrində istər əsas, istərsə də 2-ci dərəcəli müxtəlif xarakterli yaddaqalan obrazlar yaradıb. N.Vəzirovun "Hacı Qəmbər", N.Nərimanovun "Nadir şah", M.F.Axundzadənin "Lənkəran xanın vəziri", "Hacı Qara", Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", C.Cabbarlının "Dönüş", "Yaşar", H.Cavidin "İblis", C.Məmmədquluzadənin "Ölülər", S.Vurğunun "Vaqif", Ş.Saminin "Dəmirçi Gavə", N.Qoqolun "Müfəttiş", "Evlənmə", F.Şillerin "Qaçaqlar", U.Şekspirin "Otello", A.Puşkinin "Dubrovski", N.Hikmətin "Türkiyədə", P.Bomarşenin "Fiqaronun toyu" və s. tamaşalarda oynadığı Cəbi, Rzaqulu xan, Hacı Məsud, Xəlil yüzbaşı, Həmzə bəy, Çingiz, Xudayar, Mürsəlqulu, ərəb zabiti, Heydər ağa, Əhməd kişi, Pərviz, Bobçinski, Koçkaryov, Karabkin, Şpigelberq, Kassio, keşiş Anton, həkim, Don Qusman Briddu-azon kimi rollar sənətkarın obrazlar qalereyasını daha da dolğunlaşdırıb. O, 1907-ci ildə Ümumrusiya Teatr Cəmiyyətinin üzvü olan ilk azərbaycanlı aktyor kimi teatr tarixinə adını qızıl hərflərlə yazdırmağa nail olub. 1933-cü ildə o dövr üçün SSRİ-nin ən ali mükafatlarından sayılan Əmək Qəhrəmanı adına layiq görülüb. Bundan əlavə, Azərbaycan peşəkar teatrının 75 illik yubileyi ilə əlaqədar 1949-cu ildə ona Əməkdar artist fəxri adı verilib. Yeri gəlmişkən, Murad Muradov özündən 6 yaş kiçik olan və 6 il sonra haqqa qovuşan Əməkdar artist Qaflan Muradovun doğma qardaşı idi. "Elm" nəşriyyatında 1981-ci ildə çapdan buraxılmış "Hüseynbala Ərəblinski" kitabında xalqımızın unudulmaz sənətkarları sırasında Murad və Qaflan Muradov qardaşlarının da adları tez-tez çəkilir.



Ömrünün sonunadək sənəbdən ayrılmayan teatr fədaisi Murad Muradov 1964-cü ildə Bakıda vəfat edib.

*Ə.ƏLİYEV*
*XQ*

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Mingəçevir Bölməsinin 25 illik yubileyi qeyd olunub.**

# Bozdağın qoynunda bir məclis vardır

Yarandığı vaxtdan çox keçmədən coşğun fəaliyyəti ilə Mingəçevirin adını ölkəmizin "ədəbi xəritəsinə" yazdıra bilən AYB yerli bölməsi bir sıra qələm adamının tanınmasında, almanax və topluların çapında, yubileylərin keçirilməsində aparıcı rol oynayıb. Elə Natəvan klubunda AYB-nin "Yaz havası" adlı almanaxları nəşr olunub və həmin topluların hər birinin həm Mingəçevirdə, həm də AYB-nin Natəvan klubunda təqdimat mərasimləri keçirilib. Ölkə Prezidentinin sərəncamlarına əsasən, klassik və çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarının yubileyləri, çoxsaylı poeziya gecələri və kitab təqdimatları olub. Ötən il ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə şəhər icra hakimiyyətinin dəstəyi ilə 2 nominasiya üzrə şeir müsabiqəsi təşkil edilib və s.



katibi İlqar Fəhmi, Milli Məclisin deputatı Aydın Mirzəzadə, Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Tapdıq Nəsirov, filologiya elmləri doktoru, professor Rüstəm Kamal, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli və başqaları öz çıxışlarında bununla bağlı konkret faktlar göstərib, yubilyar bölməyə xoş arzularını bildirdilər.

Bölmənin yaradıcısı – tanınmış şair-publisist İsmayıl İmanzadə qeyd etdi ki, Cəbrayıldan məcburi köçkün düşəndən sonra pənah apardığı Mingəçevirdə ədəbi dərnəklərin birləşib AYB filialı kimi pərvəriş tapmasında müəyyən rolunun olması ilə fəxr edir. Bölmənin nəşr etdiyi "İnam" qəzeti (2001–2003-cü illər), eləcə də "Bənövşə" (2008-ci ildən sonra çıxıb, əvvəlki adı "Mingəçevir leysanı" idi) jurnalı da bölgə yazarlarının ölkə səviyyəsində tanınmasına böyük töhfələr verib.

Bildirildi ki, son 10 ildə bölmənin "Aranın söz sovqatı", "Uzaqdan gələn səs", "Bir ocağın şöləsiyik", "Ruhumuzun

Yubiley gecəsində filologiya elmləri üzrə fəlsəfə doktoru Tariyel Abbasov, tanınmış şair Adil Cəmil, tədqiqatçı Əjdər Yunus və başqaları çıxış edərək "Nur şəhəri" kimi tanınan Mingəçevir ədəbi mühitindən danışdılar. Qeyd olunub ki, Mingəçevir haqqında düşünəndə Mikayıl Müşfiqin şəhərə həsr etdiyi poema və Səməd Vurğunun "Muğan" poeması yada düşür. Nə yaxşı ki, bölgənin yaradıcı ziyalıları həmin ənənəni yaşadır və ona yeni çalarlar əlavə edirlər.

Mərasimdə yubiley münasibətilə buraxılmış "Söz yaddaşı" almanaxı və "25-ci addım"ın xüsusi buraxılışı bölgənin yaradıcı ziyalılarının növbəti yaradıcılıq hesabatı olaraq, iştirakçılara ərməğan edildi.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

Məmməd Aslan –85

# Poeziyanın nur çeşməsi

**Unudulmaz şairimiz, Əməkdar mədəniyyət işçisi Məmməd Aslanın 1997-ci ildə Ankarada çıxmış kitabı belə adlanır. Onun nur üzlü Məhəmməd Peyğəmbərimizin vəsfinə yazdığı eyni adlı şeiri düz 30 il əvvəl İstanbulda keçirilən Nət müsabiqəsində qalib olmuşdu. Məmməd əmi Mövlana aşiqi idi, hər söhbətində ondan bir neçə misal gətirərdi. İndi haqq dünyasında olan şairin özünə "Nur içində yat!" deyirik.**



Məmməd Aslan 1939-cu il dekabrın 24-də Kəlbəcər rayonunun Laçın kəndində ziyalı ailəsində anadan olub. Klassik ədəbiyyata dərin bələd olan atasının gözəl şeir qoşmağı olsa da, onları heç vaxt çapa verməyib. Amma oğlunda şeirə-sənətə tükənməz həvəs oyadıb. Elə bu həvəs də gənc Məmmədi pedaqoji institutun filologiya fakültəsinə gətirib, Azərbaycan poeziyası adlanan böyük nəhrin ustad "qəvvas"ına çevirib.

Məmməd Aslanın rəssamlıq bacarığı da olub. Şairin alim dostu və eloğlusu Şahlar Əsgərov görüşlərin birində bu barədə deyirdi ki, Məmməd yeniyetmə vaxtı rəssam olmaq istəyi ilə Bakıya rəssamlıq texnikumuna oxumağa da gəlibmiş. Amma orada yataqxana şəraiti olmadığı üçün Kəlbəcərə qayıdıb və orta təhsilini davam etdirib, sonra isə filoloq-şair olub. Yəni biz onun timsalında istedadlı bir rəssamı itirsək də, əvəzində qələmi ilə gözəl təbiət təsvirləri yaradan, insan duyğularının minbir rəngini ustalıqla vərəqlərə köçürən, ecazkar söz tabloları yaradan bir şair qazanmışıq!

O da var ki, Məmməd əmi kitablarının tərtibatı zamanı müəyyən mənada rəssamlıq etməyi xoşlayırdı. Dəfələrlə şahidi olmuşam ki, əsərlərini, eləcə də baş redaktoru olduğu "Ekran-Efir" qəzetinin səhifələrinə çxardığı bədii nümunələri gözəl naxışlarla haşiyələndirir, sonra çapa verirdi.

Əmək fəaliyyətinə Kəlbəcər rayonundakı Yanşaq, İstisu kənd məktəblərində müəllim kimi başlamışdır. O, Kəlbəcər qəsəbəsində bir müddət müəllimlik etdikdən sonra rayonda nəşr olunan çoxtirajlı "Yenilik" qəzeti redaksiyasında məsul katib işləmişdir. 1970-ci ilin axırlarında Bakıya köçmüş, burada "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyalarında çalışmış, "Yazıçı" nəşriyyatında böyük redaktor olmuşdur. Azərbaycan Dövlət Teleşirkətinin "Ekran-Efir" qəzetini araya-ərsəyə gətirib, eyni zamanda maraqlı, zövq aşılayan, yaddaqalan verilişlərin aparıcısı olub.

Həmişə qürur duymuşam ki, qismətimə Məmməd Aslanla illərcə sıx ünsiyyətdə olmaq düşüb. Neçə-neçə kitabını avtoqrafla mənə təqdim eləyib. Hər birində də bir özəl cümlə yazırdı. Hər ikimiz Sumqayıtda yaşadığımız üçün AzTV-yə işə birlikdə gedib-gəlir, yolboyu qafiyələr deyirdik. Ömrünü söz uğrunda girov qoymuş şairin özünün poetik etirafı idi: "Səpib göyərdərəm sözü-kəlməni, Ayrı sənətim yox, ayrı işim yox..."

Yaşadığı binanın yaxınlığındakı çayxanaya gedən kimi onu görənlər başına toplaşar, duzlu-məzəli söhbətlərinə qulaq asar, birgə şəkil çəkdirərdilər.

**Sözlər közərdimi, qəlbim yanacaq,**
**İsidər ruhumu bu od, bu ocaq.**
**Mənim ov silahım dilimdir ancaq,**
**Ayrı sapandım yox, ayrı daşım yox!**

Şəxsi kitabxanamda müasirlərimizdən ən çox əsəri olan müəllif məhz Məmməd Aslandır. Onun "Dağ ürəyi", "Səsimə səs ver", "Ürək möhlət verəydi", "Durnalar lələk salır", "Dəvə niyə gövşəyir", "Ərzurumun gədiyinə varanda", "Ömrün yarı yaşında", "Allahın rəsulu", "Bir sultan yaşardı Sultantəpədə" adlı kitabları, "Varlıqla yoxluq arasında" ikicildliyi, həmçinin türkcədən "Yunus İmrə, Aşıq Veysəl – iki zirvə" adlı uyğunlaşdırma toplusunu dönə-dönə və heyranlıqla oxumuşam. Şeirsevərlər bu gün də Məmməd Aslanın yaradıcılıq örnəklərini axtarıb tapanda sevinir, bal kimi şeirlərini dadmaqdan həzz alırlar.

**Saz ilə, söz ilə qəlbini ovut,**
**Arıya sirdaş ol bal deyə-deyə.**
**Ar-namusdan özgə hər şeyi unut;**
**Dağlarda iz axtar, el deyə-deyə.**

Türk dünyasının tanınmış ziyalısı ömrü boyu imzasının şərəfini layiqincə qoruyub, istər poeziyası, istərsə də publisistikası ilə örnək olub. Hansı mövzuda şeirini oxusan, kamil bir qələmin məhsulu olduğunu görürsən. O, dilimizin saflığını, şirinliyini qoruyan, dərin qatlarına varan, ədəbiyyatımıza əvəzsiz incilər bəxş eləyən, bədii publisistikamıza yeni ruh gətirən, telejurnalistikada öz cığırını açaraq seyrçilərinin sevimlisinə çevrilən söz adamı olub. "Sərt qayalı söz dağını misra-misra çapan", Kərəmdən sonra Ərzurumun gədiyinə varan və bizi oğuz-türk şeirinin izlərinə aparan şairin şeirləri sosial şəbəkə səhifələrindən düşmür. Yeni nəsillər də onun söz xəzinəsinə üz tuturlar.

Xalq şairi Sabir Rüstəmxanlı onu tələbəlik illərindən tanıdığını və uzun illər dostluq etdiklərini söyləyir. "Kəlbəcərin bütün təbiət gözəllikləri onun şeirlərində əks olunmuşdu. Kəlbəcərdə Aşıq Şəmşirin, Məmməd Aslanın şeirlərini dinləmişik, oradan Göyçəyə keçib getdiyimizi, Aşıq Ələsgərin yurdunu gəzdiyimizi xatırlayıram. Şeir bayramlarımız olmuşdu. Sonra Kəlbəcər düşmən işğalında qaldı. Biz ondan sonra Yardımlıya bərabər getdik. Məmməd Aslan Kəlbəcər dağlarında itirdiklərini Yardımlı dağlarında tapırdı".

**Gedib-gedib ta zirvələrə çatmışdım,**
**Dağ başında bəxtə kəmənd atmışdım,**
**Kəlbəcərdə gül-çiçəyə batmışdım,**
**Ayıldım ki, Yardımlıdı gördüyüm.**

Heyf ki, Məmməd əmi Kəlbəcərin öz əzəli sahiblərinə qaytarılmasını görmədi. Amma yəqindir ki, bu, ona əyan olub və ruhu şaddır. Böyük şairin qəlbi həm də bütün türk ellərinə, o cümlədən, qardaş Türkiyəyə hədsiz sevgilə döyünürdü. İstanbulu, Ankaranı, Ərzurumu, Qarsı, Bolunu, Ədirnəni, Sivası, Adabazarını doyunca gəzib və dillər əzbəri olan şeirlərini yaradıb. Həmin silsilədən "Adalarda bir gün", "Saz və qılınc", "Ağrı dağı ilə görüş", "Sultan Əhməd camesi", "Adalardan bir qız gəlir bizlərə", "Azər-Baycan", "Təbrizə çatmağa nə yol qaldı ki..." və sair şeirləri qənimət nümunələrdir.

Ulu sözü şahlıq büsatına çıxaran Məmməd Aslanın adı artıq klassiklərimizin sırasında çəkilməyə başlayıb. Onun haqq dünyasına qovuşandan sonra da kitabları nəşr olunur. Biri elə "Sözün özü" adlanır. Səhifələrində şairin eyni adlı telesilsilədə çıxışları, ana dilimizlə, "həzrəti-söz"ün təbiəti ilə bağlı düşüncələri, illərcə dahilərdən topladığı örnək kəlamların, yaddaşlarda yurd salmış ibrətamiz məsəllərin və şeirlərin də əlvan gül dəstəsi təqdim olunub. Məmməd Aslan bu kitabı yazanda məndən də söz haqqında bir şeir istəmişdi. Yazıb vermişdim. Fəxr edirəm ki, sağlığında özünün gördüyü o topluda mənim yazdığım şeir də yer alıb. "Sözün özü" ilə şair əsl söz tədqiqatçısı kimi gözümüzdə bir daha ucalır.

Məmməd Aslan 2015-ci ilin sentyabrında haqq dünyasına qovuşub. Şairin haqqında yazdığım xatirə qeydlərimi elə onun özünün misraları ilə bitirirəm:

**Sən getdin, arxanca açıla qaldı,**
**Bir də qapanmadı qollar beləcə.**
**Mənimlə dumana, çənə büründü,**
**Hönkürdü yamaclar, yallar beləcə.**

*Əli NƏCƏFXANLI*
*XQ*

Yeni filmlər

# Nizaminin daxili aləmi ekranda






**Türk kinematoqrafçıları mütəfəkkir şair Nizami Gəncəviyə həsr olunmuş "Nizami: daxili aləm" adlı sənədli film çəkiblər. Beynəlxalq Muğam Mərkəzində yeni ekran əsərinin təqdimatı olub.**

Məlumat verilib ki, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) sifarişi ilə istehsal olunmuş filmin çəkilişlərinə 2 ildən çox vaxt sərf edilib və kadrlar 10-dan çox ölkədə canlandırılıb.

Sənədli ekran əsərinin rejissor və icraçı prodüseri Atakan Kerküklüdür. O deyib ki, başlıca məqsəd Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı sərəncama əsasən Nizami Gəncəvi irsinin beynəlxalq səviyyədə geniş təbliği olub. Ssenari müəllifi Kristina Lin Morelli, prodüserləri Atakan Kerküklü, Abdulkadir Karakelle, operatorları Miya Lusia Keyhli Padcet və Ceremi Stefan Fut, montaj redaktoru Bahəddin Dastan olan yaradıcı heyət böyük şairin fəlsəfi baxışlarını, düşüncə dərinliyini və nadir intellektual zəngin irsini tamaşaçılara çatdırmağa hədəfləyir.

Sonra ekran əsəri nümayiş etdirilib. Filmdə dünyanın müxtəlif qitələrində yaşayan alimlər və Şərq musiqisi ifaçıları Nizami dühasına heyranlıqlarından danışıblar. Əlvan təsvir vasitələri şairin parlaq obrazının yaradıldığı filmi daha da baxımlı edib.

Ekran əsərini tamaşaçılar maraqla qarşılayıblar.

*XQ*

# Trampın enerji planı dünyaya nə vəd edir?

**ABŞ-ın yeni prezidenti Donald Tramp karbohidrogenlərin hasilatı və ixracını stimullaşdırmaq üçün təcili tədbirlər görəcəyini elan edib. Cənab Trampın enerji planı uğurla həyata keçirilərsə, dünyada mayeləşdirilmiş təbii qaz (LNG) təchizatçıları arasında rəqabət güclənəcək. Bu növ yanacağın qiymətinin aşağı salınması Qətər və Rusiyanın maraqlarına təsir edəcək.**



Lakin ekspertlər proqnozlaşdırırlar ki, bu dəyişikliklər 2030-cu ilə yaxın baş verəcək. Bu arada xəbər verilir ki, Vaşinqtonun yeni administrasiyası elmi və iqtisadi əsası olmayan "yaşıl" gündəm və aşağı karbon transformasiyası prinsiplərini yenidən nəzərdən keçirəcək.

Donald Tramp bildirib ki, ABŞ iqtisadiyyatını xilas etmək üçün birinci gün Co Baydenin enerji istehsalı ilə bağlı bütün məhdudiyyətlərinə son qoyacaq. Yeni prezident ilk növbədə sələfinin elektrik avtomobili barədə qərarına yenidən baxacaq, təbii qaz ixracına qoyulan qadağalara son qoyacaq sərəncamlar imzalayacaq. Bununla yanaşı, o, əlavə edib ki, enerji sektorunda yaranmış vəziyyətlə əlaqədar ABŞ-da fövqəladə vəziyyət də elan edəcək.

Təəccüblüdür ki, demokratlar Trampın enerji planlarını aşağı karbonlu transformasiyanın "yaşıl obyektivi" ilə qiymətləndirməyə davam edirlər. ABŞ Demokratik Partiyasının ruporlarından biri deyir ki, Amerika LNG ixracının artırılması "iqlim böhranının həllinə kömək etməyəcək və hətta onu daha da pisləşdirə bilər". Qeyd edək ki, yanvar ayında Bayden administrasiyası təbii qaz ixrac bumunun ətraf mühitə, həmçinin daxili enerji təhlükəsizliyinə və qiymətlərinə təsirini dəyərləndirmək məqsədilə bir neçə LNG ixrac layihəsi üçün federal icazənin verilməsini dayandırmışdı.

Ötən çərşənbə axşamı Enerji Departamenti ABŞ-ın LNG ixracını hazırda icazə veriləndən artıq artıracağı təqdirdə, istixana qazı emissiyalarının 2050-ci ilə qədər əlavə 1,5 giqaton təşkil edəcəyi ilə bağlı proqnoz açıqlayıb ki, bu da Birləşmiş Ştatların cari illik istixana qazı emissiyalarının dörddə birinə bərabərdir. Bununla belə, Tramp dövründə qlobal qalıq yanacaq istehlakı artmaqda davam etdiyi üçün bu cür mülahizələr artıq nəzərə alınmayacaq. Həm də ehtimal edilir ki, "yaşıl" texnologiyaların iqtisadi məqsədyönlüyü ətrafında aparılan mübahisələrin fonunda yeni administrasiya enerji siyasətini 180 dərəcə dəyişdirəcək.

Bəs LNG tədarükü barədə proqnozlar nə deyir? "Wood Mackenzie" şirkəti ehtimal edir ki, qlobal LNG tədarükü 2025-ci ildə də artacaq, amma bu artım böyük olmayacaq. Maye qaz bazarındakı ümumi vəziyyət onilliyin ikinci yarısında, ABŞ, Qətər və digər istehsalçılardan LNG tədarükünün yeni dalğasının gözlənildiyi zaman daha aydın görünməlidir. Onilliyin sonuna qədər qlobal LNG ticarəti ABŞ-da həyata keçirilən layihələrdən potensial tədarüklər istisna olmaqla, indiki göstəricidən 50 faiz yüksək olacaq. Analitiklərin fikrincə, Bayden qadağasının ləğvi səbəbindən əlavə qaz həcmi 2030-cu ilə qədər bazara çıxmayacaq.

Bununla belə, mütəxəssislər bildirirlər ki, 2030-cu ilə qədər "Şimal axını" qaz kəmərlərinin hazırkı sahibləri boruları bərpa etməyə ümid edirlər. Düzdür, bazar iştirakçıları Donald Trampın rəqiblərinə güzəştə gedəcəyinə də bel bağlamırlar. "Eadaily" agentliyinin məlumatına görə, "Şimal axını -2" operatorunun müflisləşmə proseduru davam edir, lakin buna baxmayaraq şirkət planlaşdırır ki, 2030-cu ilə qədər qaz kəməri bərpa oluna və tədarüklərə başlaya bilər. "Nord Stream-2 AG" şirkəti ehtimal edir ki, qaz kəməri 2030-cu ildə işə düşəcək və 50 il xidmət göstərəcək. "Şimal axını-2"nin müvəqqəti meneceri kimi fəaliyyət göstərən Transliq AG-nin nümayəndəsi məhkəmədə hakimə bildirib ki, geosiyasi vəziyyətin yumşalacağı gözlənilir. Eyni zamanda, Qərbi Avropada enerjiyə yüksək tələbat var.

Şirkət nümayəndəsinin sözlərinə görə, qaz kəmərinin bir xəttinin bərpası 633 milyon avro təşkil edəcək, ikincisi isə qorunub saxlanılıb. Operator şirkət sığorta təzminatına da belə bağlayır, bununla bağlı hüquqi prosedurlar davam edir. Bundan başqa, Transliq AG qeyd edib ki, qaz kəmərinin gələcəyi əsas kreditorlar olan Almaniyanın Uniper, Wintershall, Avstriyanın OMV, Britaniyanın Shell və Fransanın Engie şirkətləri ilə birlikdə həll olunacaq. Məhkəmə 2025-ci il yanvarın 10-dək müflisləşmə və ya borcun restrukturizasiyası haqqında qərar qəbul edə bilər. Qeyd edək ki, 2022-ci il sentyabrın 26-da "Şimal axını-1" və "Şimal axını-2" təbii qaz boru kəmərlərində baş verən 4 partlayış nəticəsində 4 xəttdən 3-ü yararsız hala düşüb.

Ancaq Donald Trampın Rusiyanın bu qaz layihələrinin yenidən işə düşməsilə razılaşacağını demək çətindir. Xatırladaq ki, ABŞ-in yeni prezidenti amerikalı jurnalist Taker Karlsonla söhbətində məhz onun sayəsində "Şimal axını – 2" qaz kəmərinin tikintisinin dayandığını bildirmişdi: "Rusiyanın ən böyük layihəsi "Şimal axını-2"-dir. Bu, Rusiyadan Almaniyaya və daha da Avropaya uzanan dünyanın ən böyük boru kəməridir. Mən onun tikintisini dayandırdım".

***S.ELAY***
***XQ***

# Brüssel Avropa ilə Rusiya arasında uçurumu dərinləşdirir

**Bu gün Rusiya–Ukrayna müharibəsi bütün şiddəti ilə davam edir. Hətta cəbhənin bir sıra istiqamətlərində Rusiya qoşunlarının hər gün bir qədər də irəlilədiyi, yeni əraziləri ələ keçirdiyi barədə məlumatlar alırıq. Son bir neçə ayda Rusiya faktiki olaraq Donetskin xeyli yaşayış məntəqəsini tutaraq orada möhkəmlənib.**



Dünən "Euronews" telekanalı da bildirib ki, 2024-cü il sona yaxınlaşdıqca, Rusiya qoşunları Ukraynanın qərbindəki Donetsk bölgəsində ardıcıl irəliləyişlərini davam etdirir. Rusiya qoşunları davamlı şəkildə irəliləyərək, Pokrovsk şəhərinə və cənubda yerləşən Kuraxova yaxınlaşır. Kanalın məlumatına görə, keçən həftə Rusiya Müdafiə Nazirliyi Trudovoye və Uspenovka kəndlərinin tutulduğunu elan edib.

Ukrayna qoşunları isə ağır müdafiə döyüşlərindən sonra ərazidən geri çəkilib. İndi Ukraynanın döyüş meydanlarında xeyli zəifləməsi, eləcə də ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Trampın Ağ evə qayıdışı və Rusiya ilə danışıqlara başlamaq barədə bəyanatları fonunda bir sıra Avropa dövlətlərinin Moskva ilə yaxınlaşması prosesi güclənib. Bu isə rəsmi Brüsseli ciddi şəkildə narahat edir. Narahatlıqlar əsasən bununla bağlıdır ki, Ukrayna münaqişəsinin həlli üzrə qarşıdakı diplomatik dialoq zamanı Avropa İttifaqının daxilində Rusiyayönlü səslər eşidilməkdədir. Buna görə də Brüsseldə müxtəlif Avropa qüvvələrinin Moskva ilə getdikcə daha çox yaxınlaşa biləcəyindən, xüsusən Slovakiyanın Baş naziri Robert Fitsonun Rusiyaya səfərindən narahatlıqlar artmaqdadır.

Bu günlərdə İspaniyanın "El País" qəzeti də özünün belə bir narahatlıqlarını bölüşüb. Qəzet Macarıstanın Baş naziri Viktor Orbanın Moskvaya səfərini, bir sıra avroskeptik, Rusiyayönlü partiyaların təbliğatının artmasını, eləcə də Rumıniyada seçkilərin nəticələrini qeyd edir. Üstəlik, bütün bu proseslər Donald Trampın tezliklə Ağ Evə qayıtması fonunda baş verir ki, bu da Avropa İttifaqında narahatlıq doğurur.

Qəzet cəsarətlə yazır: "Gəlin özümüzü aldatmayaq. Sabah Ukraynadakı vəziyyəti həll etmək üçün diplomatik dialoq başlayanda Avropa İttifaqında daxili səslər Rusiya ilə münasibətlərin bərpası lehinə səslənə bilər". Bundan əlavə, nəşrin Avropadakı mənbələri də qeyd ediblər ki, Kiyevə yardımlarla bağlı sorğu-suala başlayan, yaxud münaqişəni tez bir zamanda dayandırmağa çağıran səslər getdikcə daha çox eşidilir.

ABŞ-ın yeni rəhbərliyinin mövqeyi də aydındır. Tramp istər seçki kampaniyası dövründə, istərsə də ondan sonra dəfələrlə Ukraynadakı münaqişəni həll etmək niyyətində olduğunu bildirib, lakin planının təfərrüatlarını açıqlamayıb.

Bu günlərdə "Reuters" də xəbər verib ki, ABŞ-ın yeni prezidentinin üç planı nəzərdən keçirilir. Amma onların heç biri Ukraynanın dərhal NATO-ya daxil olmasını təmin etmir.

İyun ayında Rusiya Prezidenti Vladimir Putin də Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşündə Ukraynadakı vəziyyətin həlli üçün şərtlərini açıqlayıb. Onların arasında Ukrayna Silahlı Qüvvələrinin Donbas və ümumən Novorossiyadan çıxarılması, Kiyevin NATO-ya üzv olmaqdan imtinası kimi təhlükəli şərtlər yer alıb. Bununla yanaşı, Ukraynada rusdilli vətəndaşların hüquqları, azadlıqları və mənafeləri də tam təmin edilməlidir. Rusiya Qərbin ona qarşı tətbiq etdiyi bütün sanksiyaları ləğv etməyi və Ukraynaya qoşulmama, nüvə silahından azad bir status təmin etməyi zəruri hesab edir.

Dekabrın 23-də Macarıstanın xarici işlər naziri Peter Siyarto da Ukrayna münaqişəsinin başa çatdırılmasının vaxtı olduğunu və bu zaman ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın münaqişəni həll etmək üçün heç bir vasitəçilərə ehtiyacı olmadığını bildirib. Diplomat Macarıstanın baş naziri Viktor Orbanın ABŞ lideri Tramp, Rusiya Prezidenti Vladimir Putin və Ukraynanın dövlət başçısı Vladimir Zelenski arasında vasitəçi olmaq ehtimalını da şərh edərək deyib ki, Tramp Putin və Zelenski ilə birbaşa əlaqə saxlamağa üstünlük verir.

Bir gün əvvəl Tramp, doğrudan da, Ukraynadakı münaqişənin həllini müzakirə etmək üçün Putinlə görüşü səbirsizliklə gözlədiyini bildirib. Amma Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov dəqiqləşdirib ki, hazırda bu cür danışıqların təşkili üçün heç bir real addımlar yoxdur.

Macarıstan XİN başçısı artıq Rusiya–Ukrayna müharibəsini dayandırmaq üçün yaxşı fürsət yarandığı qənaətindədir. O bildirib ki, Milad barışığı böhranın sülh yolu ilə həllinə başlamaq üçün əla kömək ola bilər: "Biz haqlı idik və haqlıyıq ki, bu münaqişənin döyüş meydanında həlli yoxdur. Ancaq danışıqlar masası arxasında, uzunmüddətli dialoq yolu ilə həll tapmaq məqsədi ilə danışıqlar masasına əyləşmək lazımdır. Bunun üçün lazımi şərait, yəni atəşkəs lazımdır. Düşünürəm ki, Milad bayramı bir neçə gün uzansa da, bunun üçün əla platforma ola bilər".

Siyarto əlavə edib ki, Macarıstanın vəzifəsi Milad atəşi ilə bağlı təklif verməkdir. Bu, yüzlərlə, minlərlə insanın həyatını xilas edə bilər. Qalan məsələlər, bundan sonra nə baş verəcəyi Ukrayna prezidentindən asılıdır.

***Paşa ƏMİRCANOV***
***XQ***

**Bu gün Gürcüstanda siyasi vəziyyət hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyası ilə səlahiyyət müddəti dekabrın 29-da başa çatan ölkə prezidenti Salome Zurabişvili arasında qarşıdurma ilə xarakterizə olunur. Salome Zurabişvili seçki prosesini "etibarsız" sayır və onun nəticələrini tanımaqdan imtina edib. O, parlament seçkilərinin yenidən keçirilməsini tələb edir və Avropa liderləri ilə telefonla məsləhətləşmələr aparır. Bu barədə Zurabişvilinin mətbuat xidməti məlumat verib.**

# "Soros fondu" Gürcüstanı dinc buraxmaq istəmir

## *Salome Zurabişvili isə milli maraqlara arxa çevirib*



Bildirilib ki, Gürcüstan prezidenti avropalı həmkarlarına Bidzina İvanişviliyə verdiyi təklifi təqdim edib: "Bu, böhrandan yeganə çıxış yoludur. Təklif iki əsas məsələnin razılaşdırılması üçün görüşü nəzərdə tutur: yeni seçkilərin tarixi və ATƏT/DTİHB-nin hesabatı əsasında seçkilər üçün yeni şərtlərin müəyyən edilməsi".

Avropa ilderlərindən isə dəstək gəlib. Polşa Prezidenti Andjey Duda yeni parlament seçkilərinin keçirilməsinin zəruriliyini bəyan edən ilk Avropa lideri olub: "Mən prezident Salome Zurabişvili ilə Gürcüstandakı vəziyyətlə bağlı danışdım. Xanım Prezidenti əmin etdim ki, onun liderliyinə və gürcü xalqının Avropaya yönəlmiş istəklərinə sarsılmaz dəstəyim var. Onların vahid Avropaya doğru irəliləmək üçün toxunulmaz hüquqları var. ATƏT-in tövsiyələrinə uyğun olaraq yeni seçkilər hazırkı böhrandan çıxış yoludur".

Çexiya lideri Petr Pavel də Zurabişvilini dəstəklədiyini bildirib: "ATƏT ötən cümə günü Gürcüstanda keçirilən seçkilərlə bağlı hesabatını dərc edib. Bu gün baş verənlər prezident Salome Zurabişvilini son hadisələri müzakirə etməyə vadar edib. Mən Prezidentə bu çətin vəziyyətdən çıxış yolu tapmaqda göstərdiyi səylərə, eləcə də ölkələrinin demokratik gələcəyi uğrunda mübarizəni davam etdirən Gürcüstan vətəndaşlarına dəstəyimi təklif edirəm".

Prezident Salome Zurabişvili isə bildirib ki, hakim "Gürcü Arzusu" partiyası təkrar seçkilərin keçirilməsinə razılıq vermədiyi təqdirdə, təkrar parlament seçkilərinin təşkili məqsədilə şura formalaşdırmaq niyyətindədir. Bu barədə siyasətçi feysbukda yayımlanmış videomüraciətində bildirib. Zurabişvilinin sözlərinə görə, o, hakim partiyanın rəhbərliyindən dekabrın 29-dək təkrar seçkilərin keçirilmə müddətinin razılaşdırılmasını gözləyir. Hakim partiya kompromisə getməsə, dialoq əldə olunmasa, başqa variant var – biz bu rejimi devirməklə seçkilərə gedəcəyik, başqa yol yoxdur".

Zurabişvili, bununla yanaşı, yeni prezident Mixail Kavelaşvilinin dekabrın 29-na təyin edilmiş inauqurasiyasına baxmayaraq, ölkənin prezidenti olaraq qalmaq niyyətindədir. "Təkrar seçkilərədək olan dövrü idarə etmək üçün şura yaradılacaq. Bu şuranın mandatı yalnız bir məsələyə – yeni seçkilərə hazırlıq olacaq. Artıq sənəd hazırlanır".

Onun bu açıqlamalarına hakim partiyadan sərt reaksiya gəlib. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili bildirib ki, Salome Zurabişvili istər qanundan, istərsə də Konstitusiyadan asılı olmayaraq tamamilə nəzarətsiz hərəkət edir. Onun fikrincə, S.Zurabişvilinin ölkədə yeni parlament seçkilərinin keçirilməsi tələbi heç bir legitimliyə malik deyil və əsassızdır.

Gürcüstan parlamentinin deputatı Eka Sepaşvili isə hesab edir ki, Salome Zurabişvili real deyil, paralel bir dünyada yaşayır: "Görünür o, xaricdən ciddi göstəriş alıb ki, növbədənkənar seçkilər təyin etsin və bu istiqamətdə çalışır. Lakin onun bu cəhdi baş tutmayacaq. Təəssüf ki, Gürcüstan tarixində ilk dəfədir ki, Konstitusiyanı pozan, qanunlara tabe olmayan və xalqın iradəsini nəzərə almayan belə bir prezidentimiz var. O, xarici aktorların tapşırıqlarını öz ölkəsinin maraqlarından üstün tutur".

Gürcüstan parlamentinin birinci vitse-spikeri Giya Volski bəyan edib ki, ölkədə keçirilən seçkilər saxtalaşdırılmayıb və nəticələrdən narazılıq siyasi spekulyasiya kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, seçkinin nəticələrindən narazı olan bəzi qrupların ölkəni gərginliyə salması yolverilməzdir: "Bu qruplar müəyyən ssenari üzrə hərəkət edərək, ölkəyə xüsusi tapşırıqları yerinə yetirəcək və Gürcüstanın dağıdılmasına zəmin yaradacaq bir hakimiyyəti gətirməyi hədəfləyir. Hakimiyyət, arxasında 1 milyon 120 min seçicinin dəstəyi olduğu halda, güzəştə getməməlidir".

Gürcüstan parlamentinin sədr müavini Nino Tsilosani isə ölkədəki etiraz aksiyalarında "Soros fondu"nu ittiham edib: "Amerikanın yeni seçilmiş prezidenti Donald Tramp "Soros və fondu"nun qadağan edilib-edilməməsi ilə bağlı sorğu keçirərkən, Soros fondu Gürcüstanda hökumət əleyhinə etirazlar təşkil edir".

Bundan əvvəl rəsmi Tbilisi Soros Açıq Cəmiyyət Fondunu Gürcüstana Avropa İttifaqına üzv olmaq üçün namizəd statusunun verilməsinə qarşı aparılan kampaniyada birbaşa iştirakda ittiham etmişdi.

"Gürcü Arzusu"nun icraçı katibi Mamuka Mdinaradze müxalifəti ATƏT-in hesabatının məzmununa diqqət yetirməməkdə ittiham edib: "Bizim müxalifətin səsləndirdiyi spekulyativ fikirlər ATƏT/ODİHR-in yekun hesabatında öz əksini tapmayıb. Hesabatda müəyyən tənqidi qeydlər var və bunu heç kim inkar etmir. Lakin müxalifət seçkilərlə bağlı 300 min saxtalaşdırılmış səslə əlaqədar iddialar irəli sürürdü, ancaq bu barədə hesabatda heç bir məlumat yoxdur. Əksinə, yekun sənəd ilkin hesabatın eyni məzmununu genişləndirilmiş formada təsdiqləyir".

O qeyd edib ki, müxalifət əvvəlcə bu hesabatı "fəlakət" adlandırmışdı, indi isə onu "müsbət" kimi təqdim edir, bu da onların sənədin məzmunundan çox, necə təqdim ediləcəyinə önəm verdiyini göstərir."Bilmirəm, konstitusiyanı oxumurlar və bilmirlər, o qədər də cahil deyillər. Amma bunlar baş nazir təyin etmək, yeni seçkilər keçirmək istəyirlər. Lakin qeyd etmirlər ki, bunun üçün əsas lazımdır", - deyə Mamuka Mdinaradze bildirib.



Bu arada Almaniyanın Gürcüstandakı səfiri Peter Fişer sosial şəbəkədəki səhifəsində yazıb ki, Almaniya ölkənin Avropa İttifaqına inteqrasiya yolundan uzaqlaşması və etirazların yatırılmasına cavab olaraq Gürcüstanla 237 milyon avro dəyərində layihələri dayandırıb. Almaniya səfiri dayandırılmış bir neçə layihə ilə birgə, yaşıl hidrogen, enerji infrastrukturu layihələri, həmçinin Batumidə su infrastrukturunun maliyyələşdirilməsinin dayandırıldığını qeyd edib.

***P.ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 285 (30689) 25 dekabr 2024-cü il, çərşənbə

El sənətini yaşadanlar

# Lahıc: muzey–qəsəbə



**Hər dəfə Lahıca gedəndə bu ecaskar yurdun gözəl mənzərələrini gəzib-görməzdən əvvəl, tanıdığım və hörmət bəslədiyim insanlara baş çəkir, onlarla dərdi-dil eləyirəm. İlk görüşlərim baş küçədəki ustalarla olur.**

Əvvəlcə, misgər Kəbləminin emalatxana-dükanına girib lahıc dilində soruşuram:"bror, çi psoxdan (qardaş, keyfin necədi?) O da gülümsəyib deyir ki, üzünü görək, xoş gəlmisən, haçandı buralara ayaq basmırsan? Sonra oturub gün-güzərandan danışır, ötən illəri də yada salırıq.

O, mehriban insandı, qısaca desək, adam kimi adamdı.

Arada ustanın əl işlərinə baxıram. Onun düzəltdiyi samovarlara, çıraqlara, kuzələrə, camlara, qazanlara, məcməyilərə, sərpuşlara, gülabdanlara və müxtəlif bəzək əşyalarına baxmaqla doymaq olmur. Ürəyin, alovun, çəkicin və yorulmaq bilməyən əllərin misi döyə-döyə gözəlliyə çevirdiyi bu əşyalar adamın gözünü-könlünü sevindirir...

Gəlin, sizi usta Kəbləmi ilə yaxından tanış edim.

Kəbləmi Əliyev Lahıcın məşhur ustası, belə demək olarsa, misgərlik sənətinin korifeyi sayılan usta Nağının oğludur. Bir vaxtlar yerli və xarici qəzet-jurnallarda onun əl işlərinin foto-şəkilləri çox çap olunub və hazırladığı milli qablar, suvenirlər neçə-neçə sərginin bəzəyi olub. Onu da deyim ki, rəhmətlik usta Nağı, həm də söz-sənət sərrafı və hörmətli el ağsaqqalı idi. Onun böyük külfəti olub – 6 oğul, 4 qız. Nağı usta uşağlarının hamısını, belə demək olarsa, körüyün doğurduğu qığılcım və çəkic səsi altında böyüdüb. Buna görə də öğlanlarının hər biri çəkic vurub, zəhmətdə, alın tərində bişib. Deyilənə görə, böyük oğlu, rəhmətlik Novruz da gənc yaşından əsl sənətkar kimi tanınıb. Bəziləri misgərliyin bir qolu sayılan qalayçılıq da edib, dəmirçilik də. Yaxşı deyiblər, sənətin yox, sənəkarın pisi-yaxşısı olur. Bu gün də 2 qardaş Lahıcda, 3 qardaş isə Şamaxıda misgərliklə məşğuldur. Kəbləminin oğlu Ağakişi də yaxşı misgər kimi tanınır.

Kəbləmi deyir ki, dədə-babalarımış bizə həm şərəfli ad, həm də gözəl sənət qoyub gediblər. Bizim borcumuz da bu əmanətlərə sahib çıxmaq və qoruyub yeni nəslə çatdırmaqdır.

Bir qabı işləyəndə gərək sən onu imkanlı və ya imkansız adam üçün düzəltdiyini fikirləşməyəsən. Elə işləyib ortaya qoyasan ki, ona tamaşa edən, istifadə edən "əhsən!"– desin.



Mən, qıtlıq illərində 5 il Şamaxı bazarında işlədim. Çox diqqət çəkən yer deyildi, amma o şəhərdə o qədər müştəri toplamışdım ki, yalan olmasın, gecə-gündüz işləyirdim. Təmir etdiyim hər bir əşyanın da mükəmməl olmasına çalışırdım. Atam bizi belə usta olmağı tərbiyə edib... Sənət gözəldir, gərək vicdan daim keşikçin olsun, tamah səni aldatmasın. Söhbət bu yerə gələndə usta Kəbləmi çox sevdiyi bu şeiri söyləməyi unutmur:

**Pis olub getsə də dövlətin zayə,**
**Yenə sənətdir əldə sərmayə.**
**Varmı sənətkardan daha bəxtiyar,**
**Əlin zəhmətindən ləzzətli nə var?**

Əsl usta, sənətkar odur ki, aldığı sifarişə öz düşüncələri, ideyaları ilə yanaşsın və işləyib hazırladığı əl işinə baxanlar onu görəndə yaxşı mənada heyrətlənsinlər. Məlumat üçün deyim ki, neçə il əvvəl mən 2 metrdən də xeyli hündür bir samovar sifarişi almışdım. Sifarişçilər öz baxışlarına görə necə bir samovar istədiklərini söylədilər və getdilər. Hiss eldim ki, sifarişçi sənəti bilən və qiymət verən adamdı. O samovara 200 kilodan çox mis işlətdim və 5 ay zəhmət çəkdim. Öz düşüncəmə görə milli naxışlardan da istifadə edərək samovarı bəzədim. Bir dəm çayniki də düzəltdim. Sifarişçi aparmağa gələndə xeyli baxdı və sonra təşəkkür elədi. O da razı qaldı, məni də razı saldı.

Kəbləmi yaxşı misgərdir. Amma sənət dostları deyir ki, onun kimi qalayçı bəlkə də, heç respublikamızdur yoxdur. O, işləyəndə əllərini elə sürətlə hərəkət etdirir ki, heyrətlənirsən. Bir əli ilə odun üstündən götürülmüş qazanı çəkiclə tutur, digər əli ilə qalayı pambıqla qaba elə sürətlə çəkir ki, sanki güzgü yaranır. Bu cür işləmək işin keyfiyyətinə yaxşı təsir göstərir.

Sözarası soruşdum ki, usta, dolanışıq necədi, yəqin ki, çətinliklər, müəyyən problemləriniz var?

Həmsöhbətim bildirdi ki, şükür, dolanırıq. Çörəyi verən Allahdır. Ancaq çətinliyimiz də var. Çünki bir dağ kəndində düzəltdiklərinə alıcı tapmaq çətindir. Çünki indi pandemiyadan əvvələ baxanda turist sayı azalıb. Gələn turist xırda qab, suvenir alır. Yaxşı olar ki, ABAD təşkilatı bizə kömək etmək istəyirsə, məhsullarımızı alıb pulunu nağd versin. Elə sifarişlərini də əvvəlcə bildirsin. Çünki biz qazandığımız vəsaitlə həm ailəmizi dolandırır, həm də material alırıq. Banklar faizlə kredit verirlər, lakin biz o krediti faizi ilə qaytarmaq gücündə deyilik...

2019-cu ilin yayında Birinci vitse-prezident Mehriban xanım Əliyeva qızları ilə Lahıca gələndə Baş küçədəki misgər emalatxanalarına da baş çəkib, ustaların həm əl işləri ilə tanış olub, eyni zamanda, onların qayğıları ilə maraqlanıb. Birinci xanım burada ilk tanışlığa Kəbləminin misgər dükanından başlayıb və ustanın hazırladığı qablar, mili ornametli suvenirlər onun çox xoşuna gəlib. Kəbləmi deyir ki, işləyirdim. Bir də gördüm ki, Mehriban xanım girdi dükana. Gözlərimə inanmadım. Tez ayağa qalxıb, "Xoş gəlmisiniz!" dedim. Əl işlərimə baxıb dedi ki, "elə bil bir əsr keçmişə qayıtdım..." Bu sözləri mən indi də sənətimə verilən böyük qiymət bilirəm.

**Səməd MƏLİKZADƏ**

İdman

## "Qarabağ"ın Nərimanı dünyada 7-cidir

**Beynəlxalq İdman Araşdırmalar Mərkəzi (CIES) dünyanın 65 liqasından mövsümün cari dövrü üçün 21 yaşadək ən yaxşı futbolçuların siyahısını dərc edib. Ən yaxşılardan biri də "Qarabağ"ın hücumçusu Nəriman Axundzadədir.**



20 yaşlı hücumçu ötürmə və zərbələrə görə ən yaxşı statistikaya malik olan sağ cinah müdafiəçiləri qrupunda 7-ci pillədə qərarlaşıb. Faiz ifadəsində onun göstəricisi 75,1 olub. Bu zirvədə ən yaxşılar Arda Gülər (Real Madrid, 81,4), Fakundo Buonanotte (Lester, 79,6) və Matej Şindir (Banik, 78,9).

Ümumilikdə, Axundzadə bu mövsüm ağdamlıların heyətində 20 oyuna (1028 dəqiqə) çıxıb, 4 qol vurub və 9 məhsuldar ötürmə edib.

## Rusiya futbolçusu "Turan Tovuz"a keçir



**Rusiyanın "Dinamo" (Mahaçqala) klubunun baş direktoru Şamil Qazizov futbolçusu Anton Kraçkovskinin böyük ehtimalla karyerasını Azərbaycanda davam etdirəcəyini təsdiqləyib.**

Bu barədə Premyer Liqa təmsilçisinin nümayəndəsi "Matç TV"yə bildirib. 22 yaşlı yarımmüdafiəçi karyerasını Kurban Berdıyevin rəhbərlik etdiyi "Turan Tovuz"da davam etdirməyə yaxındır.

"Böyük ehtimalla Anton Kraçkovski oyun təcrübəsini saxlamaq üçün yanvarda "Turan"a icarəyə göndəriləcək", – deyə Ş.Qazizov bildirib.

Qeyd edək ki, Anton Kraçkovski "Dinamo"ya da 2023-cü ildə məhz K. Berdiyevin istəyi ilə Qazaxıstanın "Kayrat" komandasından cəlb edilmişdi. Futbolçu bu mövsüm Rusiya Premyer Liqasında 7 matçda forma geyinib.

## Cənubi Afrika gimnastları Bakıda təlim keçiblər



**Cənubi Afrikanın bədii gimnastika üzrə "Klerksdorp School of Gymnastics" klubunun üzvləri Bakıda təlim-məşq toplanışında olublar.**

Bu barədə Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidməti məlumat yayıb. Hazırlıq prosesi Milli Gimnastika Arenasında gerçəkləşib. Dekabrın 5-də start götürən toplanış dekabrın 23-də başa çatıb.

Sağlamlıq

## Dəfnə – sağlıq gətirər sənə

**Hər dərman, yaxud məlhəm müəyyən xəstəlikləri müalicə etmək üçün faydalıdır. Amma nəyin hansı xəstəlikdə və necə kömək etdiyini çoxumuz bilmirik. Rusiyanın təbii vasitələrlə müalicə mütəxəssisləri dəfnə yarpağının möcüzəvi köməyindən yazıblar. Onlar dəfnədən hazırlanmış bu və digər dəmləmənin necə hazırlandığı və istifadə edildiyi barədə fikirlərini bölüşüblər.**



Bildiriblər ki, yuxusuzluq, qeyri-sabit psixoemosional fon zamanı dəfnənin su dəmləməsi müalicə üçün uyğundur. 2 dəfnə yarpağı götürüb bir stəkan qaynar suda dəmləmək lazımdır. Hazırlanmış "çayı" gündə 2 dəfə – səhər yuxudan oyandıqdan sonra və yatmazdan əvvəl içmək tövsiyə olunur.

Dəfnə məlhəmi oynaq ağrılarını, şişkinliyi aradan qaldırmağa və hərəkət fəaliyyətini bərpa etməyə kömək edir. Daxilə olduğu kimi xaricə istifadəsi də yaxşı nəticə verir.

8 dəfnə yarpağı 2 stəkan qaynar suda bir saat dəmlənib süzülür. 1 çay qaşığı bal əlavə edilir və gündə 3 dəfə içilir. Dərman kimi 10 gün yeməkdən sonra qəbul edilir.

Xaricə istifadə üçün 5 ədəd yarpağın üstünə 200 millilitr spirt və ya araq tökülüb soyuducuda 14 gün saxlanır. Hazır məlhəm gündə 3 dəfə ağrıyan yerə sürtülür.

***Z.HÜSEYNLİ***
***XQ***



## Süni intellekt sürətini artırır

**Süni intellekti insanlardan ayırmaq üçün "Captcha" testindən istifadə edilir. Lakin o əvvəlki kimi effektli deyil. Fakt budur ki, müasir süni intellekt alqoritmləri klassik tapmacaları real internet istifadəçilərindən daha sürətli həll edir.**

Kompüter görmə texnologiyalarından istifadə edən süni intellekt botları şəkillərdəki təhrif olunmuş mətni və ya obyektləri asanlıqla tanıya bilirlər. Məsələn, "Google Vision" və "OpenAI Clip" bu cür problemləri saniyənin bir hissəsində həll edir, halbuki bunun üçün insana daha çox vaxt lazım olur.

"The Conversation"a görə, süni intellekt botları tezliklə ənənəvi təhlükəsizlik mexanizmlərinə əsaslanan daha çox xidmətləri təhdid edəcək. Bununla belə, tərtibatçılar hələ də köhnəlmiş "Captcha"nı əvəz edə biləcək universal həll təklif etməyiblər.

Son vaxtlar süni intellekt sahəsində bir çox mühüm yeniliklər var: dekabrın əvvəlində "Google" özünün ən təkmil süni intellekt modeli olan "Gemini 2.0" və super mürəkkəb sorğular üçün alətini təqdim edib. Həm daha ucuz, həm də daha sürətli olan "Gemini 2.0" daxili vizual, audio və mətn dəstəyinə sahibdir. Səsin təkrar istehsalı onun ən əsas xüsusiyyətlərindən biridir.

Əslində, bu xüsusiyyətin "ChatGPT"-nin inkişaf etmiş səs rejiminə bənzədiyini deyə bilərik. Artıq "Gemini"ni sürətli və ya yavaş, habelə müxtəlif aksentlərdə danışdırmaq mümkündür. Yeni model daha mürəkkəb suallara cavab verir, bu da axtarış təcrübəsini növbəti səviyyəyə qaldırır.

***PÜNHAN***
***XQ***

*✓ 2019-cu il noyabrın 27-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "AZ-TEXNODİAQNOSTİKA VƏ TEXNİKİ TƏCHİZAT XİDMƏTLƏRİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNƏ verilmiş EL-670/2019 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır. VÖEN-1001047631.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2984
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00